# AZƏR ABDULLA

# HEKAYƏLƏR

## QUYRUQ

Qara at kişnərtisinə yuxudan ayıldı, tələsik ayağa qalxıb çadırdan bayıra çıxdı.

Azca aralıda dəlisoy görkəmdə dayanıb qulaqlarını şəkləmiş Alapaça başını qaldırıb qarşıdakı dağın ətəyindən azca yuxarıda yaşıl qurşaq kimi uzanan palıd pöhrəliyinə sarı baxırdı.

Qırılıb boynundan sallanan qara qəzil sicimin ucu dizlərinə dəyirdi. Qaranı görcək başını oynadıb ayaqlarını yerə döyərək qırıq-qırıq kişnədi, elə bil gec göründüyünə görə Qaranı danlayırdı və yenə bayaqkı səmtə baxdı.

Qara başını qaldırıb dümdüz yaşıl qurşaq kimi uzanan palıd pöhrəliyini gözdən keçirəndə azca yuxarıda arxayın və saymazyana gedən bir şey gördü. Onun qurdmu, itmi, yoxsa tülkümü olduğunu kəsdirə bilmədi.

Alapaçaya ”Canın necə əzizdi, gözlə gəlib qarnını dağıdar” dedi, qollarını açıb ürəkdən gərnəşdi. Başdan ayağa tər içində olan atın üstündə pöhrə verən milçəyi, mığını, alabuğanı görüb azca aralıda iri gövdəli külə dağdağana sarı yollandı.

Dağdağanın koğuşundan kağıza bükülmüş DDT dərmanı çıxarıb qayıtdı, yaxınlaşıb atın boynunu yavaşca şapalaqladı, sonra sığalladı. Dərman tozunu

Alapaçanın çənəsinin altında yığışıb gırnaş bağlamış at milçəyinin üstünə səpdi. Xoşagəlməz iydən Alapaça başını yuxarı qaldırıb yırğaladı.

Qara, atın quyruğunun altını, paçalarının altını da dərmanladı. Kızma-kızma at milçəkləri, atın qanını sorub şişmiş mığılar, alabuğalar dağılıb pərən-pərən oldu.

Qara Alapaçanın boynundan sallanan qəzil ipdən tutub darta-darta çaya gətirdi. Su azaldığından çayın yosunlu daşları üzə çıxmışdı, su ipistiydi. Qara şalvarını dizəcən çırmalayıb Alapaçanı çayın ortasına çəkdi, yaxşı-yaxşı sulayıb çimizdirdi, tərtəmiz yudu. “Çimizdirəndən sonra yenə dərmanlaram”- düşündü.

Kölgə uzanıb çaya enmişdi. Qara Alapaçanı çimdirəndən sonra günə çəkdi, aralanıb bir daşın üstündə oturdu, gündə qara qəhvəyi işım-işım yanan atı başdan ayağa gözdən keçirdi.

Qaranın babası Alapaçanı arana aparıb nallatdıranda at mıxa düşdüyündən bərk axsayırdı. O vaxtdan bir ay ötmüşdü, atın axsaması keçsə də, babası onu nə minməyə qıyırdı, nə də işlətməyə. Alapaça çadırın həndəvərində yaylağın allı-güllü otlarını otlayıb, səlliminə dolanırdı.

Kökəlib bitmişdi, bir cüt göz istəyirdi baxsın. Qara ata yaxınlaşdı, sıçrayıb belinə qalxdı və öz cəldliyindən xoşu gəldi. Siniflərindəki gözəl Turacı xatırladı, ona elə gəldi, qız hardansa ona baxır.

Bir göz qırpımında sıçrayıb atın belinə mindi, özünü saxlaya bilmədiyindən sürüşüb yerə düşdü. Beləcə bir neçə yol sıçrayıb mindi. Axırıncı dəfə aralıdan qaçaraq yaxınlaşıb Alapaçanın belinə atıldı, dabanlarıyla nə qədər dəhmərləsə də, Alapaça tezdən hörükləndiyi palıda sarı getmədi.

Qaranın kefi biraz pozuldu, yerə atılıb qəzil ipi əlinə dolayaraq arxasınca çəkdi. Alapaça qabaqca qollarını yerə dirəyib dartındı, Qara qışqırandan sonra könülsüz-könülsüz onun arxasınca addımladı.

Şaqqavatlı palıdın yanına çatanda, qəzil sicimin onun gövdəsinə sarıldığını görəndə Qara təəccübləndi və bayaq çadırın qabağında qan-tərə batmış Alapaçanın dəlisoy görkəmi, dağın döşüylə yaşıl qurşaq kimi uzanan palıd pöhrəliyindən azca yuxarıda saymaz və arxayın gedən heyvan yadına düşdü.

Dan yer söküləndə Qaranın babası Alapaçanı gətirib bu palıda hörükləmişdi. Gün çaya düşənəcən at arxayın və ləzzətlə otlamışdı. Hava sərin olduğundan atın qoxusu ətrafa yayılmamışdı, ot-ələfin, yarpağın, budaqların üstündə gecələyən mığılar, acgöz, iri alabuğalar hələ yuxudan ayılmamışdılar. Ancaq Alapaça hərdənbir vərdişlə bağlı nazlana-nazlana quyruğunu yelləyirdi. Gəlib yamyaşıl gözənin ayağına çatmışdı, nə qədər dartınsa da, biçiləndən sonra yenicə güzlək bağlamış tər, yağımsov, şirəli göylərə ağzı yetmirdi.

Alapaça gözlənilmədən hürkdü, başını yuxarı qaldırdı, qulaqları şəklənmiş halda mıxlanıb yerində qaldı.

Aralıda sıx itburnu kolunun yanında qurd başını dik tutaraq qulaqlarını şəkləmiş, quyruğunu qaldırıb alov saçan gözlərini Alapaçaya zilləmişdi.

Uzaqdan baxan olsaydı, şaqqavatlı palıd ağacı kimi, azca aralıda əyilib qurumuş, şaxtadan, yağışdan, istidən öz-özünə qabıqlanıb soyulmuş və ağappaq olmuş ulas ağacı kimi yerində quruyub qalmış bu atı da, bu heyvanı da təbiətin yüz illərdən bəri yaratdığı bir heykələ oxşadardı.

Bu anın nə qədər çəkdiyini bir Allah bildi. Alapaça uzun müddət beləcə baxmağa duruş gətirəmmədi, beləcə dayanmağa gücü, səbri, hövsələsi çatmadı. Özündən çox-çox balaca görünən bu heyvandan qorxub, hürkməsi elə bil arına gəldi.

Qarşısındakının nə olduğunu bilmək, həm də ondan qorxmadığını göstərmək istədi. Salam verirmiş kimi başını aşağı-yuxarı edib qoııarını yerə döydü. Gözlərindən alov saçan heyvan bir sıçratma vurub irəli cumdu.

Alapaça yerindən götürülüb çadıra sarı qaçmaq istədi. Ancaq boynundakı qara qəzil sicim onu hörükləndiyi palıd ağacına sarı dartdı. Gözləri böyümüş, yalmanı qabarmışdı, gur telli, uzun saçaqlı quyruğunu qaldırıb arxasına baxa-baxa palıdın başına yarım dairə fırlandı və birdən həmin heyvanla qarşı-qarşıya gəldiyini görəndə dayandı.

Heyvan yenə Alapaçaya hücum etdi. Alapaça çaşsa da, tez arxasını ona sarı çevirdi, heyvan sürətini azaldıb yorta-yorta gəldi, üç-dörd addım qalmış yay kimi atın üstünə atıldı, dal qıçlarının üstünə düşməyi ilə atın qoşa şıllağa qalxmağı bir oldu.

Heyvanın sinəsindən itələyib yumşaqca geri tulazladı, heyvan ağrı hiss etməsə də, bir an yerində dayandı, elə bil bir az da hirsləndi, yenidən bir neçə dəfə Alapaçaya həmlə elədi, ancaq at hər dəfə vaxtında şıllağa qalxıb onu yaxına buraxmadı və artıq onun canavar olmasına şübhə eləmədi.

At sonuncu kərə qoşa şıllağa qalxanda canavar onun par-par yanan soyuq, gümüşü nallarını görüb qorxdu. Bu dəfə ata qabaqdan təpindi, o, Alapaçaya balaca, gücsüz göründü, buna görə at bu dəfə arxasını çevirmədi, əllərini yerə döydü, sonra qabaq ayağının birini irəli atıb yeri eşdi.

Canavar yay kimi yığılıb cod və boz tüklərini qabartdı, kirpiyə bənzədi. Alapaça bu əcayib varlıqdan yenə də qorxdu, onun sıçramasından ehtiyat edib yenə arxasını çevirdi, ancaq bu dəfə Alapça özünü sicimə dolaşdırdı, boynu dartılıb yana qanrıldı, başını həmişəki kimi dik tuta bilmədi və canından bir üşütmə keçdi.

Canavar onun qarşısında görünəndə Alapaça özü də bilmədən səmtinə fırlandı və dolağı açıldı, özündə bir yüngüllük hiss etdiyindən yerində oyur-oyur oynadı, sevinirmiş kimi bir neçə yol şıllağa qalxıb irəli cumdu.

Canavar Alapaçanı qovduqca qovdu, gah quyruğunu qapdı, gah da böyürdən budlarına toxundu. Bir yol sıçrayıb belinə çıxdı, özünü saxlaya bilməyib yavaşca sürüşüb yana aşdı.

Alapaçanın boynu yana dartıla-dartıla qaçdı, qaçdı, sicim ağacın gövdəsinə sarındığından palıdla onun arasındakı məsafə o qədər azaldı ki, yanı-yanı qaçmağa başladı və nəhayət boynu aşağı dartılıb palıdın gövdəsinə dəyəndə canavar bir an dayandı. Atın gözləri bərələ qaldı.

Canavar başını irəli uzadıb gözlərini Alapaçanın hədəqədən çıxmış gözündən çəkmədən addım-addım ona yaxınlaşdı. At qorxunun daha da yaxınlaşdığını duyduğundan yerində dayanmır, dal ayaqları sağa-sola hərlənir, tez-tez qoşa şıllağa qalxıb yerində dairələr cızırdı.

Canavar qovduğu səmtdən təpinib atı yenə hürkütdü. Alapaçanın boynu nəhəng palıdın gövdəsinə söykəndi. Girəvə tapa bilmədiyindən canavar hikkəsindən ot-ələfi, torpağı eşib havaya sovurdu və beləcə tozanaq qopara-qopara ata yaxınlaşdı. Alapaça dartınmağa başlayanda canavar gözlənilmədən atın ağzına sarı sıçradı.

Sıçramasıyla Alapaçanın bütün gücüylə boynunu yuxarı dartıb sicimi qırmağı bir oldu. Elə bil dənizdən çıxmışdı, tər axıb dırnaqlarını da islatmışdı. Alapaça özündə bir yüngüllük duydu, başını, quyruğunu qaldırdı, qabarmış yalmanı yellənə-yellənə çadıra sarı götürüldü. Çadıra yaxınlaşanda canavar Alapaçadan aralanıb özünü çəpəki dərəyə verdi.

Canavar bütün gecəni də ac-yalavac dolaşdı, qabağına heç olmasa bir dovşan da çıxmadı. Özündən də qəzəbli, ac bir canavar içini gəmirib parçalayırdı. Səhər obaşdan Sarı Yalı adlayanda çadırdan yuxarıda qalın meşənin ortasındakı talada atı görcək tanıdı. Aclıq güc gəldiyindən yelin, mehin səmtinə fikir vermədi.

Bəlkə də gəldiyini qəsdən Alapaçaya bildirmək istəyirdi ki, hürküb eləməsin. Bir su içimində yalın başından talaya endi. Açıqlığa çıxmamış Alapaça onun hənirini aldı, yenə başını yuxarı qaldırıb qulaqlarını şəklədi.

Qurd meşədən talaya çıxcaq bir an yerində donub qaldı, sonra ot-ələfi iyləyə-iyləyə bir neçə dəfə talanın başına yivtəkin fırlandıqca, ata bir az da yaxınlaşdı. Alapaça da onu gözdən qoymadan yerində fırlandı, fınxırdı.

Canavar birdən yenə hücum etdi, Alapaça yerindən götürüldü, canavar kəsələmə qaçaraq onun qabağını kəsdi, at qorxusundanmı, iyrəndiyindənmi, bu əcayib heyvana toxunmaq istəmədiyindənmi qollarını torpağa dirədi, özünü saxlaya bilmədi, az qaldı qurdun üstünə çıxsın, sıçrayıb onun üstündən adlamaq istədi, ancaq ona toxunacağındanmı ehtiyat etdi, yoxsa qarnının altında xoşagəlməz nəsə olacağındanmı qorxdu, Alapaçanın sıçramağa cürəti çatmadı, şaha qalxıb kişnədi. Canavar atın qabağından partlayıb çıxdı, tez geri dönüb atın arxasına keçdi. Alapaçasa vaxtında çevrildi, təpik atıb irəli cumdu.

Günortaya az qalmışdı. Alapaça nazik palıd tinginin başına bəzən dördnala, bəzən yorğa, bəzənsə addım-addım ataraq çox dolandı. Yaxınlaşdıqca ting əyilir, sicimin sarğısı sürüşüb açılırdı. Heç nə edə bilmədiyini görəndə canavar yenə də ot-ələfi, torpağı eşib havaya sovurdu.

Küsübmüş kimi başını aşağı saldı, atdan üz dğndərib kor-peşman aralandı, gedib talanın qırağında yemşan kolunun yanında otluğa sərələndi. Alapaçanın yoğun, ətli yanbızlarına həsrətlə və yana-yana baxdı. Güclü, möhkəm qollarını, enli döşünü, par-par yanan qısa, yogun boynunu gözdən keçirdi və bildi ki, onun boğazını heç vaxt ağzına keçirib sıxmağa gücü çatmayacaq, özünün balacalığına, gücsüzlüyünə daha da qəzəbləndi.

At diqqətlə canavara baxdı, baxdı, başını yuxarı-aşağı elədi, əyilib hirsli-hirsli iki ağız ot qırpdı, başını qaldırıb yenidən canavara sarı boylandı, bərk-bərk sıxılmış ağzının yanlarından yamyaşıl, güllü yonca sallanırdı. İki yol əsəbi-əsəbi çeynəyib yenidən otlamağa başladı.

Aclıq güc gəldiyindən elə bil canavarı unutdu, otlayıb yeridikcə hörüyü yavaş-yavaş açılıb uzandı. Canavarın ata paxıllığı tutdu. “Allah səni necə xoşbəxt yaradıb, yaşamağına nə var ki, sağın, solun yemdi. Ağzını uzat, vəssalam, mənim kimi günlərlə ac-yalavac qalmırsan ha.

Üstəlik də insan kimi, it kimi amansız dostların, havadarların var...” Elə bil Alapaçanın otlamasını canavarın gözü götürmədi, qalxıb tənbəl-tənbəl ata sarı gəldi. Alapaça yenə başını qaldırıb qulaqlarını şəklədi. Canavarın gözlərindəki əvvəlki qorxu, vahimə, atın ürəyinə, bütün bədəninə işləyən, vicvicə salan sehr yox idi, az qala gözü tutulmuşdu.

Canavar yerişini dəyişmədən o qədər yaxınlaşdı ki, aralarında həmişəkindən də az bir məsafə qaldı. Atın hürkmədiyini görəndə təccübləndi, bir an ayaq saxladı, otların arasında nəyisə axtarırmış kimi iyləyə-iyləyə iki addım da ataraq lap yaxınlaşdı.

Atın hürkəcəyindən, yaxud arxasını ona sarı çevirəcəyindən ehtiyat elədiyindən özü arxasını ona sarı çevirdi, yerə sərildi, çömbəlib burnunu quyruğunun dibinə dayayıb, balaca görkəm aldı.

Çəmənliyin sərinliyini canına çəkir, yarıyumulu gözlərinin arasından atın tez-tez nəfəs aldığını, ayaqlarını yerə döydüyünü, başını oynatdığını, narahatlıq içində darıxdığını görürdü.

Canavarın uzun müddət qımıldanmadığını görən Alapaça sanki bir az arxayınlaşdı, gur, uzun saçaqlı quyruğunu yellədərək yanbızına qonub qanını soran alabuğanı qovdu, diqqətlə qurda baxdı, elə bil azca aralıda çöməlib yarı qapalı gözləriylə onu gözdən qoymayanın qurd olduğunu unutdu, bir anlığa ata elə gəldi qarşısındakı qayadır, kötükdür.

Alapaça aşağı əyilib üst dodağıyla bir neçə yol yumşaq otları qanırıb qırpdı, yenə boylanıb qurda sarı baxdı. Bu vaxt Qoşa qayadan qopub gələn bir əlçim mehə təzə bir qoxu qarışdı.

Bu qoxu havada üz-üzə gələn seyrək dumana bənzəyirdi və bu dumana bənzəyən qoxunun aşağı sallanmış ətəyinin ucu canavarın burnuna toxunub keçdi. Canavar burnunu qırışdırıb boynunu yuxarı uzadaraq havanı qoxladı, ancaq Qoşa Qayanın qarnında gizlənmiş Qaradan qopub gələn qoxu artıq canavarın üstündən ötüb alçaqboylu yemişan kollarına dəyib dağıldı.

Bu təzə, yad qoxunun dalısınca, tərli Alapaçanın tünd, gözəl qoxusu ac-yalavac canavarı vurdu və onu məst etdi.

Canavar qalxıb havanı iyləmək istədi, ancaq atın hürküb qaçacağından ehtiyat etdiyindən ayağa durmadı, belüstə aşıb dayandı, biləkdən əydiyi əllərini, ayaqlarını suda üzürmüş kimi havada oynatmağa başladı, guya müvazinətini saxlaya bilmədiyindən bir dəfə də ata sarı aşırıldı.

Alapaça əllərini yerə döysə də, yerindən tərpənmədi. Qurd yenə arxasını ata sarı çevirib, başını əllərinin arasında otun üstünə qoydu. Elə bil canavarın bütün hirsi, qəzəbi, aclığı, hikkəsi canından axıb quyruğuna yığılmışdı, üz-gözündən, qulağından, bütün görkəmindən mehribanlıq, sakitlik yağsa da, quyruğu bir an yerində dayanmır, əsəbi-əsəbi oynayırdı...

Elə bil quyruq canavarınkı deyildi, sözünə baxmırdı. Canavar içindəki aclığın, hikkənin sakitcə dayana bilməyən tünd boz quyruğunda görünəcəyindən ehtiyat edib, ata sarı deyil, əks tərəfə yombalandı ki, Alapaça hürküb uzağa qaçmasın. Ayağa durdu, bir az da aralanıb yerində atılıb-düşdü, oynamağa başladı. Alpaça bir az arxayınlaşsa da, onun otlamağında, başını qaldırıb boylanmağında yenə də əsəbilik duyulurdu.

Canavarsa gah yombalanır, gah qaçıb atdan uzaqlaşır, gah göyə sıçrayır, sonra yenidən ata yaxınlaşıb əllərini yerə uzadaraq sinəsini otluğa sürtüb min bir hoqqadan çıxırdı.

Beləcə oyunlar çıxara-çıxara canavar Alapaçaya lap yaxınlaşdı, arxasını ona sarı çevirdi, başını aşağı salıb quyruğunu qısdı, dalı-dalı iki addım atıb bir az da ata yaxınlaşdı və yerə uzandı, aralarında özü boyda məsafə qaldı.

Alapaça yenə də ayaqlarını yerə döydü, ancaq at bunu daha qorxudan eləmirdi, qurdun belə yaxında olması elə bir onu dalayır, yaxud qıdıqlayırdı. Bu dəm belinin ortasına qonmuş alabuğa atı sancdı, neçə dəfə quyruğunu yellətsə də, alabuğanı qova bilmədi, dalbadal iki dəfə ağzını uzadıb alabuğanı qovaladı.

Bu an canavar ovuna sarı gizlicə sürünən pişik kimi iməkləyib ata bir az da yaxınlaşdı. Alapaçanın daha otlamağı gəlmirdi, qorxusu bir marağa çevrilmişdi, başını qurda sarı uzadıb çəkir, aralıdan imsinirdi.

Qurd anladı ki, atın daha ona qarşı qəzəbi-zadı yoxdu. Canavar quyruğunu uzadıb yavaşca Alapaçanın qabaq ayağının qarnına qənşər tərəfinə toxundurdu.

Canavarın yarıyumulu gözü bayaqdan iri bir alabuğanı və onun başına yığışmış mığı, milçək topasını almışdı. Atın ağzı həmin yerə yetmirdi. Alabuğa atın həmin yerini necə sancmışdısa Aalapaça bayaqdan qolunu iki dəfə qaldırıb yerə döymüşdü.

Birinci dəfə qurdun quyruğunun ucundakı ağ tüklər həmin həşarat topasına yavaşca toxundu, tükdən də nazik xortumunu hələlik batıra bilməyən mığıların bəziləri uçub yuxarılarda hərləndi.

Atın tərpənmədiyini görəndə canavar quyruğunu bir az da bərkdən sürtüb həmin topanı dağıtdı və qandan qarınları şişib tuluğa dönmüş mığıların bəziləri partladı. Qurdun qartmış quyruğu uzanıb Alapaçanın dizindən yuxarılara çatmışdı. Alabuğalar, mığılar uçub dağıldıqca həmin yerlər qaşınırdı. Quyruq həmin yerlərə sürtüldükcə Alapaça xoşallanır, elə bil yuxu görürdü.

Neçə il qabaq dayça, lap qulun olduğu çağlar ilxıçının itiylə dostlsşıb yaşıl-yaşıl çəmənlərdə qaçdığını, soncuqlayıb şıllaq atdığını yaz, yay, payız aylarında həmin itlə bir yatıb, bir durduğunu, çölü, düzü birgə dolaşdığı günləri, ağız-ağıza imsinib yalaşdığı anları xatırladı.

Neçə illərdi it yoxa çıxmışdı, Alapaçanın yadında itin nə rəngi qalmışdı, nə qoxusu, nə də boyu. Düzdü, dünəndən bəri bu heyvan Alapaçanı bərk qorxutmuş, çox incitmişdi, ancaq bugünkü mehribanlığı, günortadan bəri qorxu və alov saçan baxışlarını gizlətmək üçün gözlərini yarıyacan örtəndən sonra çıxartdığı oyunlrın hamısı, o itin oyunlarına, zarafatlarına oxşayırdı.

Artıq canavarın quyruğu bərkiyib ağaca dönmüşdü, qarınları şişib qan tuluğuna dönmüş mığıların bəziləri partlamışdı.

Yarıyumulu gözləriylə atın xoşallandığını görən qurd quyruğunu bir az da bərkitdi, yiyə dəryaza çəkilən kimi, bir neçə kərə quyruğunu atın ayağına sürtdü, yavaşca çevrilib ağzını yuxarı uzadaraq atın tərli və seyrəkcə qana bulaşmış diz büküyünü, dizindən yuxarıları yaladı. Qanın qoxusunu, dadını duycaq hərisliklə yalamağa başladı.

Yavaş-yavaş dikəlib ayağa qalxdı, indi Alapaça gözlərini açıb baxsaydı, canavarın quyruğunu görə bilərdi. Elə bil bu, qurdun da ağlına gəldi, keçən qış dəyənin damını söküb əlləri ilə asılaraq quyruğunu aşağı sallamış, fərşin alçaq olduğunu bilib arxayın olduqdan sonra dəyəyə yenib on yeddi qoyunu xirtdəkləyib boğmuşdu.

Başa çatdırdığı bir çox uğurlu əməliyyatın iştirakçısı olan quyruğunun sanki tanınacağından ehtiyat edərək, paçalarının arasından sıxıb qarnının altına uzatdı, quyruğunun bərkiyib sümüyə döndüyünü özü də hiss etdi. Atın qolunu yalaya-yalaya döşünə çatdı, bir-birinə söykənmiş qarınları qanla dolu mığılar, qırmızı səpkiyə oxşayırdılar. Toxunanda belə tənbəlliklərindən uçub getmək istəmirdilər.

Canavar atın döşünü həvəslə, böyük bir ehtirasla yalayır, dilinin, burnunun altındakı isti ətin yumşaqlığını duyur, atın döşünü gəmirib parçalamaqdan özünü, bir Allah bilir, hansı dözümün, hansı səbirin, ümidin hesabına saxlayırdı.

Alapaçanın ömründə döşünü belə ləzzətlə sığallayıb qaşıyan olmamışdı. O xumarlanır, xumarlandıqca özündən asılı olmayaraq gözləri qapanır, başı aşağı sallanırdı.

Ağzı canavarın belinə toxundu, qurdun cod tükləri gəvən kimi daladığından at diksindi, başı azca yuxarı qalxdı, ancaq xumarlığı keçmədi, canavar ehmalca boynunu uzadıb Alapaçanın ağzını qoxuladı, alt dodağını yaladı. Və yalaya-yalaya dal ayaqları yarım dairə hərləndi, atla qabaq-qabağa dayandı.

Alapaçanın gözləri qapanmışdı, canavarınsa açılmış həris gözləri alışıb yanırdı. At birdən diksindi, gözləri bərəldi, başını yuxarı qaldırmaq istədi, ancaq heç yana tərpəşə bilmədi, qımıldandıqca dodaqları, dişlərinin dibi, damağı göynədi.

Canavarın qolları güclə yerə çatırdı, o, atın ağzını, burnunu ağzına alaraq bərk-bərk sıxıb yavaş-yavaş aşağı dartırdı. At bircə dəfə sola qımıldananda dodaqları parçalanıb ağzından çıxmasın deyə, qurd da həmin səmtə meyilləndi. Alapaçanın bərəlmiş gözlərinə qaranlıq çökdü, boğulub titrəməyə başladı, qabaqca dizləri büküldü...

Səhər tezdən talada canavar Alapaçanı qovanda şoraqəcələlər hay həşir saldılar, səsləri talanı başına götürdü. Canavar talaboyu qaçdıqca onun üstüylə dövrə vurub uçuşdular.

Günortaya yaxın səsləri azaldı. Ancaq bir neçəsi bütün günü səsini kəsmədi, budaqdan-budağa uçub narahat-narahat cikgildəşdilər. Axşamüstü canavar Alapaçaya yxınlaşıb onun dizindən yuxarıları, döşünü yalamağa başlayanda onların həyəcanlı səsi yenə çoxaldı.

Canavar Alapaçanın ağzından tutanda atın bədənindəki göynərtini sanki öz canlarında duyurmuş kimi, şoraqəcələlərin hay-həşiri yenə də talanı, meşəni başına götürdü. Bəziləri budaqdan-budağa, ağacdan-ağaca uçaraq özlərini yeyib tökür, bəziləri atla qurdun üstündə hərlənib hay- küy qaldırır, bəzilərisə alçaqdan uçub qurdu dimdikləmək, caynağıyla cırmaqlamaq istəyirdi.

Qara səhər obaşdan Alapaçanı talanın ortasındakı nazik palıd tinginin lap aşağısına, torpağa dəyən yerinə bağladı, ona elə gəldi ki, talaya gec gəldiyindən, yamyaşıl qurşaq kimi uzanan palıd pöhrəliyindən azca yuxarıda saymazyana gedən heyvan hardansa ona baxır, ona görə qoşalüləni yerdən götürcək yanına sıxdı, onu güdən heyvanı azdırmaq üçün tala boyu Şiş Qayanın əks tərəfinə addımladı, özünü qalın ormanlığa vercək uca, qollu-budaqlı ağacların arasıyla yenidən qayıdıb Şiş Qayaya dırmaşdı, iri bir daşın qarnında gizləndi.

Buradan tala ovuc içi kimi görünürdü. Qara bütün günü ac-susuz, maraqla canavarın çıxartdığı oyuna baxdı. Bir neçə dəfə qoşalüləni tuşlayıb vurmaq istədi “birdən canavar olmaz” düşündü.

Gün hər yerdən çəkilib getmişdi. Qara qayanın qarnından çıxıb talaya düşmək istəyəndə şoraqəcələlər yenə hay həşir saldılar. Bu vaxt Alapaçanın arxası Şiş Qayaya tərəf idi, canavarsa onunla üzbəüz dayandığından yaxşı görünmürdü. Alapaçanın qabaqca qollarının, sonra dal ayaqlarının yatdığını görəndə sanki Qaranı ildırım vurdu. Bir an dondu.

Qışqırmaq istəsə də, səsi çıxmadı, əyilib daş axtaranda qayaya söykədiyi qoşalüləni gördü və dili açıldı, gücü gəldikcə "Ay kafır!"- deyə qışqırdı, bir an bədənindəki bütün tükləri biz-biz oldu. Qoşalüləni qapıb Alapaçadan azca aralı otluğa bir-birinin dalısınca iki güllə boşaltdı.

Canavar insan səsinin hardan gəldiyini bilmədi. Başını tərpətmədən bərəlmiş göz bəbəklərini oynadıb görə bildiyi yerləri gözdən keçirdi, bütün diqqətini toplayıb eşidəcəyi səsin hansı səmtdən gəlməsini bilmək istədi. "Gəlib çıxanacan işini bitirərəm" fikirləşdi. Ancaq onlardan azca aralıda nəsə tappıltıyla yerə düşdü və bircə an sonra dalbadal qopan gurultudan bərk qorxdu.

Qəzəblə dartıb atın dodaqlarını, ağzını cırıb parçaladı və özünü yaxındakı ağcaqayınların yanına çatdırdı, dayanıb başını arxaya çevirdi, ağzını-burnunu yalaya-yalaya sağına-soluna baxdı, özünü qalın ormanlığa verdi. Şoraqəcələlər onun üstüylə ağacdan-ağaca, budaqdan-budağa uçaraq hələ də səs-küy salmaqdaydılar.

Alapaça özünə gəldi, Qara onun yanına çatanda yorğun və gücsüz halda ayağa qalxdı, görkəmində yazıqlıq, pərtlik vardı. Sakitcə baxırdı, parçalanmış ağız-burnundan qan axırdı.

## İŞIQ

***Sait Faiqə***

Səssiz qaranlıq bir gecədə oğlanla qız əl – ələ tutub çöl boyu dinməzcə yeriyirdilər. Ayaqlar altında qumun xışıltısından başqa heç nə eşidilmirdi. Qız həyacan içində pıçıldandı...

- Heç nə görmürəm...

Oğlan qızın əlini yavaşca sıxdı. Dinməzcə yeridilər. Nə sağ vardı, nə sol, nə irəli

görünürdü, nə geri, nə aşağı, nə yuxarı. Birdən qızın qulağında addım səsləri də eşidilməz oldu. Elə bildi ki, çöl boyu tək – tənha yeriyir. Sanki hava deyil, qaranlıq udurdu. Təngənəfəs olduğundan əlini dartıb titrək səslə pıçıldadı:

-Üzünü görmək istəyirəm...

Oğlan onun əlini du dəfə bərk - bərk sıxdı. Qız ayaqlarının altında qumun xışıltısını eşitdi. Ancaq çox çəkmədi, yenə sükut dörd yanı bürüdü. İndi qaranlıq ılıq, yaş parça kimi qızın əlinə , qoluna, ayaqlarına dolaşır, bədəninə suvaşırdı. Əlini dartıb bu dəfə qorxu içində:

-Üzün yadımdan çıxıb, - dedi. Oğlan dinməzcə onu çəkib ardınca aparmaq istədi.

Bir neçə addım irəliləyəndən sonra qız birdən dartınıb həyacanla qışqırdı:

-Qorxuram!..Sən kimsən?! Yandır, tez ol yandır, qorxuram! Işıq!Işıq!..

Oğlan cibindən kibrid çıxarıb son dənəni tələsik yandırdı. Alov fışqıraraq qatı qaranlıqda bomba kimi partladı. Yan – yörə işıqlandı. Bir – birinə qovuşmuş iki azman kölgə gedib qaranlığa dirəndi. Qızın geniş açılmış təlaşlı gözlərində titrək bir sevinc parladı. Həyacan içində qaranlığın bir parçasını əritmiş işığın ölçüsünə baxdı. Alov balacalaşdıqca qaranlıq canavartəkin acgöcəsinə onlara sarı təpildi.

Qız qorxu içində oğlanın üz – gözünə hərisliklə bir də baxdı.
Əlləri əsə - əsə:

- Qoyma keçdi, qoyma! - dedi. Oğlan barmağını diliylə yaşlayıb kibrit dənəsinin yanıb gözərən ucundan tutdu. Alov yenidən gücləndi. Qızın üzgözündəki sevinc yenidən işıqlandı. Kibrit çöpünün yarısı da yandı. Alovun iynə kimi iti ucu qısalıb birdən qaranlıqda yox oldu. Qız oğlanın əlindən bərk – bərk yapışdı.
Səssizcə yeriyirdilər. Zülmət elə bil bir az da qatılmamışdı, narın qumun xışıltısı aydınca eşidilirdi. Qız oğlanın əlini bərk – bərk sıxdı, arxayın bir səslə:- Mən səni görürəm,- dedi. Oğlan cavab vermək əvəzinə yenə onun əlini sıxdı. Dinib – danışmadan xeyli getdilər. Yenə qız dilləndi:

-Niyə dinmirsən?..

-Nə danışım?

-Susanda elə bil qaranlıq çoxalır, qatılaşır. Təkcə gözlərimə deyil, ağzıma, burnuma dolur, ürəyim sıxılır... Onda mən danışım...

Oğlan yosuntəkin yumşaq səslə: - Danış,- dedi.

- Ömrümün bir günündən danışmaq istəyirəm.

Bu vaxtacan heç kimə danışmamışam. Yaylaq yerimizdən də çox – çox qəlbidə Top deyilən bir yerdə Seyidəhməd çeşməsi vardı. Hər il yaylağa köçəndə camaatın çoxu kimi biz də qurbanımızı aparıb o çeşmənin başında kəsərdik. Suyu elə dadlı, elə soyuğuydu, onu sayanacan əlini bulağın gözündə saxlaya bilməzdin. Sonralar bildim ki, o çeşmə ulu babamın adınaymış. Yeddi arxa dönəndən sonra mən olmuşam. Dediyim sehirli günü həmin Seyidəhməd çeşməsinin başında görmüşəm. O gün qurban kəsməyə getməmişdik. Mən xəstəydim. Aranda yay yenicə girmişdi. Dədəm atın təpkində məni buraya gətirmişdi. Həmin il ikinci yol yazla görüşürdüm. Hələ ayaq dəyməmiş çəmənliklərdə gül – gülü çağırırdı. Xallı kəpənəklərin bayram günüydü. Dədəm bulağın başında məni atdan düşürüb özü azca aralıqdakı meşəyə yollandı.

Lap uşaqlıq çağlarımdan hər dəfə o bulağın başına gələndə atamın meşəyə sarı getdiyi səmtdən gözümü çəkməzdim. Bir dəfə anam qayıtdı ki, olmuya maralları gözlüyürsən?..

-Maral nədi? – soruşanda anam bir əhvalat danışdı. Deyilənə görə əkin vaxtı camaat hər səhər yuxudan duranda Seyidəhmədin zəmilərinin əkilmiş yerinin bir az da çoxalıb genişləndiyini görüb çaşarmışlar. Axund babanın öküzləri də yoxuymuş, üstəlik bütün gününü məcçiddə, minbərdə keçirərmiş. Seyidəhməd babanın anası Sonabəyim nənəmiz danışarmış ki, bu sirr, bu əhvalat camaatın dilindən düşmürmüş. Kənddə sonsuz, tənha bir qadının gecələr yerinə qop əllənir, yuxusu ərşə çəkilir. Demiyəsən qarı, gecə - gündüz babamı güdürmüş. Bir gecə babam evdən çıxıb öz zəminələrinə sarı üz tutanda qara şapşaba bürünmüş qarı qarabaqara onun onun dalısınca gedir. Qarının sonralar kəndə yaydığı xəbərə görə Seyidəhməd babam həmin gecə atamın getdiyi meşəyə yaxınlaşıb: - Тур-рше!, Тур-рше- deyə iki yol ucadan nəyisə səsləyir. Çox keçmir meşədən bir cüt maral çıxır.Bu vaxt ay doğaraq yeri – yurdu süd kimi nura qərq edir. Marallar babamın dalısınca düşüb zəminin qırağına gəlir. Babam onları cütə qoşub üç – dörd yol o baş, bu başa gedib – gələndən sonra qarı qoca pişik kimi ehmalca qayanın dalından çıxıb babanın qarşısında peyda olur.

- Ağa nə eyləyirsən? – soruşanda bir göz qırpımında marallar səs – küylə xışlı, boyunduruqlu çıxdıqları meşəyə sarı götürülüb gözdən itirlər.

- İmanın yansın, ay qarı, gecənin bu vaxtı burda nəyin azıb? – deyə babam peşmanlıqla qarını danlayır... Bilmirəm nəyə görəsə bu rəvayətə bərk inanıram...

Çeşmədə əllərimi yuyub ovcumda götürdüyüm bumbuz sudan bircə qurtum içib, ayağa qalxdım. Ağrımdan, azarımdan əsər - əlamət qalmadı. Dayandığım yerdən azca aşağı başlanan qalın meşə sallanaraq dağın lap ətəyinə gəlib çatırdı. Dağın dibinə azca qalmış ağ sap kimi uzanan yoldan sanki sürüşüb ötən yük maşınları qarışqa boyda görünürdü. Dağların dibiylə axan çay qayalara ilişib qalmış nazik gümüşü telə bənzəyirdi. Aşağılardan başlayaraq bir – birinin arxasından boylanan saysız – hesabsız sıralanmış dağları aşağılarda yamyaşıl meşələr örtmüşdü. Yuxarılara qalxdıqca meşə seyrəlir, sonra çılpaqlaşır, lap sonra uzaqlarda maviliyin içində başı qarlı dağlar görünürdü. Heç bir yerdə bu qədər dərinlik, uzaqlıq bu qədər genişlik və bu genişliyin arasıyla nəhr kimi səssizcə axıb gedən apaydın mavilik görməmişdim. Elə bil bütün meşələr, dağlar daşlar və mənim özüm bu işığın bu maviliyin, təmizliyin içində səssizcə axıb gedirik.

İçimdə şaşqınlıq dolu bir sevinc vardı. Bu dəm elə bil arxadan məni səslədilər. Geri çevriləndə azca aralıda təpənin başındakı otsuz - ələfsiz qayalıqda təpədən - dırnağacan bəmbəyaz çiçəyə bürünmüş bir armud ağacı gördüm. Ağappaq toy paltarı geyinmiş yaraşıqlı gəlinə bənzəyirdi. Mənmi ona sarı getdim, omu mənə sarı gəldi xəbərim olmadı. Budaqların, çiçəklərin üstündə arılar, kəpənəklər qaynaşırdı.

Ağappaq armud ağacı elə bil canlıydı, nəfəs alırdı, ətrafa işıq, nur, ətir, sevinc, xoş duyğu saçırdı. Mən onu sevdiyim bir doğmam, əzizim kimi qucaqlamışdım. Elə bil ucu - bucağı görünməyən sonsuz apaydın, mavi dənizdə yelkənli qayıqda üzürdüm...

Mən bunları sonradan anama danışanda bilirsən nə dedi? Dedi ki, bəmbəyaz armud ağacı Seyidəhməd babamızın arvadı ulu nənəmiz Fatmasının ruhudur. Aranda yay yenicə girəndə çiçəklənir. Anamın dediyinə görə ulu nənəmiz Fatmasa qaranlıqdan, ölümdən dəhşətli dərəcədə qorxurmuş. Mən də ona çəkmişəm. Hər il el – oba hələ yaylağa köçməmiş nənəm babamla gəlib o çeşmənin yanında oturarmış. Çeşmənin başında babama bilirsən nə deyib?.. "Cənnət sizin olsun. Mən burdan heç yana getmək istəmirəm. Bu dünyanın bütün ağrısına, acısına, əzabına dözərəm.

Gözümün birində qapı dabanının işləməsinə razıyam, təki o biri gözümə bu dünyanın çıltım – çıltım işığı axsın"...

Anamın dediyinə görə Fatmasa nənəmizin imanı kamil olduğundan Tanrı hər il bir dəfə onu bəmbəyaz çiçəkləmiş o armud ağacı şəklində bu dünyaya gətirir...
Ora bax! Ora bax!

Qız oğlanın əlini silkələyib uzaqlarda ağaran dağ başını göstərdi

Işıq! Işıq! Daha mənə ölüm yoxdu. Daha heç nədən qorxmuram.

Uzaqlarda dağ başı yenicə dəymiş tut kimi ağarırdı...

## GÜL YAĞIŞI

ÖLƏNDƏN sonra dirilmə, özü də yuyat yerinə uzadılıb yuyulanda, kəfənə tutulanda, tabuta qoyulub qışqırıq, vay-şivənlə maşına qaldırılanda, bərbad yollar boyu çalxalana-çalxalana qəbiristanlığa aparılanda, qəbrə sallanıb sağ yanı üstə yerə qoyulub rahatlananda, üstündə oxunan "Yasin" duasının sədası altında hər dəfə adı çəkilərkən tərpədiləndə yox, məzarın üstü sement-beton örtüklərlə səliqəli qapanıb palçıqlanandan, torpaqlanandan sonra dirilmək dünyada yüz min, milyon, yüz milyondan bir adamın başına gəlsəydi, mütləq onun özünün qismətinə düşəcəyinə dəhşətli dərəçədə inanırdı.

Neçə aydan bəri ürəyinə daman o qara, qorxulu fikir günbəgün, saatbasaat güclənir, onu üzüb əldən salırdı. Hər dəfə ürəyinin döyüntüsü, ritmi pozulanda, sıxılıb təngnəfəs olanda, bir göz qırpımından sonra nəfəsinin biryolluq dayanacağından qorxaraq yorğanı üstündən atıb hövlnak qalxanda yazı masasıın arxasında əyləşib vergül, nöqtəsinəcən əzbər bildiyi, bəzən doqquz, bəzən də on iki bəndlik vəsiyyətnaməsini yazmaq istəsə də baçarmırdı.

Vəsiyyətnaməsi bir yandan bazarlıq eləməyə gedən adamın yazdığı siyahıya oxşadığından hələ ölməmiş, yaxud öləndən sonra adamların bu siyahıdan xəbər tutmalarından, dilə-dişə düşüb məsxərəyə qoyulaçağından ehtiyat edirdisə, bir yandan da onun vəsiyyətnaməsinə innən belə əməl edəcək bir adamın tapılacağına gümanı yox idi.

Neçə illərdən bəri heç kimin bir işinə yaramadığını yaxşı bilirdi. Vəsiyyətnaməsinin qocalıb əldən düşmüş, yaddaşını itirmiş, son vaxtlar hər şeyə, hətta yaxın adamların ölüm xəbərinə də gülən, uğunub gedən anasına dəxli yox idi.

Oğlanlarının biri Rusiyada oxuyurdu, bilirdi ki, atasıyla bərabər, iraq olsun,

anasının, nənəsinin də ölüm xəbərini eşitsəydi, gəlməyə imkanı olmayacaqdı. Balaca oğlunu da yaxşı oxuduğuna görə institut on günlüyə Türkiyəyə göndərmişdi. Oğlu Türkiyəyə gedən gün birdən-birə iyirmi il ğabaq bağçalı-bağlı yaşıllıq içində olan kənd evlərinin ikinci qatında şüşəbəndin bütün pəncərəsinin taybatay aydınlığa açılmış bir yay günündə atasının dediyi "Bizim nəsildə dədələr öləndə heç vaxt oğulları yanında olmur" sezləri xatırlayanda bu günlərdə - lap tezliklə öləcəyinə bir daha inandı. Babası öləndə oğlu müharibədə, atası öləndə isə özü Bakıda olmuşdu.

İnanıb etibar elədiyi dostlarından biri dustaqdaydı, o birisi isə Binədə yaşayırdı, dünyanın bütün xəbərləri hamıdan sonra ona çatırdı. Bilirdi, Binədə yaşayıb dünyanın və onun sakinlərinin işinə qarışmayan, ancaq dünya dağılsa da orucunun, namazının vaxtını heç vaxt keçirməyən dostu nəinki onun öldüyü gün, heç üçündə, yeddisində belə xəbər tutmayacaqdı. Qırxına gəlib çıxsaydı böyük iş idi.

Son vaxtlar peyda olmuş kəpənək qanadı kimi zərif, şəffaf lentə bənzər kaprondan düzəldilmiş ipi görəndə ülgüc itiliyini, kəsərini bir ağrı kimi bədənində hiss edirdi. Ayaqlarının baş barmağını da elə ülgüc itiliyində olan o murdar, o iyrənc iplə birçə qat bağlamışdılar. İki kubik hündürlüyündə olan alçaq tavanlı, darısqal məzarda qalxıb dikələ bilmədiyindən baş barmaqlarından bağlanmış ayaqlarını özünə sarı yığammır, yanındakı iskənə, vintaçan bir yana, əlindəki uzun tiyəli çörək bıçağı da o murdar, itüzlü ipə çatmırdı. Ona elə gəlirdi barmaqları bir-birinə bağlanmasaydı, bəlkə də ayağının birini dar boşluqda qarnına yığıb çətinliklə olsa da tavana dirəyib gücü gəldikcə yuxarı qaldıra bilərdi. Bütün gecəni ayaqlarının pəncəsini, barmaqlarının yasdığını daşlara sürtüb qançır eləmişdi. Ayağıyla daşlarda, suvaq yerlərində bir çıxıntı, bir kəsinti axtarıb tapmaq, o itüzlü lenti sürtüb kəsmək istəyirdi, ayaqlarına güc verib qırmaq istəyəndə o şəffaf lent ətini almaztək kəsib sümüklərinə dayanırdı, ancaq qırılmırdı ki, qırılmırdı. Kecə səhərəçən yerinin içində qan-tərə bataraq beləcə əlləşə-əlləşə evlərində olan o iplərin yerini axtardı. Tezdən arvadı rayondan gəlməliydi, o qayıdana kimi evlərindəki o iplərin hamısını axtarıb tapmalı, yox eləməli və öz tədarükünü görməliydi. Qaranlıqdan durub uşaqların yatdığı otağa keçdi, lülələnib bucağa söykənmiş xalçanın üç yerindən həmin iplə dolanmış sarıqlarını açdı, balkona keçib paltar sərmək üçün bağlanmış, simtəki cod tellərin dolaqandan hazırlanmış girdə şəkilli kəndiri kəsdi, tələsik gətirib qonaq evində masanın üstündə iri paltar qayçısıyla barmaq boyda doğradı, aparıb hamamdakı zibil vedrəsinə tökəndə birdən vannanın qabağını kəsmiş selofan pərdəni saxlayan o iyrənç, şəffaf lenti gördü.

Başılovlu qayıdıb qayçını götürdü, onu da kəsib barmaq boyda doğradı, hirsi soyumadığından tələm-tələsik və təşviş içində mətbəxə gedib künc-bucaqda, qaz sobasının alt gözlərində, otaqlarda çarpayılardakı döşəklərin altında, qarderobda, servantın siyirmələrində, rəfdəki toz basmış qovluq və kitabların arxasındakı

boşluqda, üstünə televizor qoyulmuş tumbuçkanın qoşa gözündə əlinə keçəni evə girmiş oğru kimi hövsələsiz-hövsələsiz evin düzünə səpələdi. Siyirmələrdən tapdığı al qan və yamyaşıl ot rəngində lentə bənzər o iplər yumşaq, zərif və yaraşıqlı olsa da, son vaxtlar şəhəri, kəndi ağzına almış kaprondan hazırlanmış murdar, iyrənç, itüzlü o iplərdən idi. Yaşıl rənglisi onlara pay gətirilmiş şokolad qutusuna, qırmızısı isə səkgiz martda bacısının baldızına bağışladığı ağappaq qərənfillərə bürünmüş şəffaf örtüyün ucuna lent əvəzi sarınmışdı. "Yox, siz gözəlsiniz, doğraya bilmərəm. Sizi gözəl-gözəl yandıracam". Öz səsindən səksəndi, mətbəxə gedib kibriti yandırdı, yaşıl lenti alova tutanda lent çanlıymış kimi yığılıb açıldı, ilantəkin qıvrılıb yelləndi, tüstülənib alışan ucu qəfildən qalxıb sol əlinin orta barmağına yapışdı, elə bil ilan çaldı, əlini yelləsə də yanıb əriməkdə olan lent qopub aralanmadı, ağrıya dözmədiyindən qeyri- iradi sağ əlinin şəhadət barmağıyla vurub yerə salmaq istədi, ərintinin bir qırığı da bu biri barmağına yapışdı, barmaqlarının, ikisi da dərhal yanıb suluxladı. Yanığın goynərtisindənmi, hirsindən-hikkəsindənmi yerə tulladığı lsntləri əsəbi-əsəbi götürüb qırağı qopub çatdamış nəlbəkinin içinə qoyub yandırdı. Lentlər nəlbəkinin içində yenə də yaralanmış ilan kimi qıvrılıb açıldı. "Yanın, zibillər, uxaay, yanıb əriyin! İstənilən yun qatması, istənilən pambıq iplik, qaytan, yüz illər torpaq altında qalıb çürüməyən keçi qəzilindən olan çatma da, kəndir də sizdan yaxşıdı. Simlə, lap yumşaq mis məftillə də bağlamağa razıyam, təkcə sizinlə bağlamasınlar..."

Siyirmələrdən evin düzünə tökdüyü yüz cür xırdavatın, kağız-paranın içindən ağ, qara, sarı, göy rəngli sapları götürüb qəzetə bükdü, aparıb rəflərdəki kitabların arxasındakı boşluğa saldı. İşlənib balaca şamama boyda qalmış yun ipdən olan yumağı gətirib çarpayısının başındakı yazı masasının ortasına qoydu. Gözə çarpsın deyə masanın üstündəki kitabları, kağızı, qələmi göturüb pənçərənin önünə qoydu. İp xovlu, qalın və kovrək olduğundan ayaqlarına güç verib bir-birindən aralamaq istəyəndə barmaqlarını kəsmədən asanlıqla qırılaçaqdı. "Ölənə qədər bütün ehtiyatımı özüm görməliyəm". Son vaxtlar başında ilan-çayır kimi dolaşan o ipləri evindən təmizlədiyinə görə bir az arxayınlaşdı. Ancaq, hamama girib əllərinin toz-torpağını yumaq istəyəndə, içərisi kağız-kuğuzla dolu kardon qutuya közü sataşanda, sabah arvadının rayondan qayıdanda özüylə gətirəcəyi qutudan, şələ-şülədən heç olmasa birinin mütləq o murdar iplə bağlanacağını ağlına gətirəndə arxayınlığı uçub getdi, neçə saatdan bəri evi alt-üst edib qarışbaqarış axtardığına, sərf elədiyi vaxta, zəhmətə hayıfı gəldi. Və anladı ki, yaxasını o iplərdən heç vaxt qurtara bilməyəcək.
İşıqlanmaq bilmirdi, üşüdüyündən gəlib yorğanın altına girdi, bədənini yenə düpbədüz düzəldib ayaqlarının baş barmaqlarını bir-birinə söykədi, sağ böyrü üstə çevrilib qəbrdəki kimi kürəyini divara dirədi.

Bir an ölü vəziyyətdə qaldı, ayılanda daha doğrusu, diriləndə havasının çatışmadığını, boğulduqunu hiss elədi, dərindən nəfəs almaq üçün ağzını açmaq

istədi, açılmadı, dodaqlarını aralayıb bir-birinə sıxılmış dişlərinin arasından çətinliklə nəfəs aldı. Çənəsinin başına sarındığını duyçaq, kəfənin altıyla əlini aparıb sarığını başından sürüşdürüb aşağı saldı, burnunun deşiklərinə tıxanmış pambıqları çıxartdı. Kəfəni yaxasından dartıb çırdı, kəfənin üstündəki ağı basıb çırmaq istəyəndə yumruğu "tavana" dirəndi. Vəsiyyətnaməsinin hansı birindəsə kibrit olmalıydı. Əlini yan-yörəsinə apardı, qarnının üstündə gəzdirdi, sinəsinin ortasında kibriti tapdı. Yumruğuyla kəfəni basıb sinəsindən araladı, dənəni çəkib alışdırdı, bircə an keçməmiş öskürək tutdu. Düzgün iş tutmadığını dərhal anladı. Alov onun həyatı, çörəkdən, sudan dəyərli olan havasını, oksigenini yeyir, zibillədir, anbaan udub azaldırdı. Məzardakı havanın tutumunu, miqdarını günlərlə hesablamaq istəmişdi, tanıdığı kimya, fizika müəllimləri ilə söhbət edib bir saat ərzində insanın orta hesabla nə qədər hava aldığını, oksigen udduğunu öyrənməyə çalışsa da, ona qəti bir söz deyən tapılmamışdı. Gərgin axtarış və düşüncədən sonra iki kubik hündürlüyü [qırx santimetr], altmış santimetr eni və bir səksən, uzaq başı iki metr uzunu olan məzarın tutduğu oksigenin tən yarısını qəbrə sallanan çənazənin sıxışdırıb çıxardacağını dərk edəndə onu dəhşət bürüdü. Hər udum havanın onun üçün nə demək olduğunu anladı. Əliylə basıb alovu keçirdi. Sönmüş kibrit dənəsi qarnına düşüb yandırdı. Bu an əlinin, qarnının yanmağından çox onu havanın azalması qorxudurdu. Qorxudan vəsiyyətnaməsindəki kibriti biryolluq çıxartdı.

YADDAN çıxartsaydılar, yaxud gərəksiz qocanın vəsiyyətinə məhəl qoymayıb bıçağı onun yanına qoymasaydılar, son ümidi, ağzında salamat qalmış yeganə kirəvə dişiylə ağı çeynəyib-çeynəyib didəndən sonra barmağıyla dartıb cıracaqdı. Ancaq kəfəni, ağı dartıb cırmaqla iş qurtarmırdı. Kibritdənsə tiyəsi uzun çörək bıçağı daha əlverişliydi. Kəfəni və büründüyü ağı cırandan sonra tavana döşənmiş, sement-betondan hazırlanmış örtüklərin aralarına tökülmüş və hələ qurumamış göy rəngə çalan sement palçığı həmin tiyəsi uzun çörək bıçağıyla oyub tökürdü. Allaha yalvarırdı, qəbrin üstünü torpaqlayandan, adamlar çəkilib gedəndən sonra ayılsın, iki-üç saatdan sonra da pis deyildi, heç olmasa, heç olmasa bir gün ötəndən sonra örtüklərin üstünə tökülmüş sement-palçıq hələ quruyub daşa dönməmiş ayılaydı. İsgənə də olardı, vintaçan da. Yox, yox, onlar qalın idi, hələ çörək bıçağının da bir-birinə kip söykənmiş o sığallı örtüklərin arasından keçməsinə ümidi yox idi. Çünki qəbrin üstündəki adamları yaxşı tanıyırdı. Neçə-neçə ölünü basdıranda görmüşdü onların iş-işdəklərini. Sement-betondan hazırlanmış o örtükləri diqqətlə seçəndə, axtarıb qıraqlarının ovulub-tökülməmişini əzilib qırılmamışını tapacaqdılar, onları yan-yana döşəyən adam da bütün səliqəsini, səriştəsini, bacarığını işə salaraq örtükləri bir-birinə elə yaxın, elə kip qoymağa çalışaçaqdı, aralarından nəinki tük, heç hava da keçməyəcəkdi. Hələ palçıq qatan adam! Kör necə candildən əlləşir, elə bil xamır yoğurub qarışdırır. Dünyanın ən xəsis adamı da burda səxavətlənir, iki-üç, bel sement əvəzinə dolu vedrənin hamısını qumun üstünə əndərəcək. Körpülərin, evlərin, imarətlərin tikintisinə ayrılan sementin yarıdan çoxunu

oğurlayıb satan əliəyrilər, vicdansızlar, burda düz, təmiz, vicdanlı olacaqdı. Heç olmasa Rusiyanınkından yox, öz keyfiyyətsiz sementimizdən olaydı.

Örtüklərin bitişən yerinə, balaca deşiklərə tünd göyəçalan palçığı lombasıyla salıb elə həvəslə suvayır, deyirsən, zalım oğlunun dünyada bundan çox sevdiyi işi-peşəsi yoxdu. Ömründə əlinə bel götürməyən kontrabas çalan əmoğlum da, əlləri pambıq kimi ağappaq və yumşaq qız əlinə oxşar hesabdar qonşumuz da, son borcunu yerinə yetirməyə çalışan alicənab insan kimi yerə atılan belləri götürüb, qəbrin üstünə tığlanmış torpaq azmış deyə, yan-yörədən sıyırıb yığdıqları iki-üç bel torpağı da qənimət bilib üstümə atacaqdılar. "Əçlaflar, gedin bir maşın da qazıb gətirin, tökün üstümə! Süpürgə ilə qırıq-quruğu da süpürün, ayaqqabılarınıza bulaşmış palçığı da sıyırın, üstünüzdəki toz-torpağı da çırpıb tökün üstümə. Qalaqlanmış torpağın ortasından açdıqları şırıma, arxa bax. Vedrə dolu suyu o başdan bu başa, bu başdan o başa əndormələrinə bir bax. Beli də suyun altına tutub şırım boyu o yana, bu yana aparmalıdılar. Sən bunların məsuliyyətinə, işlərindəki incəliyə bir bax! Suyu, yanğın söndürürmüş kimi, tələm-tələsik qəbiristanlığın lap aşağısına qoyulmuş çəndən gətirən aşağı mərtəbədə olan on iki yaşlı uşağıydı. Elə uşaqları da özləri kimi saxta, riyakar, biçələyin biridi. Neçə dəfə çörək, siqaret almağa göndərdim, hər dəfə bir cür sapıtma verib sözümə baxmadı. İndi üzüyola olub. Bir vedrə suyu üstümə əndərəndən sonra hansı canıyananın ağzından çıxdı ki, - birini də! - Elə ağzından çıxmağıyla sözəbaxmayan uşaq kimi tanınan Məhədin oğlunun vedrəni qapıb üzaşağı getürülməyi bir oldu. İkinci vedrəni də əndərdilər. Taxıl suvarırlar, gözləyin göyərəcəm. Vicdansızlar! Adətlərinə bir bax bunların! Özləri də bilmir bu suyu niyə tökürlər.

Neçə-neçə molladan, qocadan, ağsaqqaldan bunun mənasını soruşdum, hamısı çiyinlərini çəkdi. Biri qayıtdı ki, bu suyun bir damcısı süzülüb mərhumun başına düşür, ayılıb qalxmaq istəyəndə başı Əhlət daşına dəyir. O boyda torpaqdan, sement-palçıqdan damcımı keçər? Biri də dedi, yüngüllük xətrinə tökürlər. Əcəb yüngüllükdü...

Qalaqlanmış torpağın baş və ayaq tərəfinə qoyulacaq daşları da bacoğlum dönə-denə o yana, bu yana çevirib baxandan sonra ən uzununu, ən hamarını, gözəgəlimlisini və ağırını seçib gətirəcək, başımın üstünə ehmalca qoyaçaq ki, ruhum inciməsin. Hələ bunun ehtiramına, sevgisinə bir baxın! Durub gedəndə yan-yörəsini axtarıb bir qırıq daş tapıb baş daşımı döyəcləyəcək, kadərlə nəsə pıçıldayaçaq. Üz-gözündəki doğmalığa, sevgiyə, ehtirama, həssaslığa, lap çox görkəmindəki üzüntüsünə bir baxın. Düz yeddi iliydi qapımızı döymürdü. Televizor ustasıydı. Televizorumuzun ekranı qaçırdı, neçə dəfə xəbər elədim, gəlib çıxmadı. Təkcə bacıoğlumdan ummuram. Yeddi il nədi ki, on il, iyirmi, otuz il bundan qabaq ayrılıb görüşmədiyim adamlar tökülüşüb üstümə gələcək. hay gəldilər, gözlə ha! Söz onda deyil, gəlməyənlərlə işim yoxdu. Mənimki gələnlər

barəsindədi. Qaçqınlıqdan sonra rayonumuzdakı beş türk kəndinin bütün camaatı Bakıya axıb gəldi. Onlardan heç olmasa, ən azı üç yüzəcən gələçək, hələ yerli dostları, tanışları demirəm. hərəsi beş-altı saat vaxt itirəcək, adam başına cədvələ orta hesabla iki "Şirvan" yazdıracaq. Min iki yüz dollardan çox eləyir. Mənəsə evin üstünü düzvltdirməyə minçə dollar lazım idi. Aldığım dəmir, kirəmid, taxta yeddi il həyətdə qaldı, sınanı sındı, oğurlananı oğurlandı. Düz yeddi ildi yazın, payızın, qışın yağmurları evimizə yağr. Evimizdə orijinal olan bir şey varsa, o da damcıdır. Dünyada bəlkə də heç kəsin evi bizimki kimi dammır. Qabaqlar vedrə, vanna, qab-qacaqdan tutmuş, bakallaraçan damcıların altına düzdük, çatdıra bilmədik. Damcılar oynayır, qarışbaqarış evləri gəzib tez-tez yerlərini dəyişir. Altına qab qoyandan beş dəqiqə sonra kəsib başqa yerdən damır. Bütün günü əlində qab o yana, bu yana fırlanıb rəqs etməlisən.

Bir gün anası uşağı danlayıb - içi qurddusan, özünnən başqa bir kəsi bəyənmirsən, necə uşaqsan ki, bir yoldaşın yoxdu, bir uşaqla oturub-durmursan, qaynayıb qarışmırsan, biriynən dostluq eləmirsən, - qaraqabağın biri qaraqabaq! - Deyəndə uşaq qayıtdı ki, bu evə adam gətirmək olar? - Əliylə tavanı göstərdi, - gətirim, bu mənzərəyə tamaşa eləsin...

Təsəvvür edirsinizmi, uşağın adamlardan elə gen gəzməsi, kiminləsə yaxınlıq eləməyə cürəti çatmaması necə ağır gəlir adama? Vallah, üstümə gəlməsəydiniz də inciməzdim, sağlığımda... Allah bilir, məndən sonra neçə il də damacaq?.. Vəsiyyətnamədəki bəndlərin birində qəbiristanlığın yeri göstərilməliydi. Aydın bir yaz günündə hansı rəhmətliyisə Mehdiabad qəbiristanlığına aparmışdılar. Məzarları bürümüş yamyaşıl ot, qəbrlərin üstündəki qollu-budaqlı, şaqqavatlı ağaclar, qarşıdakı gömgöy zəmilər, uzaqlardakı genişlik, apaydın, mavi üfüqlər onun xoşuna gəlmişdi. Bu qəbiristanlığın gözəlliyindən çox indi, torpağın bərkliyi linklə, qazmayla qazılanda torpağın diş-diş, parça-parça, qoz boyda qopması ürəyincəydi. Qəbrin üstündəki torpaq yığını qumsal torpaqla müqayisədə yüngül olmalıydı, arasından məzara hava da süzülüb keçməliydi. Ancaq iki vedrə su bu torpaq qalağını qənd parçaları kimi əridib lehməyə çevirəcəkdi. Bu baxt ki mənimdi, yağış da yağa bilərdi, o boyda torpaq yığını qır-sapız kimi bir-birinə qarışıb başdan ayağa, bu yandan o yana bir təbəqəyə-laya, bir çəkisi olan kütləyə çevriləcəkdi. Torpaq yığını yatıb, qaynaq edilmiş dəmir parçası kimi qəbiristanlığın torpağına yapışıb bərkiyəcəkdi. Onda nvinki mənim bu nazik, damarları çıxıb heydən düşmüş ayaqlarım, lap ağırlıq qaldırmaq üzrə dünya çempionunun ayaqları da qaynayıb qır-saqqıza dönmüş torpaq yığınını qaldıra bilməz.

Yağış yağsa elə bura da Binəqədi qəbiristanlığının gününə düşəcək. Yağışlı, çisginli bir payız günündə palçığa bataraq ayaqlarının hər birində dəyirman daşının ağırlığını duyduğu Binəqədi qəbiristanlığı yadına düşəndə, "Qurd qapısı" deyilən

aşırımdan aşağılara, ucsuz-bucaqsız o dərinliyə baxanda bir canlı, bir həyat nişanəsi olmayan o qısır, boz torpağın sonsuzluğu cəhənnəmin başlanğıcı kimi adamı ürpəşdirib canına üşütmə salan, sirli bir vahiməylə insanın bütün ümidlərini məhv edən o xaraba qəbiristanlığa, oranın yumşaq qumsal torpağına ümidi qalırdı. Bir də neçə vaxtdan bəri baş sındırıb tapmışdı ki, bu qəbiristan başqalarıyla müqayisədə dəniz səviyyəsindən xeyli aşağıda olduğuna görə məzardakı havanın, oksigenin sıxlığı çox olmalıydı. Yanına bıçaqdan, bizdən, isgənədən, bir dəmir qırığından-zaddan qoymasaydılar belə, bəd ayaqda dırnaqlarıyla qumsal torpağı oyacaqdı. Əllərinin baş barmaqlarını bir neçə dəfə dırnaqlarına çəkdi. Üç gün qabaq ortancıl bacısı yoluxmağa gəlmişdi, təəccüblə - gör dırnaqların nə boydadı! - dedi, gedib qayçını tapıb gətirdi, ancaq qayçını bacısının əlindən alıb tutmağa qoymadı. "Elə bucuğazı yanıma qoysaydılar, daha heç nə lazım deyil". Ancaq unudub qayçını da qoymurdular. Barmaqlarının qanamasına fikir vermədən porsuq hikkəsiylə, goreşən açığıyla, tülkü hiyləgərliyi ilə qarnının qabağındakı kubikin altını fərşdən eşir, çıxartdığı qumu ayağının yanındakı boşluğa atırdı. Daş laxlayıb boşalırdı, özünə sarı çəkirdi, divardan aralanmasına bircə barmaq qalmış qarnına dirənirdi, qarnını nə qədər içinə çəksə də, daş çıxmırdı ki, çıxmırdı. Bir dəqiqəni, bir anı ötürmədən qan-tər içində yeni əməliyyata başlayır, bu dəfə öz altında çala qazıb kubikin birini çıxarıb ora yerləşdirir, ikinci kubiki də asanlıqla çıxarıb ayağının altına ötürürdü, çıxartdığı daşların altı yumşaqça qazılırdı, ancaq bir iynənin ucu qədər deşik açmamış ayaqlarının üstü daşla, torpaqla dolduğundan oyub qazdığı qumu-torpağı atmağa daha yer tapmırdı. Nəfəsi kəsildiyindən bir Allah bilir neçənci dəfəydi yorğanı üstündən atırdı, azça keçməmiş üşüyür, qorxa-qorxa yenidən yorğanı üstünə çəkib başqa əməliyyata başlayırdı. Bıçaqdan başqa ona heç nə gərək deyil.

Bıçaqla, yaxud dırnaqlarıyla öz altını qazıb çuxura salmaq, dizlərini qarnına yığıb ayaqlarını örtüklərin birinə dirəyib güç vermək, bir gün, lap iki gün ötəndən sonra hələ quruyub daşlaşmamış sement-palçğı çatladıb qopartmaq istəyirdi. Neçə dəfə çevrilib oturaçağını qazdığı çalaya salmaq, ayaqlarını qarnına yığmaq istəyəndə dizləri yenə o sığallı örtüklərlə qapanmış alçaq tavana toxunurdu.

"QURD QAPISI"ndan aşağıdakı o qəbiristanlığın qəbrləri gedib qamışlıqdan azca aralı bataqlığa dirənmişdi, eşitdiyinə görə, son vaxtlar qazılan qəbirlərin çoxundan su çıxırdı. Tərs kimi o, burda məzara qoyulub basdırılandan iki gün sonra ayılır, özünü sinəsinəcən qalxmış suyun içində görürdü. Yuxarı qalxmaq istəyəndə başı "tavana" dəyirdi. Su olmasaydı, hava dörd-beş saat, bəlkə bir, lap iki gün də bəs edərdi. Dirsəklənib başını divara dayayır, ağzını, dodaqlarını tavana söykəyirdi. Dözə bilməyib qışqırdı, yorğanı üstündən atıb dikəldi, acgözlüklə havanı çiyərlərinə çəkdi, qabaqca əlini gecə lampasına uzadıb düyməni basdı, ayağa durub səkgiz lampalı çilçırağı da yandırıb dünəndən pərdəsini çırıb atdığı pənçərəyə yaxınlaşdı.

Uzaqda doqquz mərtəbəli binanın sonunçu qatındakı evdə ışıq yanırdı. "Deyəsən o da mənim kimi can verir. Yüz yol ölüb dirilmək buna deyirmişlər. Allah, qurbanın olum, səndən heç nə istəmirəm, bir ay, lap bir il ömrümdən kəs, vaxtından qabaq oldür, bir tikə incimərəm, təki öləndən, aparıb qəbrə qoyulub basdırılandan sonra diriltmə məni. Boyük, uca Allahım, bundan başqa səndən heç bir diləyim yoxdu..."

Beşin yarısıydı, titrətmə tutdu, işığı söndürmədən gəlib yerinə girdi, boğazaçan yorğana büründü. Gözlərini yuman kimi özünü yenə də qaranlıq, səssiz, ən dəhşətlisi isə havasız və darısqal məzarda hiss elədi. Ən çox ona görə açıyır, yanıb-tökülürdü ki, hələ ölməmiş, o gözəl ruhu bədənindən çıxmamış onu aparıb basdırırdılar. Saatlarla cırmaqlayıb, eşələnəndən, vurnuxub çabalayandan, nəhayət, gəbərəndən sonra özü kimi ruhu da o iyrənc yerdə dustaq olurdu. Qəfəsdəki quş kimi özünü o künçə, bu küncə çırpır, son ucda məzarın tavanına yapışıb bir kəfən dolusu qayır-qayır qaynaşan qurd-quşa baxa-baxa qalırdı. Axırda o üfunətin içində ruhunun da bağrı çatlayıb gəbərirdi. Ançaq bu "gəbərirdi" sözünü düşünəndə elə bildi günah işlədir. Ona elə gəlirdi, özü hər cür çəzaya, pisliyə, ağrıya, təhqirə layiq olsa da, ruhu təmiz, pak və günahsız bir varlıqdı. Ruhların divarı, hər hansı təbəqəni deşib çıxa bildiyini eşitsə də, yanları söliqəylə hörülmüş o divarlardan, sıx düzülüb üstü sementlə palçıqlanmış o sığallı dəmir-beton örtüklərdən, onun da üstünə qalaqlanmış torpaqdan ruhunun çıxa biləcəyinə gümanı yox idi. Bu vaxt özünü unudaraq qəfəsdə çırpınan gözəl, zərif, gücsüz, həm də günahsız bir quşa oxşayan ruhuna yazığı gəlirdi. Orda dirilməkdənsə bir təpənin, bir dağın başında qarğa-quzğuna, bir dərənin dibində tülkü, çaqqal, canavara yem olmaq, dənizə atılmaq, hindlilər kimi tonqalda, yaxud böyük şəhərlərdəki kimi krematoriyada yandırılmağına can-başla razıydı.

Bir həftə qabaq anasını görməyə getmişdi. əslində görməyə yox, qorxduğunu ehtiyatla bildirmək, hər dərdin dərmanına çarə qılmağı bacaran anasından bir çıxış yolu öyrənmək istəmişdi. Özündən balaca qardaşı da ordaydı. Ötən günləri yad etdiklərindən üçü də yumşalıb gövrəlmiş, bir-birlərinə daha da doğmalaşmışdı. Anası bütün tanıdıqlarının, yaşıdlarının, tay-tuşlarının hamısının öldüyünü, dünyada tək qaldığını, qərib olduğunu acı-acı söyləyəndə, ona bir təsəlli verib könlünü almaq, ürək-dirək vermək əvəzinə, balaca qardaşının yanında özünü sındırmamaq üçün guya zarafat edirmiş kimi öləndən, basdırılandan sonra qəbrdə diriləcəyindən qorxduğunu gülə-gülə deyəndə anası uğunub getdi. Birdən gülməyini kəsib - bəxtəvər başıma! Ağam da elə qorxurdu. Öləndən bir gün qabaq bizi başına yığıb dönə-dönə tapşırdı, bir həftə qəbrimin üstünə gəlib qulaq asarsız. Səs eşitsəniz, özünüzü itirib eləməyin, hay-küy salmadan, bir kəsə bildirmədən, kecə qəbri qazıb açarsınız. Sonrasını özüm bilərəm...

Balaca qardaşında olan çevikliyin, diribaşlığın, hazırcavablığın, bütün fərasətin

babasından keçdiyini anası dönə-denə demişdi. İndi anladı, qırx yaşında ölmüş, hal-hazırda özündən on yeddi il cavan olan babasından ona miras qalmış yeganə şey qorxudur, qəbrdə dirilmək qorxusu. O vaxt məzardan çıxmaq indikindən qat-qat asanmış. O vaxtkı məzarın divarları indiki kimi daşla, sementlə hörülmürdü. Üstü indiki kimi sement-betondan hazırlanmış sığallı örtüklərdən olmurdu. Divar torpağın özündən olurdu, üstü taxta, pərdilərlə örtülürdü. Qəbrin üstünə də bir şana ağzı qaratikan çəpəri basır, onun da üstünə, külək aparmasın deyə bir daş qoyurdular. Anasının sözü qurtarmamış balaca qardaşı dedi:

- Nəfəs yeri üçün bir dənə boru qoyacam, üç gün gəlib qulaq asacam, çağıracam. Dördüncü gün oyansan özünnən küs...

Qabaqlar olsaydı, balaça qardaşı bu məsələnin çıxış yolunu, bir-birindən yaxşı, həm də gülməli, məzəli variantını danışacaqdı, danışdıqça heç kimin ağlına gəlməyən yeni-yeni etibarlı, mükəmməl yollar tapacaqdı. Ancaq anladı ki, balaca qardaşı söz xətrinə bunu dedi. Və söhbəti dəyişəcəyindən ehtiyat etdiyindən gülə-gülə, ançaq ümidsiz-ümidsiz:

- Elin, camaatın gözünün qabağında boru qoymaq olar? Yaya düşsə, iynə vurub heç olmasa birçə gün, çox demirəm, buzdan-zaddan qoyub, saxlayıb sonra basdırarsınız...

- Bir gün niyə, əlli dollar verib bir həftə ölüxanaya - morqa qoyammıram? Lap on gün saxlatdıraram. Bir də bir yorğan verərəm, üstünə örtərlər, ölməmiş olsan, soyuq-zad dəyməsin...

Yaxşı bilirdi, qardaşı istəsəydi, bu işə baş qoşsaydı, onun arzusunu, sözünü, vəsiyyətini yerinə yetirmək xətrinə eldən dışarı, gələnək - ənənədən uzaq eləyəcəyi işlərə min don geydirib, min bir bəhanə uydurub heç nədən, heç kimdən çəkinmədən mollanın, ağsaqqalın, rəsmi adamların, məzarın başına toplaşanların gözünün qabağında isgənədən, bıçağa, baltadan linkəcən, qəbri söküb dağıdıb oradan çıxandan sonra qarşılaşaçağı adamı kəfəniylə vahiməyə salmamaq, şübhələndirməmək üçün şalvardan, idman formasından, lap təptəzə kostyuma, kraxmallı koynəyə, qalstukacan hər şey qoyacaqdı. Qardaşının ağlına batsaydı, qabaqcadan qəbirqazanları görəçək., onları əməlli-başlı razı salandan sonra məzarın altında bir balaca çala düzəltdirib, yaxud yan divarların birində bir kubuk daşının yerini boş qoyaraq alətləri oraya yığıb üstünü ustufluca örtdürəcək, bütün qəbirlərin divarından hündür olsun deyə bir sıra daş da artıq düzüb hördürəcək, o qaranlıq, səssiz, dar “mənzildə” adamın bir həftə, on gün yaşaya bilməsi üçün yeməyindən, suyundan, oksigen balıncından batareya ilə işləyən əl fənərindən, matorollayacan ən zəruri şeyləri ora yığacaqdı.

Ançaq bunların heç biri olmayacaqdı, bütün günahlar da özümdən oldu. Son yeddi ildə bir işinə yaramadım, bir işinin qulpundan tutmadım. Köməyim bir yana qalsın, yeddi ildə ayaqlarından dəyirman daşı olub asıldım. Hər ayın başı, bircə gün yubatmadan verəcəyini bükülü kağızda gətirib mənə uzadır. Qabaqlar yalandan da olsa "əşi neynirsən" - deyirdim. Son vaxtlar onu da demirəm, quruca "sağ ol" deməyə də ağzım açılmır, elə bil halal zəhmət haqqımı alıram. Alsam yaxşıdı, qapıb cibimə basıram. Bu səhnəni yadıma salanda özümdən zəhləm gedir... Özümdən belə zəhləm gedirsə, onda gör o, nələr çəkir. Axı niyə belə oldum? Xaricdə oxuyan oğlumun da aybaay pulunu göndərir, ad günlərimizdə pay-puş, hədiyyələr alması bir yana, yeməyimizi də bişirib özləriylə gətirirlər, baçılarıma, qohumlara da əl tutur, dilənçilərə də pul verir. Səhər saat altıdan durur, axşam saat səkkizə, doqquzacan ayaqüstə fır-fır fırlanır. Maşallah, maşallah! Gör onu da gözə gətirə bilərsənmi? Yeddi ildi anama bir çöp də almamışam, bütün xərcini, nazını o çəkir. Arada vaxt da tapıb maşınına mindirir, bir iki saatlığa aparıb şəhəri gəzdirir, dəniz qırağına aparıb eynini açır. Sonuncu dəfə məni danlayanda "ay mağmun oğlu mağmun, başımı qaşımağa vaxtım olmur, heç olmasa hüzr yerlərinə sən get, qabaqlar birini buraxmazdın, axır vaxtlar sənə nə olub bilmirəm, heç olmasa ananı gündə bir saat apar dolandır. Maşın alıb qoymuşam altına, bu da çətin iş deyil ha!

Düz deyir, gözünə döndüyüm düz deyir. Maşınımın benzinini də o alır, xarab olanda da o düzəltdirir.

QABAQLAR anam həmişə mənim canıma and içərdi. Deyərdi, nəslimizdə sənin kimi canıyanan, el qəmi çəkən tapılmaz. Ancaq son vaxtlar məni çağırmaq istəyəndə çaşıb onun adını çəkir, onun canına and içir. Niyə belə olmuşam -özüm də bilmirəm. Vəzifədən çıxarılanlar mənim kimi evdən bayıra çıxa bilmir, boş-bekar oturmaqdan bağrı çatlayıb gəbərirlər. Axı, mənim elə bir vəzifəm də olmayıb. Bəlkə böyük qardaş olduğumdan onun buyruqlarını sinirə bilmirəm? Hərdən oğlunun yanında çox danladığını, mənim pisikdiyimi gerəndə "Məni bu səviyyəyə, bu günə çatdıran əmin olub e, xəbərin varmı? Sən də, mən də nəyimiz var, hər şeyə görə əminə borcluyuq..." - deyib konlümü almaq istəyir. Yox, birdən-birə danlamadı, yeddi il başımdan girib ayağımdan çıxdı. Təkcə anamdan elə qayğı, həssaslıq görmüşəm. Bunun əvəzində bir işinə yaramadım. Xəstə yatanda gedib dil-ağız da edəmmədim. Heç olmasa telefonla halını xəbər almadım.

Bir dəfə də gileyləndi: "Bir işimlə maraqlanmırsınız, komissiya gəlib on gün sinəmə çöküb yoxladı, bir dəfə maraqlanmadın, necə oldu. Tutub içəri qatsalar, yaxud ürəyim partlayıb ölsəm, necə olacaqsınız, bilmirəm. Heç kim bir zərrəcən məni istəmir, işimlə, problemimlə maraqlanmır".

Düz deyir, soruşmurdum, xəstələnəndə də halını soruşmağı özümə sığışdıra bilmirdim. Yox, elə bu xasiyyət məndə həmişə belə olub. Anam, bacım, arvadım,

uşaqlarım da xəstələnəndə dil-ağız edib könüllərini alammamışam, yaxınlaşıb əllərindən tuta bilməmişəm, əlimi alınlarına qoya bilməmişəm, dil-ağız eləmək məndə heç vaxt olmayıb. Uşaqlıqda anam xəstələnəndə, yorğan-döşəyə düşəndə özümü itirərdim, dərsdə olanda, bir işin dalısınca gedəndə, həyətdə odun yaranda, mal-heyvana baxanda bircə an yadımdan çıxartmazdım. Bütün günü, gecəni Allaha yalvarıb anama şəfa verməsini diləsəm də xəstə anama yaxınlaşıb başına dolana bilməzdim, könlünü almaq üçün bir şirin söz tapıb deyə bilməzdim. Bu yaşımacan beləcə donuq, quru, buz parçası kimi soyuq oldum. Ançaq xəlvət bir yerə çəkiləndə, yerimə uzanıb yorğanı başıma çəkəndən sonra anamın ağır halını düşünəndə xısın-xısın, qorxu içində ağlardım.

Mən də uşaqlarım da qardaşıma yükük, axı xəsdə-zad da deyiləm, sadəcə müftəxor, onun üçün ölü bir varlığam, əlini məndən çoxdan üzüb. İnnən belə nəyəsə yarayacağıma bir ümidi qalmayıb. Maşın tutub məsçidə aparmaq, yudurtmaq, tabut, mafə almaq, yenidən maşına qoyub evə qaytarmaq, ölüm haqqında həkimdən, dəfn bürosundan arayışlar almaq, camaatı qəbiristanlığa aparmaq üçün avtobus tutmaq, qəbiristanlıqda yer haqtı, qəbir qazanların haqqı, çadır, stul, stolların, kirayə alınmış qab-qaçaqların, verilən ehsanların, daha yaddan çıxmış nələrin-nələrin hamısının xərcini o çəkməliydi. Özü də bunların hamısı bircə gündə olmalıydı. Onun vəsiyyət oxuyub əməl eləməyə nə vaxtı, nə halı, nə də həvəsi olacaqdı. Bu qədər xərc çəkib, bir belə yorulub əldən düşəndən, sarsıntı keçirəndən sonra mənim kimi bir olünün, bir leşin soyuq buz parçasının hansı istək, hansı arzu, hansı ümidlə dirilməsini istəməliydi. Dönə-dönə ozünün dediyi kimi o, ölünün yox, dirinin yiyəsidi... Yox, vəsiyyətnamə yazmasam, əmələ gələn iş deyil. Qəbiristanlıq seçmək, məzarı dörd, ən azı üç kubik qaldırmaq, bıçaq, qayçı, iskənə, vintaçan, şalvar, köynək... nə bilim nəmənə-nəmənə gərək deyil. Sonra çamaatın ağzını saxlamaq olmaz. Bunların yerinə ya toka verilməyimi, ya da meyidimə... Yox, "meyit" yazmayacağam, adamın əti ürpəşir. Qoluma, qıçıma bir zəhərli iynə vurulsun. Ancaq iynə məsələsi bir yolluq ölümdü. Birdən ölməmiş olaram. Yaxşısı budur, toka versinlər, tokdan ayıla bilərəm. Əgər güclü gərginlikdən ölsəm belə, basdırıldıqdan sonra yenə dirilmə ehtimalım var. hər halda, tokda bir ümid yeri var.

Yenə yorğanı üstündən atdı. Çarpayıdan durub tuman, maykadaca tələsik üç il bundan qabaq təmiri yarımçıq qalmış balkonlarına sarı addımladı. Toz-torpağın altından mismarçıxaranı tapdı, tozunu nimdaş uşaq koynəyinin qoluyla sildi, gətirib hamamda yudu, qurulayandan sonra yazı masasının üstünə, yun yumağın yanına qoydu. Oturub vəsiyyətnaməsini yazmaq istədi, ançaq üşüyüb titrədiyinə görə yerinə girdi və ürəyində vəsiyyətnaməsini yenidən yazmağa başladı. "Əziz qardaşım, son illər sənə olmazın əziyyətlərin verdim. Məni təkbaşına necə götürəcəksən, düşünəndə ağlım başımdan çıxır. Ancaq qayışını möhkəm bağlayıb üç gün dözsən, pis-yaxşı hər şey başa çatacaq. Unutma, indiyəcən heç kimin ölüsü

ortalıqda qalmayıb. Əgər sonuncu xahişimi yerinə yetirsən, yeddimi, cümələrimi, qırxımı verməsən də, qəbrimin üstünü düzəltməsən də, and olsun ölənlərimizin ruhuna, inciyən deyiləm. Birinci xahişim budur, ayaqlarımın baş barmaqlarını yazı masamın üstündəki yumağın ipi ilə bağlasınlar. İkinci xahişim də budur, mismarçıxaranı, o da yazı masamın üstündədi, yanıma qoysunlar, yəni qəbrdə qurşaqdan yuxarı tərəfimə. Allah köməyin olsun".

Ağlına gəldi ki, qardaşı gəlib çıxanacan, vəsiyyətnamədən xəbər tutub oxuyanacan evi yır-yığış edən arvad-uşaq bilmədən, tanımadan mismarçıxaranı götürüb harasa ata bilər, onun yerinə qardaşı kəlbətin, yaxud "plastokopst" da başa düşüb qoya bilər. Ona gerə də işinin ehtiyatlı olması üçün "mismarçıxaran" sözündən sonra bir defis işarəsi qoyub onun rusca "qvozdodyor" mənasını da yazmaq qərarına gəldi.

Yerində titrətmə içində sevinirdi. Mismarçıxaranı kəşf edəndən sonra nisbətən arxayınlaşdı, indi son mənzilində rahatca uzanmışdı. Mismarçıxaranla sığallı, enli, bir-birinin yanına kip düzülmüş, sementi çox olduğundan göy rəngə çalan palçıqla suvanıb bərkidilmiş örtükləri qısa bir vaxtda asanlıqla söküb daqıdacağına inanırdı. Daha yumaqdakı o xovlu, yumşaq ipə də ehtiyac qalmırdı. Vəsiyyətnamədən ip məsələsini, mismarçıxardandan başqa hər şeyi, bütün bəndləri sildi, əlini uzadıb yazı masasının üstündən yumağı götürdü, uzandığı döşəyin qırağını qaldırıb altına dürtdü.

Avtobus qəbiristanlığın girəcəyində dayanaçaq, o, hamıdan qabaq düşüb yaşına uyuşmayan cəldliklə özünü qəbiristanlığa verdi. Elə bil dəfn mərasiminin idarə olunması ona tapşırılmışdı. Dəmir, divar hasarlara alınmış köhnə məzarların arasından keçən cığırlardan tələsik adlayaraq bir-birindən xeyli aralı yenicə qazılmış iki məzarın yanından yolunu saldı, məzarların içindəki yenicə hörülmüş divarı gözdən keçirdi, kol-kosa, ot-ələfə sürtülə-sürtülə türyan gəlib öz ellisinin yenicə qazılmış qəbrinə çatdı. Əslində mərhumun sağlığında bircə dəfə də üzünü görməmişdi, onun adından, yaşından, kimin qohumu, qardaşı olmasından da xəbəri yox idi. Buraya gəlməkdə məqsədi ölüyə rəhmət demək, kiməsə başsağlığı verib əcir diləmək deyildi, sonuncu dəfə məzarın enini, uzununu, qəlbiliyini, divarın suvağını, bərk, boş yerlərini, qəbirin üstünə yığılacaq torpağın hansı tərəfdə az, hansı tərəfdə çox olmasını, baş və ayaq tərəfə qoyulaçaq daşların dəqiq yerini, hansının böyük, hansının azaçıq balaça olduğunu diqqətlə gözdən keçirmək hələ bu gen, bu işıqlı dünyada vaxt var ikən, indən belə heç kimin işinə yaramadığına, heç kimə gərək olmadığına görə bir kəsə inanıb ehtibar eləmədiyindən, ancaq özü-özünə bir çıxış yolu, bir ümid, bir girəvə yeri arayıb tapmaq idi. Cənazə yenicə yerə qoyulanda özünü təzə qəbrin ayaq tərəfinə yetirdi, adamlar axışıb gəlməmiş qənşərdə özünə münasib bir yer tutdu. Bayaqkı təzə qazılmış iki məzarda da, ellisinin bu qəbrində də hörülmüş divarın üç kubik qəlbiliyində görəndə sevindiyindən ucadan - buna deyərəm əla! - söylədi, gözləriylə qəbirqazanları

aradı. Cənazəni qəbrə sallayıb sağ yanı üstə qoyub rahatlayanda, məzarın eni, uzunluğu və hündürlüyünü təsəvvür etdiyindən çox gen olduğunu görəndə içində sevinc qarışıq bir arxayınlıq duydu. Mollanın dua oxuması ilə bağlı yaranmış sakitliyin fərqinə varmadan yanındakı tanımadığı adamdan ucadan - Görəsən bütün qəbirləri belə gen-bol qazırlar? - soruşdu. Adamların nəzəri onlara tuşlandığından yanındakı adam narazılıqla və əsəbiliklə çiyinlərini çəkdi. Sualına cavab almasa da kefini pozmadı. "Belə qəbir xeyli hava-oksigen də tutar" - düşündü. Məzarın fərşinə tökülüb daranıb hamarlanmış torpağın narın və yumşaqlığını görəndə ovqatı bir az da yaxşılaşdı. "Mismarçıxaranı qabaqcadan gətirib qəbrin fərşinə qoyub üstünü beləçə narın torpaqla örtmək olar, qəbirqazandan başqa heç kimin xəbəri olmaz. Hər şeyin çox sadə yolu varmış…"

Ançaq enli, nazik daş örtüklər məzarın üstünə döşənəndə kimsə - Ayağını qırağa qoy, bunlar kövrək şeydi, dərhal qırıla bilər, -deyəndə onun bir an qabaqkı gözəl ovqatı, şuxluğu, içindəki arxayınlıq uçub getdi. Gözləri dərhal örtüklərdən yuxarı torpağın tuşunacan olan yerə sataşdı, bir o qədər də yerin səthindən yuxarı torpaq qalaqlanmalıydı, nə az, nə çox, düz səksən santimetr. Adamlar çəkilib gedəndən sonra bu torpaq qalağının üstünə qəbiristanlıqda otarılan və qovulan mal-heyvan da çıxa bilərdi və onları otaran adamın özü də. Daş örtüklər bir-bir qırılır, iti yeri gah ayaqlarının, gah qarnının, qollarının, başının üstünə düşdüyündən nə əl-qol atır, nə də çabalaya bilirdi. Daha lingin, qazmanın da faydası yoxdu. Bunlardansa dəmir-betondan hazırlanan örtüklər min dəfə yaxşıdı. O, vəsiyyətnaməsinə dəmir-beton örtükləri də əlavə etməli oldu. Ümidsizçəsinə çevrilib yan-yörəsinə baxdı, aralıda dayanmış Balaca kişini başıyla yanına çağırdı, qəbrin içini görməsi üçün ona yer elədi, başıyla daş örtüklərə işarəylə - Qırıla bilər? - soruşdu. Balaca kişi düşünmədən - O dəyqə, bunlar namərd şeydi - cavab verdi. Sonunçu daş örtük məzarın üstünə qoyulub palçıq tokuləndə gözünü bir an məzardan çəkmədən ağzını Balaca kiişnin qulağına yaxınlaşdırıb bu dəfə pıçıltıyla - Heç cürə ordan çıxmaq olmaz? - soruşdu. Cavab vermədiyini görəndə bir neçə yol çevrilib nigarançılıqla ona baxdı. Bütün torpaq qəbrin üstünə yığılıb qalaqlanandan sonra Balaca kişi məzardan gözünü çəkmədən başını tərpədib amansız və qətiyyətlə - yox, - dedi, onun qolundan tutub özünə tərəf çəkdi, adamlardan aralıda dayandılar. Balaça kişi uzaqdakı təpələrə baxdı, gözünü oradan çəkmədən - Yaradan bilər... dedi, əlinin dalısıyla burnuna toxundu. sonra şəhadət barmağını qulağına soxub silkələdi, birdən çevrilib ona baxdı, asta-asta danışdı:

- Bir erməni dığasını tok vurub öldürübmüş... Onlar ölülərini üç gün saxlayıb sonra basdırır. Bahalı siqaret qutusunu, gümüşdənmiş, bir də alışqanını, o da yaraşıqlıymış, kastyumunun cibinə qoyurlar, yeşiyin dörd küncündən mismarlayıb aparıb basdırırlar. Gecənin yarısı iki gənc portsiqarla, alışqana tamahsındığından gedib qəbri qazıb yeşiyin üstünü açır. Qapağını qaldıranda tabutdakı dərindən nəfəs alır. Oğrular qoyub qaçırlar. Haçandan-haçana özünə gəlir. Bunlar olmuş

işdi, ölən oğlanın özü danışırdı mənə. Kəndimizə gəlmişdi. Yetmişinci illərdə bu hadisəni bütün qəzetlər yazmışdı. Həmin oğlan kənddə cəviz ağaçlarını çırpırdı.

Arığın biriydi. heç kimin çıxa bilmədiyi ağaclara dırmaşır, quş kimi budaqları gəzirdi. Çırpdığı qozun on kilosundan bir kilosunu özü götürürdü. Kənddən gedəndə yüz kilo cəviz apardı. Ağlı başına gələndən sonra görür qəbirdədi, hər şeyi başa düşür. Deyir, bilmədim hara gedim. Gedir qaynatasıgilə, hasarı aşıb həyətə girir. Yenicə işıqlanıbmış, qapını bir neçə dəfə döyəndən sonra qaynatası oyanır, tək imiş evdə, gözünü ova-ova şüşəbənddən soruşur, - kimdi. Pəncərənin pərdəsini çəkəndə dünən öz əli ilə basdırdığı kürəkənini görəndə az qalır başına hava gəlsin, qayıdıb divardan asılmış tüfəngi qapıb kürəkəninə tuşlayıb boşaldır. Güllə oğlanın təpəsini yalayır. Qaynatasının huşu başından çıxır, tiri-tap yerə sərilir...

Balacanın danışdığı əhvalatdan sonra o, birdən-birə özündə bir yüngüllük hiss elədi, qəbiristanlıqdan qayıdanda qabaqcadan nəzərdə tutduğu kimi maşını evlərinə yaxın, münasib bir yerdə saxlatdırıb düşmək əvəzinə, təzədən hüzr yerinə qayıtdı. Avtobusda yer tutub əyləşəndə də, çadırın qarşısında mollanın oxuduğu "Yasin"ə qulaq asanda da, oturub verilən ehsanı həvəslə və iştahla yeyəndə də Balaca kişinin yanından əl çəkmədi və kəndə gəlib çəviz ağaclarını çırpan həmin o oğlan barəsində dönə-dönə suallar verdi.

O gün evlərinə gec qayıtdı, arvadı rayondan gəlməmişdi. Mismarçıxaranı yazı masasının üstündən götürdü, aparıb balkona atdı, qayıdıb paltarlarını soyunub işığı söndürüb yerinə girdi. Dörd küncündən mismarlanan tabut gözünün onünə gəldi.

"Yaxşı ki, bizi tabuta qoymurlar. İki daş qəlbiliyində olan məzar da min dəfə tabutdan yaxşıdı. Mismarlanmış tabutdan heç kim çıxa bilməz. Ancaq onların paltarlı basdırılması yaxşıdı. Bəs o portsiqarı əsgərlikdə oğlana kim veribmiş, onun yerinə pul da, başqa şey də verə bilərdilər, necə olub, tok vuranacan onu itirməyib, satmayıb, kiməsə bağışlamayıb. Bəs təzə kostyumunu geyindirib tabuta uzadandan sonra portsiqarla, alışqanı onun cibinə qoymaq kimin ağlına gəlib, axı onu oğrular gəlməmişdən bircə dəqiqə tez də qoya bilərdi, oğrular onu görməyə də bilərdi, tabutdakı adam beşcə dəqiqə kec dərindon nəfəs ala bilərdi. Saysız-hesabsız bu qurğu, bu düzülüş, bu nizam, bu ardıcıllıq təsadüfdürmü? Balaca kişinin dediyi - "Yaradan bilər" - qulağnda səsləndi.

Yatmışdımı, oyaqdımı, özü də anışdıra bilmirdi. Sağ əlini gətirib üzünə qoydu, günortadan ovcunda qalmış gülabın zərif qoxusunu hiss elədi.

Aydın bir iyun səhəri o başdannan bir-birindən xəbərsiz gəlib gövşənin qurtaracağında bir yanı çınqıllı, iri-iri daş qalağına söykənmiş, fantan kimi fışqırıb açmış qızılgül kolluğunun üstünə çıxmışdılar. Qızılgüllər açandan bəri ağ köynəkli

oğlanla, sarı köynəkli qızdan başqa buraya insan ayağı, insan hənirtisi dəymədiyindən, hələ kolluğun nə bircə gülü dərilmiş, nə bircə udum qoxusu alınmış, nə də bir yad baxış güllərin zərif ləçəklərinə qonmuşdu. Ləçəklərin üstündəki par-par yanan şeh damlaları bunu deyirdi. Bugünkü imtahanda müəllimin qabağına qoymaq üçün bir dəstə yığıb aparmalıydılar. Camaatın dediyinə görə, çınqıllı, iri-iri daş kələyin altında bir əjdaha olurdu. Ançaq oğlanın da, qızın da səsindəki titrəyiş və həyəçan nə bugünkü imtahandan, nə fantan kimi fışqırıb açılaraq yan-yörəsini məstedici ətrinə bürümüş qızılgüllərdən, nə də heç vaxt, heç kimin görmədiyi əjdahanın vahiməsindən idi. Oğlan balaca çib bıçağıyla kəsdiyi uzungövdəli, ləçəklərinə şeh qonmuş, yarıaçılmış qızılgülləri titrək əlləriylə qıza uzadıb tələsik sıçrayaraq kələyin üstünə çıxdı. İlahi, ayaqlarının altındakı daşlar da məxmər kimi yumşaq idi. Yenicə qızarıb dəymiş gilas budağını əyib bir neçə şax qırdı və qızın yaxınlığında dizəcən qalxmış gömgöy otların üstünə atdı.

Yuxarıdan baxanda qızılgül kolluğu iri bir buketə oxşayırdı. Dağın arxasından yenicə çırtmış günəşin şəfəqləri qızın qızılgül rənginə çalan yanaqlarına, dodaqlarına toxunmaqdaydı, qamaşan gözləri qıyılmışdı. Oğlan titrək səslə. - Burdan ayrı cür görünür, gəl, sən də bax, -dedi. Qız titrək səslə: - Kecikirik, gəl gedək. Onsuz da qızlar heç vaxt oğlanların baxdığı yerdən baxammır, - söylədi.

Oğlan bu zərif, gözəl qızın özündən ağıllı olduğunu fəhmlə duydu və həyəcanı daha da çoxaldı, əyilərək daş qalağının tuşuna qalxmış və pardaxlanıb açılmış qızılgüllərin ləçəklərini ovuclarına yığdı. Dikəlib daşların üstüylə quş kimi səkə-səkə qızın tuşuna gəldi. - Gedəkmi? - deyəndə, qız ona baxdı, gülümsünərək başıyla "hə" - dedi. Oğlan qabaqça sağ, sonra sol əlindəki qızılgül ləçəklərini qızın başı üstünə havaya atdı. Qız gözlərini yumub gülümsər üzünü yağışa tutubmuş kimi ləçəklərin altına tutdu. Bu an uzandıqca uzandı...

Və yataqda uzanıb özünün yatmışmı, oyaqmı olduğunu anışdıra bilmədiyi bir vaxtda həmin qızılgül ləçəklərinin yağdığı o an, ona arxada qalmış qırx üç ildən uzun və dadlı gəlirdi.

**Aprel, 1996.**

## BAZARLIQ

Bu dəfə Bəhram talonu deşəndən sonra dönə-dönə sürücüyə göstərib, tramvayın son pilləkənində yuxarı qaldırıb havaya buraxdı. Yolun qırağında alma, fındıq, yumurta satırdılar.

- Camaatda ağıl yoxdu, belə almanı qoyub gedib od bahasına bazardan alırlar,- dedi. Heç kim ona məhəl qoymadı. O, fındıq növbəsində dayanmış adamlara, ağzı açıq kisəyə yaxınlaşıb bir ovuc fındıq götürdü, ağırlığını yoxladı, "sən öl, əməlli-başlı fındıqdı da!" – deyib birini ənginə salıb sındırdı, iri, sağlam fındıq çıxdı. Ağzına atıb yeyə-yeyə adamların üzünə baxdı. Yenə ona məhəl qoyan olmadı. Ovcundakı fındığı kisəyə atdı. Yumurta satılan yerə yaxınlaşdı. Əlində dolu zənbil tutmuş qadından:

- Neçiyədi?- soruşdu.

- Bir otuza.

- Onu, eləmi?

- Onu olmamış, otuzu olmayacaq ki!?

- Təzədi deyəsən...

Qadın ona baxmadan başını təpədib "hə" – dedi.

Bazarın qapısı yanında bir qadın dayanmışdı, əlindəki mal kəlləsini gəlib-gedənə göstərirdi. Bəhram qadına yaxınlaşdı:

- Görüm nətəri şeydi, - deyib malın başını qadının əlindən aldı, qulaqlarından tutub diqqətlə o yanına – bu yanına baxdı. Qadın da maraqla Bəhramın uzun, nazik boynuna, boynunun üstündə tez-tez o yan- bu yana çevrilən balaca yumru başına, iri gözlərinə, ucu getdikcə bizləşən uzun burnuna baxırdı. Bəhram ağacdələnə oxşayırdı. Qadına elə gəlirdi ki, Bəhram indicə malın başını dimdikləyəcək.

- Nə eləmisən, belə şişib, bu köklükdə mal başı olar?.. Düzünü desən alacam.

- A bala, gülməli danışırsan, kəsik başa nə eləmək olar?

- Neçiyə verirsən?

- Beşə apar.

- Yaxşı, de görüm, bu yazıq heyvanın başını ülgücnən qırxmısız, yoxsa

elektrobiritvaynan?

Qadın gülə-gülə:

- Ülgücnən, - dedi.

- Bizlərdə təndirdə, ocaqda ütərdilər. Yaxşı, bunun əl-ayağı yoxdur?

- Yox.

- Mən yaman xaş yeyənəm, əl-ayağından xoşum gəlir. Olsaydı, alardım...
Bəhram bazara girdi, göy satılan yerə yaxınlaşdı. Qırmızı, yumru turplardan birini sıxıb bərkliyini, boşluğunu yoxladı, qıymətini soruşdu. Bir dəstə kişniş götürüb o yanına- bu yanına baxdı, yerinə qoydu. Bir dəstə soğan götürdü, ynındakı şılyapalı kişiyə göstərdi:

“ Belə də şey olar, dörd – beş dənədən dəstə bağlayıblar...” Şilyapalı kişi başını bulayıb uzaqlaşdı. Bəhram soğanı yerinə qoydu. Üç yol göy satılan piştaxtanın başına dolandı. Gözünə şüyüd dəydi. Bir qoca kişi satırdı. Qabağında vur- tut üççə dəstəydi. Bəhram şüyütləri bir-bir götürdü.

- Əmi, bunların hay- hayı gedib...

- Özümə oxşayır... Qardan üşüyüblər.

- Bir dəstə yaxşısından ver, altdan.

- Qalan elə budu.

- Onda ikisini on köpüyə ver.

- On beş ver, üçünü də apar.

- Mənə biri lazımdı, sənin xətrinə ikisini götürürəm.

Bəhram dönə-dönə şüyütləri gözdən keçirib ikisini götürdü. Pılaşının qoltuq cibindən çıxartdığı əzilmiş kağız kisəsinin qatını açıb şüyüdləri içinə qoydu. Qarşıdakı kişiyə yaxınlaşdı. Yarımçıq kisədən bir ovuç arpa götürdü. Bir arpaya baxdı, bir yiyəsinə.

- İçində bircə dənə də olsun daş yoxdu. Ay Xanəlinin boz eşşəyi burda ola ha! Bircə ovuc ver, iki çuval dəni yüklə, bir nəfəsə dəyirmana sür!
Arpanın yiyəsi zarafatınnan qalmadı:

- Xanəlinin eşşəyi burda olsaydı hamısını keçirərdim başına, mənim də canım qurtarardı...

Bəhram dərinə getmədi, üzüsulu uzaqlaşdı,. Yan-yana düzülmüş sarımsağın, ağ lobuyanın, qırmızı lobyanın, mərciməyin, noxudun yanından dinməzcə otdü, qiymətlərini gözdən keçirdi. Gəlib ucaboy, dolu bir kişinin yanında dayandı. Kişinin qarşısında ağzı açıq kisələrdə qoz ləpəsi, fındıq, fındıq içi, alça, gavalı, gilas, əncir quruları vardı. Bəhram, xına kimi sapsarı işıldayan altı manatlıq ərik qurusundan birini götürüb baxdı.

- Necə eləyirsiz belə gəşəng olur, sapsarı?

- Uzun işdi...

- Ordubaddı deyilsən?

Kişi sevincək:

- Dadaş, hardan bildin? – soruşdu.

- Dədəmin bir ordubadlı dostu vardı. Bizə gələndə həmişə bunlardan gətirərdi.

- Ürəyin nə istəyir, götür ye.

Bəhram "çox sağ ol!" – deyib əlindəki ərik qurusunu ağzına qoydu. " Br şey çıxır? " – soruşdu. Kişi papağının yanını qldırdı, başını qaşıya-qaşıya:

- Dolanırıq da, - dedi.

Bəhram yenə də bir gavalı qurusu götürdü. Tanış kimi sağollaşıb kişidən aralandı. Sumax, turşu lavaş, istiot, ayrı-ayrı toxumlar ordubadlı kişiyə yaxın olduğundan Bəhram onlara gözucu baxıb ötdü. Azca aralıda xurma satana yaxınlaşdı. Kilosu bir manata idi. Bəhram irilərindən birini götürdü. Satan oğlan:

- Basma da, onsuz da ötüb, - dedi.

- Niyə qorxursan, qaqaş, əzilsə götürərəm.

- Yox də...

- Bir az ucuz ver, götürüm.

- Nə qədər istiyirsən?

- Bir kilo.

- Yox...

Bəhram uzaqlaşdı, armudun, almanın, heyvanın yanından keçdi. İri-iri, dəymiş əzgilin yanında ayaq saxladı. Bir manat iyirmi qəpiyə verirdilər. Bəhram " dadına baxmaq olar?" – deyib birini götürdü.

- İstəyirsən, ikisini, üçünü götür.

- Bəhram əzgili yeyəndən sonra baş barmağını yuxarı tutub:

- Əla! - dedi. - Alma, armud alacam. Qayıdanda alıb üstdən yığaram ki, əzilməsin. Bəhram gəlib qalaq- qalaq yığılmış qıpqırmızı nar komalarının qarşısında dayandı.

Kəsilmiş, qan kimi narın iki giləsini qoparıb ağzına atdı. Nar satan ucaboy, yaraşıqlı bir oğlandı. Dəblə geyinmişdi. Pırpızlı şərfini yaxası açıq " Tiklas " plaşının üstünə salmışdı.

Qıraqdakı seçmə narlar lap iriydi. Bəhram onlardan birini götürüb o yanına – bu yanına baxdı.

- Buna söz ola bilməz! Mən beləsini axtarırdım.
Oğlan göz ucu Bəhrama baxdı, ancaq tez də üzünü başqa səmtə çevirdi.

- Hələ bir de görüm, innən belə bunları nə qədər saxlamaq olar?

Oğlan könülsüz:

- Bir aya söz olmaz! – dedi.

- Hə, iyirmicə gün qalsa bəsdi. Dedin nə qədərdi?

Oğlan tez tərəzinin arxasına – öz yerinə keçdi. Aşağı əyildi, qutuları gözdən keçirib:

- Nə qədər istəsən düzəldərik, - dedi.

- Bir əlli kilo lazımdı. Moskvaya aparacam.

- Əlli?

Oğlan Bəhramı başdan – ayağa yenidən süzdü.

- Göyçay narıdı, eləmi?

- Hə.

- Nujeli sizin əlli kilo belə narınız yoxdu?

Yaxşı, dörd əllidən on beş kilo ver, götürüm. Qalanını da başqasınnan alaram. Oğlan tələsik aşağı əyildi. “ Nə deyirəm ” , - dedi. Bəhram “ belə yumuşalarsan ha... ” – düçündü. Özündən razı qaldı.

- Qardaş, qoy bir hərlənim görüm, beləsini tapıb üstün düzəldə biləcəyəmmi. Bu dəyqə qayıdıb gəlirəm.

- Yaxşı, oldu.

Bəhram səkkiz, doqquz addım aralanmışdı, arxadan başqa bir oğlan onu səslədi:

- Qardaş, sənə yaxşı nar lazımdı?

- Hə, bir əlli kilo.

- Gəl bura sənə nar verim.

- Yaxşısı lazımdır e, irisi, əzilməmişi. Gülövşədir?

- Dedim gəl də.

- Qaqaş, dörddən versəm alaram.

- Əmioğlu, sən nətəri adamsan, gəl bir mala bax, sora danışarıq. Bazarda mənim narım kimisini tapsan, sənə müftə verəcəm.
Bəhram nə qədər çalışdı, yaxasını oğlandan qurtara bilmədi. Oğlan Bəhramı bir kişinin yanına gətirdi. “Alt qutudakı narı buna göstər, bu dəyqə qayıdıram ” - deyib getdi.

Qutular çox kip yığılmışdı. Darısqal olduğundan kişi yerindən tərpənəmmirdi. O, pencəyini soyundu, üstəki qutuları götürüb altdakını çıxarınca çox əlləşdi. Arada iki müştəri gəlib nar istədi. Kişi onlara məhəl qoymadı. Bəhramın ona yazığı gəldi. Kişi qutunun ağzına vurulmuş taxtalardan birini çıxartdı. Bəhram:

- Görünür, görünür, daha sökmə! – dedi. Kişi qulaq asmayıb taxtalardan ikisini də çıxartdı.

Narlardan ikisini götürüb Bəharama uzatdı:

- Hərəsi yeddi yüz, səkkiz yüz qıramnan aşağı deyil – dedi.
Bəhram ömründə bu irilikdə, bu gözəllikdə nar görməmişdi. Narın o üzünə baxdı, bu üzünə baxdı:

- Özü də sapsağlamdı! – dedi.

Kişi sevincək narlardan ikisini də çıxartdı:

- Bir giləsi də əzilməyib.

Bəhram deməyə söz tapmadı. Bir də əyilib qutuya baxdı:

- Deyirsən hamısı belədi?

- Qardaşoğlu, çıxarım bir-bir bax, bəyənmədiyini götürmə.

Bəhram narı yavaşca tərəzinin yanına qoydu:

- Bəs qab işini neyniyək? – dedi.

- Qab da verərəm, qutuların birinə yığarsan.

Bəhramın bir gözü onu bura gətirən oğlanda idi. Bilirdi ki, o, qayıdıb gəlsə, işlər lap çətinləşəcək. Bu hay-küydən sonra ona dişindən çıxanı deyə bilərdilər. Bəhram:

- Narına söz olmaz! – dedi. – Onda qoy yoldaşımı da çağırım, o da baxsın.

- Nə deyirəm...

Bəhram özünü bazarın tünlük yerinə verdi. “Ağrımaz başa dəsmal bağlamaq, buna deyərlər ” – düşünüb, arxasına baxa-baxa tramvay dayanacağına yönəldi.

Tramvayda adam az idi. O, qabağa gəldi döş cibindən dəftərçəsini çıxardıb arasından bir təzə talon götürdü, talonu deşib yan-yörəsinə baxdı. Geri qayıdıb iki adamlıq yerlərin birində əyləşib dərindən nəfəs aldı.

Tramvayın pəncərəsindən çölə baxdı. Sulu qar yağırdı...

# SOLFECİO DƏRSİ

Bu səhər Köçəri yuxudan həmişəkindən iki saat tez ayıldı. Eşiklərindəki paslı dəmir parçasını bir neçə yol qaldırıb endirdi.

Köçərinin idmanla arası yox idi. Ancaq o, son yeddi günü könülsüz olsa da idman edirdi. Bu gün o, bir nəfərlə iki ton kağızı maşına yükləyib sonra da boşaltmalıydı.

O, dalandan burulanda ilkin gözünə dəyən bir qız oldu. Onu üzdən tanıyırdı. Qabaqlar elə bu küçədə bir neçə yol üz – üzə gəlmişdi.

Bu səhər görməsəydi, qızın belə tez yuxudan oyanmasını ağlına gətirməzdi. Boylu – buxunlu bu qızda yaraşıqdan, gözəllikdən savayı bir xanım – xatınlıq da vardı. Köçəri belə qızları , ancaq şəhərin mərkəzi küçələrində görmüşdü.

Şəhərin qırağında taxta, dəmir çəpərə alınmış yöndəmsiz evlərin arasıyla uzanan dar, palçıqlı yolda bu qızın yeriməsi Köçəriyə həm qəribə gəlir, həm də onu sevindirirdi. Köçəri duydu ki, arxadan gələn oğlanların , kişilərin hamısı qıza çatmaq istəyir.

Bu gün gölməçənin suyu bir az da çoxalmış, bəzi daşların üstünü örtmüşdü. Küçədən keçənlərin hamısı ayağını çəpərin dibindəki yumru qara daşın üstünə qoyanda daş yerində oynayır, adamlar çəpərin ensiz taxtasından yapışıb, o biri daşa adlayırdılar.

Qız ayağını həmin daşın üstünə qoyanda büdrədi, gülə - gülə “oy” - dedi. Ancaq yıxılmadı. Şabalıdı kürkünün üstünə qonmuş ulduz – ulduz parıldayan narın damcılar yerə töküldü.

Qız çəpərin ensiz taxtasından bərk – bərk yapışdı. Əlində ağ, yumşaq dəri əlcək vardı. Köçəri onun əlini görə bilmədiyinə heyifsiləndi. Aydanın ağappaq , yumuq – yumuq gözəl barmaqları, barmaqlarının üstündəki batıqlar yadına düşdü. “Aydan bizə gəlsə, onun da əli bu taxtaya dəyəcək” düşündü.

Aydan Köçərinin arvadı Gülgəzlə musiqi məktəbində oxuyurdu. Dünən Gülgəzlə Aydangilə getmişdilər. Onların uca tavanlarından asılmış çılçıraqları, geniş, işıqlı dörd göz otaqları, par – par yanan parketləri, onların çırıltısı , mebellərin rəngində tund xınayı “Röniş” alman poyalı, bir də Aydanın yupyumru ayağındakı yaşıl tikmələrlə işlənmiş yumşaq, qırmızı dəridən məstləri Köçərinin gözlərinin qarşısına gəldi, dilxor oldu.

Çünki onlar iki dəfə Aydangilə getmişdi. İndi də Aydan onlara gəlməliydi. Bir – birindən aralanıb boyası getmiş taxta döşəmələrindən, əsgi şapşaplarından, köhnə "Belarus" pianolarından , onun səsi çıxmayan "mi", "sol" notu üstündəki dillərdən daha çox Köçərini dilxor edən bu küçənin gölməçəsi, palçığı idi.

Qız gölməçənin ortasında bir oğlanla qarşılaşdı. Oğlan pencəyinin yaxasını qaldırmışdı, ayağında yay ayaqqabısı , əynində açıq mavi, qısa yay şalvarı vardı. O, qızla üz – üzə gələndə ovqatını pozmadan suya girib yol verdi, bir daha daşların üstünə çıxmadan gölməçə boyu yeridi. Arxadan gələn kişilər gülüşürdü, onlardan biri:

-Ay bala, yay deyil ha, cavanlığına salma, dekabr ayıdı, soyuqlayarsan, - dedi. Onlar tranvay dayanacağına çatdılar. Köçərinin qanını qaraldan şeylərdən biri də şəhərin hər yerindən çoxdan götürülmüş, ancaq onların yolu üstündə işləyən sınıq – salxaq arabaları andıran tramvaylar idi. Qabaqlar Köçəri öz dayanacaqlarına çatanda bu yöndəmsiz evlərin yanında düşməyə utanırdı. İllah da ki, onun yanında gözəl, nazlı bir qız oturaydı və bir neçə yol gözləri bir – birinə sataşaydı. Dayanacağa yaxınlaşanda Köçəri bu yerlərə birinci yol gələn adamlar təkin pəncərədən çölə boylanır, yanındakılardan soruşardı:

- Bilmirsiz, xəstəxanaya çoxmu var?

Qabaq yerlərdə əyləşmiş bazardan gələn qoca qadınlar:

- Elə burdadır, burda düş, bax oradır...

Köçəri jurnalist idi. Uzaq kəndlərin birində dərs deyən qardaşı, qonşuların yanında yaxud hardasa ona kələk gəlmək istəyən satıcılarla sözləşən anası, qadını, bacıları jurnalist Köçəriylə öyünürdülər. Ancaq nə onlar, nə qohum, qonşular, nə şəhərin orta küçəsindən keçib redaksiyaya gedərkən mağazaların iri pəncərələri arxasından Köçərini salamlayan yeniyetmə satıcı qızlar, yaxın – uzaq bütün tanışlar bu gün onun kağız daşımağa getməyini bilmirdilər.

Beş il idi "Musiqi" jurnalı redaksaiyasında tekniki redaktor işləyirdi. Bu gün – sabah işini dəyişib başqa bir yerə köçmək ümidiylə yaşadığından texniki redaktorun vəzifəsinə aid olan işi bugünəcən öyrənməyi özünə sığışdırmamışdı. İşinin öhdəsindən gələ bilmədiyindən redaksiyada dili qısaydı. Elə buna görə də buyruqçu olmağından redaksiyanın xırda – para işlərini ona tapşırırdılar. Kağızı mətbəəyə redaksiyanın bütün işçiləri aparırdı. Onda Köçərinin vecinə deyildi. Çünki şöbə müdirləri, məsul katibin özü onunla birgə kağızı yükləyir, birgə taksiyə minib mətbəəyə gəlir, orada kağızı boşaldırdılar.

Sonuncu dəfə onlar yük maşınında gəldilər. Şöbə müdürlərindən biri sürücüdən

maşını qıraq, adamsız küçələrdən sürməyi xahiş etdi. Sürücünün tərs damarına düşdüyündən onu eşitmədi. Şöbə müdürlərinin yorğun, deyinə - deyinə kağızları daşıması, yük maşını ilə şəhərin içindən keçərkən aşağıya əyilib qızlardan, tanış – bilişlərdən gizlənməsi o çağlar Köçəriyə ləzzət verirdi.

Şöbə müdürləri buna dözməzdi. Bir – iki yol gedib redaktora şikayət edib bu ağır işdən yaxınlarını qurtardılar.

Köçəri avtoparka girdi. Sürücülər bir yerə toplaşıb ucadan danışırdılar. Köçərini görəndə onlardan biri dedi:

-Alə, bu yenə gəldi ki?

Köçəri özünü eşitməzliyə vurdu. Onun içində bir sevinc də vardı. Bu gün bir fəhlənin yerinə işləyib pulun yarısını götürmək, gedib təzə ət almaq, yaxşıca bazarlıq etmək, axşama bir kabab düzəltmək istəyirdi. Sabah axşam süfrədə nə desən, olacaq, bacılarıyla, arvadıyla ürəkdən deyib – güləcəydi. Ocaq çatacaq, əti özü şişə çəkib manqalın üstünə düzəcək, əlini üzünə tutub istidən qorunacaq, tüstü, ətin qoxusu bütün qonşulara yayılacaqdı.

Köçəri onlara çatıb:

- Salam əleykim! – dedi.

- Ay sabahın xeyir!

- Həmişə sən gələsən, qəqeş!

Əlləri plaşın cibində ucaboy, arıq, qaşları uzun və və çallaşmış direktor gözlərini bir an Köçəriyə dikib tez də çəkdi. Köçərinin qanı qaraldı. Yaxşı bilirdi ki, parkın drektorundan tutmuş bütün sürücülərə kimi birinin də ondan xoşu gəlmir. O bunu bir neçə yerə yozdu. Köçəri yaz, yay ayları çox yaxşı geyinirdi, bəlkə elə buna görəydi, bəlkə də qaraqabaqlığına, yaxud onlara qaynayıb qarışa bilmədiyinə görəydi?..

Sürücülərdən biri:

- Qəqeş ha gəlib – gedirsən, bəs haçan bizdən yazaceysən?

Köçəri hirsini boğub:

- Mən yazan deyiləm, özü də bizim toplumuza incəsənətdən yazırlar.

- Nə incəsənət?

Başqa bir sürücü:

-Alə, oxu da savadsız, bilmirsən mınnarın qəzeti nədi?

Əlləri yekə iri şapkalı kök bir sürücü:

-Mınnar Çaykovski yazır də...

-Ay aton rəhmət...

- Zeynəbdən nööş yazmursuz?

-Sən heç baxmısan, bılar zurna - balabannan tutmuş klarnet, nağara, artis – martis , nə bülüm serenada, balalayka, muğamat nə gəldü yazullar.Elə döyül, bacoğlu?
Ağzında kazbek ortayaşlı bir sürücü:

- Xaloğlu, çəkmələrini belə palçıqlı görürəm, diyəsən, sən də mənim kimi qıraxlarda yaşayırsan?

Köçəri özünü o yerə qoymadı, acığını boğub dedi:

-Deyəsən siz də mənnən yazmaq istəyirsiniz, hərənizi bir şey maraqlandırır, sabah gələrsiz, sorğularınıza cavab verərəm.

Direktor yana çevrilib üzütüklü, alçaqboylu, enlikürək oğlana:

- Qəzənfər, sən get.

Qəzənfər sağ əlini gödəkcəsinin cibindən çıxarıb dedi:

-Yoldaş nəçənniy, bu dəfə də ayrısı getsin.
İnanmursuz, jurnalistin özünnən soruşun, mənnən arası yoxdu.

Sürücülərdən:

-Alə, minnətun olsun, şikülünü qəzetlərünə vurallar. Kağuzlarunu çox vaxt sən daşımısan.

-Hərü, əl əlu yuyar, əl də üzü...

Doğurdan da köçərinin Qəzənfərlə arası yox idi.
Bir yol anbarda maşınına kağız yükləyirdilər. Qapının yanındakı kağız qurtardı. Maşın başqa qapının yanına çəkilməliydi. Köçəri Qəzənfəri çağırmağa getdi.O, bir

– birinin içində olan başqa anbara keçəndə gördü ki, Qəzənfər anbardarın köməkçisi yeniyetmə bir qızın biləyindən yapışıb. Qızsa gülür, əlindəki dəftərlə Qəzənfərin üzünə - üznə vurur, əlini dartıb çıxarmaq istəyir.

O gündən sonra onların arası dəydi. Yeri düşdü – düşmədi Qəzənfər Köçəriyə sataşırdı.

Birinci yol kağız aparanda Qəzənfər də kömək eləmişdi. İşçilərlə tanış olmuş, onların haqqında çox şey öyrənmişdi . Maaşlarını , haralı olduqlarını soruşmuşdu. Köçərinin arvadının oxuduğu musiqi məktəbinin yerini də bilirdi.

Qəzənfər putyovkaya qol çəkdirib maşına sarı gedəndə avtoparkın direktoru dedi:
- Qabaqca mebel fabriklərinə dəy, dolablar hazır olsa, onları anbara apar.
Qəzənfərin "Qaz 51" maşını köhnə idi. Gedərkən yan taxtaları yellənir, taqqıltı, çıqıltı eşidilirdi. Maşının yanları tamam palçığa bulaşmışdı. Köçərinin qanı daha da qaraldı. Qəzənfər kabinkanın qapısını açdı.

- O biri qapı açılmır, gəl burdan keç.

Köçəri bir az da hövsələdən çıxdı, ancaq yenə dözdü. Sakitcə dedi:

- Maşını niyə silmirsən? Saxlayıb cərimələyərlər ha?

- Əybi yox, kağuzu yükləyib qayıdan baş Əlabbasın tükanının yanında saxlayıb yuyarıq.

Həmin mağaza musiqi məktəbinin yanındaydı.

Onun nəyə işarə elədiyini anladı, daha özünü saxlaya bilmədi.

-Kötük, başın – zadın -ağramır?

-Nöş hirslənirsən? Özüm yuyacağam da. Jurnalistin danışmağına bax e? Bilürsən nə var, hörmətivü saxla ha?!

Mebel fabrikində çox qaldılar.Köçəri tələsdiyini gizlədirdi. O, maşından çıxıb sexlərə girdi.

Qəzənfər çöldən əliylə Köçərini çağırdı.

Köçəri sağollaşıb sexdən uzaqlaşdı.

Qəzənfər maşını yeyin sürürdü. Maşınları sağdan, soldan ötüb keçirdi. Sürücülər başlarını çıxarıb acıqlı – acıqlı nəsə deyirdilər.O, maşını yolu keçmək istəyən

adamların üstünə sürür, çataçatda azca döndərib yanlarında ötür, sonra başını çölə çıxarır, əlini yelləyib qorxmuş adamları gülə - gülə salamlayırdı. Bir dəfə də qırmızı işıq ola – ola küçəni keçmək istədi. Birdən əyləci soyuqqanlıqla sonadək sıxdı. Çevrilib Köçəriyə baxdı.

- Burda deyərlər, anon namaz üstəymiş! Eləmü?

Köçəri susurdu. Qəzənfər yenə dilləndi.

-Doğurdan, Köçəri məndən yazarsan? Yaz ki, dəlidoluyam, hamıya sataşuram, adamluğum yoxdu.

Vallah, istəsən də yazmassan. Qəzetə ağıllı – başlı adamdan yazullar.

-Sənnən çox qəşəng yazaram, ancaq...

-Ancaq odur ki, noolar şofir olanda , him – cim mənə bəsdür. Bir dənə iyirmibeşlüy, necədür? Bağuşla e, bəlkə açuğ danuşuram, bizdə örtülü bazar yoxdur. Yaxçu, bir az mədəni desək, bir dənə inturist! Necədür?

-Elə arxayın danışırsan ki, elə bil hər şeyi bilirsən, hər şeydən xəbərin var.

-Höş yoxdur e? Hələ süzə yazmağa görə pul da verüllər, birtəhər deyüllər e?..

-Qonorar?

-Hə aton rəhmət. Bağuşla, dirüyə də rəhmət var!..

-Qəzənfər, sürücülərin hamısı sənin kimidir, yol qaydalarını hamı sənin kimi pozur?
Yoxsa...

-Başa düşdüm, eləsü var mədənüdür, quzu kimidür, eləsü var od parçasudur, ancaq hamusu qazanub balalarunu saxlamaq istəyür.

Köçəri höcəti kəsmək üçün susdu. Qəzənfər maşını anbarın yanında saxlayıb yox oldu.

Anbarda fəhlə yox idi . Onları başqa yerə göndərmişdilər. Köçəri hövsələdən çıxdı, istədi çıxıb getsin, başqa gün gəlib aparsın. Sonra avtoparkın drektorunun soyuq, saymazyana üzünü sürücüləri, səhər obaşdan yuxudan qalxmağı , arvadını aldadıb: “Bu gün mətbəədə işimiz var” - deməsi Qəzənfərin iliyə işləyən atmacaları yadına düşdü. Bir yandan da sevindi. “Fəhlənin pulu da özümə qalar, bir günlük işdir, sınıyım özümü?” –düşündü.

Köçəri kağızların əllisini yüklədi. Soyuq olsa da kürəyindən tər süzürdü.

Yorulmuşdu, ancaq inanırdı ki, yerdə qalan kağızı yükləməyə gücü çatacaq.Mətbəədə fəhlələr ona hörmət edirdilər. "Uzaqbaşı hamısını onlara boşaltdıraram, sabah pulu alacam, gətirib pullarını verərəm..."

Köçəri yorulsa da da sevinirdi. Çünki onun işlədiyini görən yox idi. Anbardar qadın öz yerində əyləşib çay içirdi.O, gəlib kağızları maşında sayacaqdı. Sonuncu arabanı yükləyib aparanda Qəzənfər gəldi.

- Pay atonnan, tək yüklədün?! Mən ölüm, öldürsələr də mən bacarmadım. Belə jurnalist olar? Əjdahasan!

Qəzənfər kömək eləmək istədi. Köçəri qoymadı.O, acıqdan Qəzənfərin yanında oturmadı, plaşını geyib maşının üstünə qalxdı.

-Özünnən küs, gör hava necə soyuyub, tərlüsən, soyuq olacey, özü də yağış çiləyür.Ancaq sən hirslənəndə məə yaman ləzzət eləyür.

Soyuq külək köçərinin tərli başını üşüdürdü. O özünü qalaqlanmış kağızın arxasına verib aşağı əyildi. Çöməltmə oturdu. "Bir az dözsəydim..." düşündü.

Redaksiya , şöbə müdürləri oraya gələn xanım – xatun qızlar, onların nazı, musiqili səsləri Modilyani, Cülyetta Mazina ağrısı, Antonioni, Karbüze, stradivarius skripkasının sirri, Kafka anlaşılmazlığı, bütün elita danışığı bu danışıq zamanı özlərini oxşarsız göstərmək istəməsi Köçərinin yadına düşdü. Hamıdan, hər şeydən özündən belə zəhləsi getdi. Başı üşüyürdü. Papaq qoymadığına peşman oldu. "Mənə bu da azdır, əsl yük daşıyanam" qəzəblə düşündü. Şöbə müdürlərindən birinin tez – tez aralığa "Mayakovski ömrünün sonunacan ədəbi işçi işləyib" deməsi yadına düşdü. "Bəlkə mənnən yana deyir, bəlkə mənə toxtaxlıq vermək istəyir, bəlkə də ələ salır?.." fikirləşdi.

Maşın dayandı.Köçəri səsə başını yuxarı qaldırdı. İkinci qatın balkonunda üç qız əllərini narın yağışa uzadıb ona baxırdılar. Qızlar Köçərini üzdən tanıyır, Gülgəzin yoldaşı olduğunu bilirdilər. Köçəri bir an özünü itirdi, nə edəcəyini bilmədi. Birdən ayağa qalxıb şax dayandı.

Qəzənfər maşını Əlabbasın ət dükanında saxlayıb yerə düşdü. Gülə - gülə Köçəriyə baxıb dedi:

- Yağış yağır, gəl aşağu, beş dəyqəyə maşını silim, gedəy.
Musiqi məktəbinin tələbələri iki - bir , üç – bir maşına sarı gəlirdilər. Qızlardan biri Köçərini gördü, yavaşca nəsə dedi, yanındakı yoldaşları da çevrilib Köçəriyə

baxdılar. Bu Köçərinin gözündən yayınmadı. O, yerə atıldı. Plaşının düyməsi maşının qırağına ilişdi, əl boyda “Q” şəklində cırıldı.O, üzünü Qəzənfərə tutub:

- Eşşək! Donuz oğlu, donuz!..

Köçəri tələsik çevrilib yeyin addımlarla musiqi məktəbinə sarı irəlilədi. O, uzaqdan Gülgəzin sinif yoldaşı Fuadı gördü. Bir oğlanla tund narıncı”Volqa”sına yaxınlaşırdı. Köçəri salamlaşmadan onların yanından ötüb ikinci qata qalxdı.

Əllərində not dəftəri , xəz paltolu qızlar səkilərlə enib qalxırdı. Bəziləri Köçərini tanıyırdı, Köçəri onların heç birinin üzünə baxmadı. Otaqlardan piano, tar, skripka, violençel səsi gəlirdi. Kimi qamma çalırdı, kimi muğamat, kimi də etüd. Otaqların hansındasa tenor səslə Koroğlunun ariyası oxunurdu. Səs tez – tez kəsilir, yenidən eşidilirdi.

Köçəri otuz üçüncü otağa yaxınlaşdı. Bilirdi ki , bu saat Gülgəz solfecio dərsindədir. Qabaqlar bir yol Gülgəzi axtaranda gəlib həmin otağa çıxmışdı.

Yavaşca qapının deşiyindən içəri baxmışdı. İçəridəki qızların hamısı ona ağappaq görünmüşdü. Üzərindən bəxtəvərlik, sevinc yağan bu qızlar qu quşları kimi bəmbəyaz uzun boyunlarını irəli uzadıb oxuyurdular. Köçərinin arvadı qızlardan seçilmirdi. Onların incə, şirin, bir az kövrək və məlahətli səsləri Köçərini götürmüş, onu göyün yeddinci qatına qaldırmış, bəlkə də daha uzaqlara aparmışdı. Qızların ağappaq, şümal əlləri, gözəl barmaqları, daranmış dümdüz, burma telləri, gözəgörünən hər şey nağıl kimi Köçərinin yadında qalmışdı.

Köçəri qapını hirslə açdı. Qızlar “Yaylaq gülü” şərqisini oxuyurdu:

Əsən yellə uça – uça gəlmisən,

Yaylaq gülü, ləçəklərin bəs hanı?..

Köçəri bir anda hamını gözdən keçirdi. Gülgəzi görmədi. O, qapını geniş açıb bir addım irəlilədi. Plaşının sonuncu düyməsini açdı.Köhnə kostyumu göründü.

Sinifdəkilərin hamısı onu başdan – ayağa süzdü.

-Gülgəz gəlməyib?

Köçəri arxada küncə yaxın oturmuş Gülgəzi gördü.

- Bir dəyqə bayıra çıx! Plaşını da götür!

Gülgəz dəhlizə çıxdı. Köçəri ona yaxınlaşıb hirsli – “qoluma gir” - dedi.

-Nə olub Köçəri?!

-Heç nə, gir qoluma!

Gülgəz bir şey anlamasa da , qorxudan Köçərinin qoluna girdi. Köçəri tələsmədən, heç kimin üzünə baxmadan, bir kəsi saymadan musiqi məktəbinin dəhlizini beləcə gəzdi.

Onlar bayıra çıxanda Köçərinin gözü aralıda Qəzənfərə sataşdı. O, maşını hələ də yuyurdu.

Köçəri o biri yana buruldu.Gülgəz qorxa – qorxa hey soruşurdu:

-Niyə dinmirsən, ürəyimi üzürsən, nə olub axı?

-Heç nə. Çoxdandır yağışlı havada gəzmirik...

Avtomat telefonun yanına çatanda o, əlini cibinə salıb, qəpiklərini çıxarıb baxdı.

-İki köpüklüyün varmı?

-Var.
Köçəri qəpiyi salıb nömrəni yığa – yığa saatına baxdı. Yenicə beşə işləyirdi. Bildi ki, iş yoldaşları çıxıb gediblər.O, nömrənin qalanını da yığdı. Avtomat qəpiyi uddu. Köçəri redaktorun səsini eşitdi.

-Alo...Alo!?

Köçəri gözlənilməz səsdən bir an özünü itirdi.

-Mənəm, Gündüz müəllim. Köçəridi!

-Hə eşidirəm.

-Uşaqlara deyin gəlib kağızılara yiyə dursunlar, maşın musiqi məktəbinin yanındadı.
-Bəs sən nə eləyirsən, hardan zəng edirsən?

-Mən kabab yeməyə gedirəm...

Köçəri dəstəyi asdı. Gülgəz avtomat telefonun yanında donub qalmışdı. Yağış güclənmişdi. Onlar dayanacağa tələsirdilər. Birdən Köçəri dayandı. Kafeni göstərib dedi:

-Tezdənnən acam, gəl adama bir buterbrod yeyək.

Onlar kafeyə girdilər. Ayrıldılar. Gülgəz kofe, Köçəri buterbrod almaq üçün sıraya dayandılar.

## ŞAİRİN ŞEYTAN ÜZÜ

Bir Allah bilir ki, iki damcı göz yaşını sıxıb çıxaranacan Əmirquluya anlar, dəqiqələr necə darıxdırıcı, necə uzun göründü, bu uzun vaxtda o nə qədər həyəcan, nə qədər xəcalət hissi keçirdi.

Axı cavan yaşında dünyadan köçmüş mərhumun yasında qohum-qardaş bir yana, yadlar da ağlayırdı.

Təkcə Əmirqulunun gözündən bir gilə yaş çıxmırdı ki, çıxmırdı. Qohumların, tanışların hamısı Əmirqulunu mərhumun ən yaxını, doğması bilirdilər.

Tabut evlərindən qaldırılıb üçüncü qatdan aşağı endiriləndə, həyətdə qonum-qonşular son dəfə onunla vidalaşanda qarma-qarışıqlıq olduğundan Əmirqulu ağlaya bilmədiyinə o qədər narahat olmadı.

Ancaq məzarın başında cənazə qəbirə endiriləndə tanıdığı və tanımadığı adamların gözündən, yanağından axan yaşı görəndə sıxıldı, xəcalət çəkdi. Əlindəki yaylıqla qupquru gözlərini, burnunu sildi, özünü ağlayan kimi göstərdiyinə görə özünə acığı tutdu.

Bu an tanımadığı bir adamın ucadan zil, ətürpəşdirici səslə çağırdığı qədim bir bayatının - «Bu dağlar ulu dağlar, çeşməli, sulu dağlar» iki misrasını eşidəndə Əmirqulunun illərdən bəri qurumuş gözləri doluxsundu.

Bayatının «burda bir qərib ölüb, göy kişnər, bulud ağlar» son iki misrasını eşidəndə Əmirqulu doluxsunmuş gözlərindəki yaşın dalısının gəlməyəcəyindən, elə gözündəcə quruyub yox olmasından qorxduğu üçün kirpiklərini bir neçə dəfə bərk-bərk sıxdı və iki damla yaşın gözlərinin qırağından üzülüb yavaş-yavaş aşağı axdığını hiss elədi və hiss etdikcə bu vay-şivənin, müsibətin ortasında

Əmirqulunun içindən günəş zərrəsindən də incə bir sevinc keçdi.

Qeybdən gələn, təbərrik kimi əziz olan yanağındakı bu iki damlanı hərdənbir əsən yelin alıb aparacağından, günəşin qurudacağından, ayaqlarını götürüb qoyarkən düşəcəyindən ehtiyat elədi.

Ancaq Əmirqulunun ağlamağının nə mərhuma dəxli varıydı, nə neçə yüz il, min il yaşı olan qəm, kədərlə yüklənmiş qədim bayatıya, nə də on beş il, bəlkə də iyirmi il qabaq ölmüş Zərif xalasına.

Elə o vaxt da Əmirqulu anası qədər istədiyi Zərif xalasının üstündə ağlaya bilmədiyindən utanıb yerə girir, özünü dünyanın ən pis, yaramaz bir uşağı sanırdı.

O vaxt anası gözlənilmədən titrək, həzin səslə bu bayatını oxuyanda Əmirqulunun gözləri bulaq kimi açılmış, sonra hıçqırmağa başlamış, az sonra qadınlardan biri onun qolundan tutub darta-darta cənazənin yanından uzaqlaşdırmışdı.

Illər ötəndən sonra Əmirqulu anlamışdı ki, o vaxt axıtdığı göz yaşları da istəkli xalasına görə yox, anasının məlahətli, zərif, yanıqlı səsinə görəymiş.

Otuz yaşında, böyük bir qəzetin məsul katibi olan Əmirqulu yaxşı bilirdi ki, gözündən üzülüb aşağı axan iki damla yaş o vaxt xalasının yasında yarımçıq qalmış ağlamağının davamıydı.

Əmirqulu yaylığıyla göz yaşlarını silmək istədi, ancaq onun ağladağını hələ mərhumun doğmalarından, qonum-qonşularından, öz iş yoldaşlarından heç birinin görmədiyini düşündüyündən ancaq burnunu, alnını, boyun-boğazını sildi. Başını yuxarı qaldıranda gözləri azca ondan aralı sağında dayanmış bir ucaboy kişiyə sataşdı.

Əl dəsmalını daz başına sərmişdi. Yandan baxanda çılpaq bədəninə suvaşıb dartılmış qara maykavari köynəyinin altında sinəsindən başlayaraq qurşağacan uzanan şişman, piyli qarnı ətli, nəhəng bir burunu xatırladırdı. Əmirqulu ömründə bu formada, bu biçimdə qarın görməmişdi.

Elə bil ətli buruna bənzər o nəhəng qarın Əmirqulunun gözündən bulaq kimi yenicə axmağa başlayan çeşmənin gözünü tutdu. O iki damla yaş yanaqlarının almacığında dayandı. Əmirqulu əcayib qarının şərəfsiz yiyəsinə nifrət elədi.

Gözü iş yoldaşlarından birinə - şairə sataşdı. Şairin qalın, pırpız qaşları altında oyur-oyur oynayan, iri ala gözlərinin ona tuşlandığını görəndə çaşdı. Şairin narahat gözləri pusquda dayanıb sərçənin üstünə atılmağa hazırlaşan əsəbi pişik kimi

Əmirqulunu marıtlamışdı.

Əmirqulu ona tanış olan bu qeyri-adi baxışları soyuqqanlı qarşılaya bilmədi və bu xətakar şairin onu çoxdan izlədiyinə əmin oldu, özündən asılı olmayaraq tələm-tələsik dəsmalını aparıb qabaqca yanağındakı o iki damla yaşı, sonra alnını, boyun-boğazını sildi və daha şairə baxmadı. «Göz yaşlarımı qəsdən silmədiyimi duyub, saxtakarlığıma görə haçansa məni dolayacaq» - düşündü.

Əmirqulu ilə şairdən başqa dəfn mərasiminə redaksiyadan üç nəfər də gəlmişdi. Hər dəfə hüzr yerindən qayıdandan sonra redaksiya işçiləri (onlardan biri artıq sıralarından getmişdi) dərddən, qəmdən, onları sıxan gərginlikdən qurtarmaq, azca yüngülləşmək üçün bir qayda olaraq yeməkxanalardan, kafelərdən birinə girib aralarından gedən mərhumun ruhunu xristiansayağı şad eləməliydilər. Bu dəfə şair nə qədər işarə eləsə də neçə ildən bəri davam edən ənənə baş tutmadı. Şairlə Əmirquludan başqa işə qayıdan da olmadı.

Sabah mətbəə günüydü. Tərslikdən Əmirqulu maket işinin çoxunu bu günə saxlamışdı. Baş məqalənin içində gedən şəkillər gəlib çıxmadığından birinci və ikinci səhifənin maketi tutulmamışdı. O tələsik gəlib enli maket masasının arxasında əyləşib siyirməni çəkəndə qapı açıldı, baş redaktor ayağının birini içəri qoyub:

- Sənə demədim işini qurtar, sonra get? Hüzr yeri qaçırdı? Bu məsuliyyətlə səninlə işləmək mümkün deyil, hamı özbaşına olub, vallah!..

Əmirqulu günahkarcasına nəsə demək istəyəndə baş redaktor onun üzündəki incikliyi oxuduğundan səsinə azca yumşaqlıq qatdı:

- Vaxt yoxdu, tez ol. Maketi qurtar, gətir yanıma. Mən də hüzr yerinə getməliyəm. Deyirlər, ona lap yaxın sənsən, nə olar, bir də gedərsən mənimlə, - deyib tələsik qapını örtdü.

Əmirqulu redaktorla yenidən hüzr yerinə gedəcəyinə, onunla maşından birgə düşəcəyinə sevindi. Maket səhifələrini, dəmir xətkeşi, karandaşı, pozanı siyirtmədən çıxarıb masanın üstünə yığdı.

Baş məqaləni gözdən keçirəndə qanı qaraldı. Yeni işə götürmüş makinaçı qızın yazdığı səhifələrdə ölçü pozulduğundan vərəqlərdəki sətirləri, işarələri bir-bir sayıb hesablamalıydı.

O, birinci vərəqdə olan sətirləri yarıyacan saydı, karandaşın ucunu sətirin üstünə qoyub saatına baxdı, beşin yarısıydı. Əmirqulu saat dörddə evlərində olmalıydı,

arvadıyla onun Mərdəkanda yaşayan xalası qızıgilə getməliydi. Əlini telefona uzatmaq istəyəndə zəng çalındı, dəstəyi qaldırıb, «bəli» deyəndə arvadının əsəbi, hikkəylə dolu səsi onun qulağını deşdi, dəstəyi qulağından aralı saxladı.

- Əmirqulu, sən hələ ordasan?! Nə işlə məşğulsan?

- Sara, Nadir rəhmətə etdi, ordan gəlirik, indicə qapını açıb içəri girmişəm.

- Bəs niyə evə gəlmədin? Axı bizi gözlüyürlər!

- Sara, sabah qəzet günüdür, maket tuturam, baş redaktor indicə…

- Sən yalançısan! Sən məni həmişə aldadırsan!..

- Sara…

- Üç dəfədir onları aldadırıq ki, gəlirik, xəstəxanada yatanda yanına gedəmmədik… - onu hıçqırıq tutdu.

- Sara…

- Üç dəfədi onlar hazırlıq görüb gözləyirlər, bizə zəqqun düzəldirlər! Sənin mənə hörmətin yoxdu! Məni küçə qadını kimi aldadırsan! Daha sənə inanmıram!

- Sara, Sara, and olsun Allaha, səhər tezdənnən…

- Məni daha görməyəcəksən, Əmirqulu!..

- Sara…

Xətt kəsildi. Əmirqulu dönə-dönə evlərinin telefonunu yığdı, dəstəyi götürən olmadı.

Qapı açıldı, buyruqçu şəkilləri gətirib Əmirqulunun qabağına qoydu, dinməz-söyləməz qayıdıb gedəndə Əmirqulu şəkillərə baxa-baxa - hamısı budur? – soruşdu. Buyruqçu geri çevrilmədən çiyinlərini çəkib çıxıb getdi…

Əmirqulu baş məqalənin ikinci səhifəsinin sətirlərini yenicə saymağa başlayanda qapı açıldı. O, başını yuxarı qaldırmadan tez karandaş götürüb üstündə dayandığı sətirin qırağına quş qoydu. Şair yaxına gəldi, stulu çəkib onunla üzbəüz əyləşdi. Əmirqulunun ciddi işlədiyini görüb bir an susdu, dərindən bir ah çəkdi, kövrək və titrək səslə:

- Əmirqulu… - dedi. Əmirqulu başını qaldırıb ona baxdı. Şairin üzündə yazıqlıq, həm də bir kədər vardı, başı azca sağ çiyninə sarı əyilmişdi. Bir dəfə dəfndən qayıdıb ölənin ruhunu yad edərkən şairin əlində qədəh qəhərlənə-qəhərlənə «dostlar, doğmalar aramızdan gedəndə nədənsə özümü günahkar bilirəm» - dediyi sözlər yadına düşdü. Şair ağır-ağır başını tərpədib qəmli-qəmli:

- Nadir də belə getdi… - deyəndə Əmirqulu doluxsundu, dönə-dönə dişlərini bir-birinə sıxdı, əlindəki titrəyən vərəqi masanın üstünə qoydu.

- Kimin ağlına gələrdi… - deyib qəbiristanlıqdakı səhvini düzəldirmiş kimi dərhal baş və şəhadət barmağıyla yaşarmış gözlərini sağıdı. Şair bir də dərindən köks ötürüb ayağa qalxıb getdi.

Əmirqulu evlərinə zəng edib dəstəyi çiynində saxlayaraq dinləyə-dinləyə üçüncü səhifədəki sətirləri, işarələri saymağa başladı. Telefonda beləcə xeyli gözləsə də dəstəyi qaldıran olmadı.

«Birdən Sara…» - ağlına qara- qorxulu fikirlər gəldi. Dəstəyi yerinə qoydu. Baş məqalədə gedən şəklin arxasında «natur» sözünü yazıb karandaşla dairəyə aldı. Məqalənin son sətirlərini hesablayanda qapı açıldı.

Əmirqulu başını qaldırıb baxmasa da, gələnin yenə də şair olduğunu bildi. Səssizcə gəlib bayaqkı yerdə oturdu. Bir an Əmirqulunun sətirləri sayıb, işarələri hesablayarkən tərpənən dodaqlarını, ciddi və əsəbi görkəmini, əlində titrəyə-titrəyə vərəqə toxunmadan gəzişən karandaşını gözdən keçirdi. – Eh… - deyə yenə dərindən ah çəkdi.

- Əmirqulu… Rəhmətlik… Vallah, adamın inanmağı gəlmir, rəhmətlik deməyə adamın dili də gəlmir. Bilirsən, səni necə istəyirdi, indi istəməsin…
Əmirqulu başını qaldırdı, əlindəki karandaşın arxasını üzünə dayadı, kədərli-kədərli şairə baxdı. Şair başını bulaya-bulaya: - Öz putyovkasını sənə Verdi, yadındamı? Letuçkada səni necə müdafiə edirdi! Onun yanında bir köpəyoğlu sənin dalınca danışa bilməzdi…

- Hamımızdan getdi. – Əmirqulu təəssüflə başını bulaya-bulaya bunları dedi. Ancaq ona elə gəldi ki, beləcə qısa və quru deməyinə görə rəhmətliyin ruhu ondan incidi. Öz toyunu xatırladı. Iyirmi beş işçisi olan redaksiyadan ucqar rayonun ucqar kəndinə Əmirqulunun toyuna təkcə rəhmətlik gəlmişdi. Nabələd olduğundan yolu azmış, qaranlıq düşəndə körpü əvəzinə çayın bu tayından o tayına uzadılmış ağacın üstüylə yeriyəndə ayağı sürüşüb suya düşmüşdü. Yolda sərhədçi əsgərlərlə qarşılaşanda nabələd adam olduğunu görüb tutub aparmış, bomboş otağa salıb

qapısını bağlamışdılar. Bir payız gecəsi səhər açılanacan islanmış şalvarın içində dişləri bir-birinə dəyə-dəyə qalmışdı. Səhərisi özünü kəndə çatdırmış, qızdırma içində olsa da, xəstələndiyini toy qurtaranacan gizlətmişdi.

Söhbətin uzanacağından, şairin yerini bərkidəcəyindən ehtiyat elədiyindən, Əmirqulu ona çox əziz və həm də bu an çox qəmli görünən həmin xatirəni açıb-ağartmadı. Sadəcə: - Içimizdə ən sədaqətli, etibarlı, ədalətli adamıydı - dedi.

- Allahın işindən, qurban olum ona, heç kim baş açmır, - dedi şair. Əmirqulunun başını aşağı salıb işiylə məşğul olduğunu görüb ayağa qalxdı. – Sən məşğulsan, işində ol – deyib otaqdan çıxdı. Dabanı üstəcə qayıdıb qapının ağzında dayandı. – Əmirqulu, üçünü, cümələrini verəcəklər? - soruşdu. Bu dəfə Əmirqulu cavab vermədi, şair azca dayanandan sonra qapını çəkib örtdü.

Əmirqulu qalxıb qapını arxadan bağlamaq istədi. Baş redaktorun, buyruqçunun, yaxud elə şairin yenidən gələ biləcəyini ağlına gətirəndə fikrindən daşındı. «Qapını açmayınca şair əl çəkən deyil, gedib gəlmək, vaxt itirmək özümə qalacaq» düşündü.

Birinci səhifənin maket işi qurtardı, Əmirqulu dərindən nəfəs aldı, ayağa qalxıb gərnəşdi, telefon dəstəyini götürüb yenə evlərinə zəng etdi. Cavab gəlmədiyindən əyləşib ikinci səhifəni başlamaq istəyəndə şair yenə içəri girdi. Əmirqulu vaxtın azlığını bildirmək üçün başını səhifənin üstündən qaldırmadı. Şair yaxınlaşıb onun başı üstündə dayandı. - Hələ qurtarmırsan? - soruşdu. Əmirqulu yenə susdu. Şairin çevirdiyi təsbehin şaqqıltısı onun hövsələsini daraltdı, elə bil bunu duyduğundan şair təsbehini masanın üstünə qoydu.

- Əmirqulu, ürəyimdə bir ağırlıq var, nəfəs alammıram. Birdən siyirtməndə siqaret olar?

Bilirdi ki, şair siqaretdən sonra kibrit də istəyəcək. Siyirtmədən siqaret, kibrit axtarıb ona verməyə, sonra onları alıb yenidən yerinə qoymağa Əmirqulunun hövsələsi çatmadığından hirsini udub sakitcə başını tərpətməklə siqareti olmadığını bildirdi.

Şair təsbehini götürüb əsəbi-əsəbi yenə çevirməyə başladı, ayağa qalxdı, yenidən oturdu, tələsik və həyəcanla:

- Ə, bəs nekroloq?! Kim yazacaq?! Gərək özün yazaydın! Sən ürəkdən, səmimi yazardın…

Əmirqulu gördü ki, sussa da şair əl çəkmir. - Görmürsən başımı qaşımağa vaxtım

yoxdu. Oturub yazaydın da, gələn nömrəyə də mən yazardım.

- Tanışlar qəzetimizə baxacaq, axtaracaqlar ki, nə yazmışıq. Atüstü mən yaza bilmərəm. Sağlıq olsun, gələn nömrəyəcək bir şey fikirləşərik.
Şair ayağını ayağının üstünə aşırdı. - Biabırçılıq olar e, heç olmasa quruca başsağlığı verilməlidi… - dedi.

Əmirqulu yenə susdu. Fotoşəkillərdən birini götürüb arxasında karandaşla ölçüsünü yazdı, maketdə ona yer ayırdı. - Zəhrimara qalasan - deyib pozanı götürüb yazdıqlarını əsəbi-əsəbi pozdu. Şair həzin səslə:

- Əmirqulu, deyəsən yoldaşı da işləmir? - soruşdu. Əmirqulu alt dodağını dişləyib başını tərpətdi. Şair onun bu hərəkətindən bir şey anlamadı.

- Bəs o, körpə uşaqları necə böyüdəcək? Gərək ki, rəhmətliyin bacısından başqa elə bir yaxın adamı yoxdu, eləmi?

Daxili telefon səsləndi, Əmirqulu diksinərək dərhal dəstəyi götürdü. Baş redaktorun səsi otağa yayıldı.

- Əmirqulu, qurtardın?

- Sonuncu səhifəni başlamışam…

- Vallah, hamınız əhli-kefsiniz. Sən orda nəynən məşğulsan? Belə də işləmək olar?
Bilirsən ki, mən səni gözləyirəm!? Işləmək istəmirsən, açıqca de, biz də bilək də…
Şair sakitcə otaqdan çıxdı. Əmirqulu qanı qaralmış halda evlərinə yenə zəng elədi, dəstəyi götürən olmadı. Qaynatasıgilin nömrəsini yığdı, tərslikdən oradan da səs-səmir çıxmadı. O, ayağa qalxmaq istəyəndə telefon səsləndi, dərhal dəstəyi götürdü, qalın kişi səsi: - Adə, adam ol da! Dəstəyi qoy yerə, avara!.. - dedi. Xət kəsildi.

Son səhifənin maketləşməsi yarıya çatanda şair tələsik içəri girdi, telefona yaxnlaşıb: - Otağın qapısını bağladım, təzədən açmaq istəmirəm, bir yerə zəng eləməliyəm - dedi, ayaqüstə bir neçə dəfə nömrəni yığdı, sonra stulu çəkib əyləşdi, nə qədər əlləşsə də danışa bilmədi. - Adam infarkt olar, ə… - dedi, araya sükut çökdü. Şair həzin bir səslə:

- Əmirqulu?..

Şair bu dəfə daha da astadan, sanki bir az da günahkarcasına yenə onu səslədi.

Əmirqulu bu dəfə başını qaldırıb qanlı-qanlı şairin gözünə baxdı. Şair bir an gözlərini ondan yayındırdı, sonra yenidən yazıq-yazıq ona baxdı, son dərəcə kədərli səslə:

- Daha Nadiri heç vaxt görməyəcəyik. Nadir öldü axı…

Əmirqulu əlindəki xətkeşi masanın üstünə çırpdı.

- Ə, ölənin də gorunu… Qalanın da var-yoxunu!.. - dedi, qabağındakı vərəqləri vurub yerə dağıtdı. - Ə, bəsdirin, əl çəkin də mənnən. Insafınız, mürvətiniz olsun! Nə veriblər, mənnən alammırlar günü qara gəlmişlər?!

Şair sakitcə durub getdi. Əmirqulu qapını çırpıb arxadan bağladı. Qayıdıb əlləri əsə-əsə yerə dağılmış vərəqləri yığmağa başladı.

**19-20 iyul 1997**

## QƏMƏRLİDƏN KEÇƏN QATAR

*(Hadisə Ermənistan zəlzələsindən on iki il öncə olub)*

O PAYIZ düzü-dünyanı soğan başına götürmüşdü.

Zəmilərin qırağından, avtobus dayanacaqlarının, vağzalların yanından ötəndə qalaq-qalaq yığılıb tığlanmış qızılı, sarı soğan adamın üzünə gülür, aralanıb gedəndən sonra uzun müddət xışıltısı eşidilirdi.

Onlar rayona çatıb, balaca avtobusdan düşüb iri pəncərələri, işıqlı, yumşaq, rahat oturacaqlı və hündür söykənəcəkləri təmiz örtüklü təptəzə "İkarus"a mindilər. Ağəli pəncərələrin pərdələrini çəkib tam açdı, oturduqları yer daha da işıqlandı.

Qabaqda Ağəlinin qadınıyla beş yaşlı qızıydı. Onların arxasında atasıyla özüydü.

Hər şey gözəl idi. Yan-yörəsindəki qız-gəlinə maraq göstərmədən arvadının kənddən rayonacan dinməzcə oturub bütün yolboyu pəncərədən bir çiyniüstə

bayıra baxması da, qızının xurmayı saçına bağlanmış qıraqları zərli su kimi şəffaf bantı da, avtobusun işıqlı və rahatlığı da Ağəlinin ürəyincə idi. “Kaş avtobus birbaşa Mığrıya gedəydi”-fikrindən keçdi.

Ancaq Ağəlini lap çox sevindirən, tox saxlayan atasıydı. Bir ay qabaq xəstə atasını qucağına alıb avtomaşına, sonra qatara mindirmiş, müəllim işlədiyi uzaq rayonun ucqar bir kəndinə gətirmişdi.

Bu ucqar kəndin yaxınlığındakı sanatoriyada atası vannalar qəbul etmişdi. Iyirmi gün ərzində hər gün qadınıyla, qızıyla ona baş çəkmişdi. Atasına oyma naxışlı əl ağacı almışdı. Sumağı Qaragül dərisindən yaraşıqlı buxara papaq tikdirmişdi.

Qabaqcadan söz verdiyi kimi sanatoriyadakı məşhur diş həkiminə beş qızıl diş saldırmışdı. Ən başlıcası o idi ki, atasının ayaqları açılmışdı, kiminsə köməyinə ehtiyacı olmadan əl ağacına söykənə-söykənə, yavaş-yavaş yeriyirdi. Ağəlinini ürəyi evlərinə sarı uçunurdu. Maşından düşcək qabaqca özü gedib atasının gəldiyini xəbər verəcəkdi. Anası eyvana çıxıb görəcəkdi ki, əri qoz ağacından olan 30-40 metrlik yolu bir kəsin köməyi olmadan özü ağır-ağır gəlir. Həmin gün bütün kənd tökülüşüb görüşə gələcəkdi.

Enli, asfalt yolun qırağınca sıralanmış ərik ağaclarının yarpaqları qızılıya çalırdı. Sürücü avtobusu dayanacaqların birində saxladı.

Ipək pərdənin bağı açıldığından sürüşüb pəncərənin yarısını örtmüşdü. Qoca çəliyinin ucuyla pərdəni çəkib açmaq istəyirdi, pərdə sürüşüb yenidən pəncərənin yarısını örtürdü. Ağəli qadınını dümsüklədi, qadını geri dönəndə eyhamla atasını göstərdi və eyni vaxtda - Baba, nə eləyirsən? – soruşdu. Ağəlinin qadınının dodağı qaçdı, tez qabağa baxdı. Qoca heç nəyə əhəmiyyət vermədən inadla pərdəni açmaq istəyirdi. O, gülümsündü, öz-özüylə danışırmış kimi – Soğana bax ee... – dedi.

Ağəli bayıra baxdı, sarı soğan təpəciyi arxada qaldı, sonra çevrilib gözünün qırağıyla atasının son vaxtlar durulmağa başlayan gülümsər üzünü, dodaqlarının arasından işaran qızıl dişlərini, siqaretdən saralmış çal bığlarını və ona çox yaraşan sumağı rəngli papağını gözdən keçirdi. “Görəsən soğan görəndə kefi niyə belə durulur?”

Birdən uşaqlıq illərinin bir günü, səsi, qoxusu aydın mənzərəsi ilə Ağəlinin gözü önündə canlandı. Çevrilib atasına bir də baxdı. Qocanın üzündə bir şəfəq kimi oynayan sevincin, yüngüllüyün, xoş ovqatın uzun-uzun illər öncə həmin sentyabr günündən düşdüyünə şübhəsi qalmadı.

O vaxt atası kolxoz sədriydi. Ağəli üçüncü sinifdə oxuyurdu. Yan-yörəsi qalın

pöhrələnmiş qoz ağacının iri gövdəsindən kəsik yerində ayaqüstə dayanmışdı. Yarpaqları aralayıb qarşıdakı dağlara, dağların dibindən ilan kimi qıvrılıb axan Mığrı çayına, rayondan kəndə uzanan torpaq yola baxa-baxa cibinə yığdığı alasütül zoğallardan çıxarıb yeyir, çəyirdəklərini iki barmağının arasında basıb uzağa sıçradırdı.

Azca aralıda pilləkən kimi üst-üstə olan iri soğan zəmiləri burdan əl içi kimi görünürdü. O sentyabr günü məktəb uşaqları da soğanlıqdaydı. Güllü, al-əlvan geyinmiş məktəbli qızlar kəpənək kimi gövşəndə, zəmilərdə dolaşırdılar. Mahnı oxuyan qızların, qışqırıb fit çalan oğlanların səsi gövşəni bürümüşdü. Çıxarılan soğan zənbil-zənbil, səbət-səbət zəmilərin qırağına daşınır, orada kəsilib arıdlanır, günavar yerə yığılırdı.

Günortaydı. Ağəli qabaqca ona sarı yaxınlaşan, hardansa uzaqlardan gəlib onların məktəbində işləyən Zülfiyyə müəllimi gördü. Iri yumru soğanlardan olan hörgünü əlində sallada-sallada gəlirdi. O, bir an diksinib duruxan kimi oldu. Ağəli qarşı tərəfə baxanda tutluqdan qəfil çıxıb gələn atasıını gördü.

Ağəlinin ürəyi tez-tez döyünməyə başladı. Aralıdığı budağın balaca qanadını yavaşca buraxıb üzünü gizlətmək istədi. Ürəyində Allaha yalvardı ki, atası Zülfiyyə müəllimin üstünə qışqırmasın, əlindəki o hörgü soğandan ötrü onu danlamasın. Zülfiyyə müəllim bircə saat Ağəligilin sinfində dərs demişdi. Elə həmin saat Ağəli bilmişdi ki, Zülfiyyə müəllim onlara dərs deyən, il boyu döşlərindən süd axan sinif müəllimindən də, məktəbin bütün qızlarındandan da, qadın müəllimlərindən də, klubda işləyən və kəndin gözəli sayılan Səmayədən də qəşəngdir.

Ağəliyə görə onun atası kolxozda işləyən bütün qadınlara çığıra bilərdi, məktəbin bütün qadın müəllimlərini danlaya bilərdi, təkcə Zülfiyyə müəllimdən başqa.

Zülfiyyə müəllimin boyu-buxunu da, geyimi, yerişi də bu kənddə heç kimə bənzəmirdi. Qadınlardan tər, turşumuş süd iysi gəlirdi, onlar bəzən qaş-qabaqlı olurdu, üz-gözlərini turşudurdu, acıqlı-acıqlı danışır, hirslənib qışqırırdılar. Ancaq Zülfiyyə müəllimdən gözəl qoxu gəlirdi, mehriban idi, həmişə gülümsünə-gülümsünə danışardı, səsi məxmər kimi yumşaq idi, yumşaq ağ əlləri ilə balaca Ağəlinin saçlarını tumarlamışdı...

Atası Zülfiyyə müəllimin salamını aldı astadan: - Sizə olar, -söylədi.

Ağəli ehmalca yarpağı araladı. Zülfiyyə müəllim atasından iki addım aralıdaydı. Yerə baxırdı, hərdən bir başını qaldırıb utana-utana, gülə-gülə nəsə deyir, əlindəki soğan hörüyünü yellədib qıçlarına toxundururdu. Atasının üzü Ağəliyə sarıydı. –

Deyərəm axşam bir kisə gətirərlər. Nə lazım olsa...

Zəminin o başından kolxozçular göründü. Atası tələsik: - Utanıb eləmək lazım deyil... – deyib aralandı.

Həmin sentyabr günü Ağəlinin yadında bircə şey qaldı. O, atasının heç bir zaman, hətta evlərində anasıyla da belə mehriban, belə doğma, xoşsifət və yumşaq səslə danışdığını görməmişdi.

Hər şey gözəl idi, ancaq Ağəlini ertədən bircə şey narahat edirdi. Qorxurdu ki, "Yerevan-Bakı" qatarına bilet olmasın. Onu ikinci qatarın rayonlarına nə gecəyarısı çatması, nə də vağzaldan maşən tapıb kəndlərinə getmələri qorxudurdu. O, "Yerevan-Qafan" qatarında nadinc uşaqlara rast gəlməklərindən ehtiyat edirdi. Bu narahatlıq küt diş ağrısı kimi ondan əl çəkmirdi.

Vağzalın binasına gircək Ağəli bilet kassalarının qabağından ötüb sol tərəfdəki gözləmə zalının qapısına sarı getdi. Qadınıyla qızı dabanqırma onun arxasınca irəliləyirdi. Qapıya çatanda çiyniüstə çevrilib arxaya baxdı. Atası əks tərəfdəki sağ qapıya yaxınlaşırdı. Ağəli-Baba! Baba! –deyə çağırdı. Atası çevrilib baxsa da dayanmadı. Ağəli doğma dildə başqalarının diqqətini çəkəcəyindən ehtiyat edib başıyla "bu yana gəl" işarəsi verdi. Qoca əlini yelləyib nəsə dedi, restorana sarı getdi.

Tezdənnən bəri özünün də xəbəri olmadan Ağəlinin küt diş ağrısına bənzəyən o narahatçılığına səbəb həm də sağ tərəfdəki gözləmə zalının xofuydu.

Ağəli on dörd yaşında olanda əmisinə qoşulub Yerevanda kolxoz sədrlərinin təkmilləşdirmə kursunda oxuyan atasının yanına gəlmişdi.

Bir neçə gündən sonra geri qayıdanda atası onu həmin restoranın yanında gözləmə zalında mığrılı bir tanış qadına tapşırdı, qatarın tərpənməsini gözləmədən çıxıb getdi. Mığrılı qadın onu bağlamaların yanında qoyub harasa yollandı. Azca sonra restoranın qapısı şaqqıltıyla açıldı. Hay-küy qopdu.

Cavanlar itələşə-itələşə, dartına-dartına restorandan gözləmə zalına doluşdular. Vurhavur, tuthatut, qaçhaqaç başlandı. Kim-kimə tərəf idi, kim-kimə düşmən idi bilinmirdi. Gözləri qızmış cavanlar bəzən çaşıb özünküləri yumruqlayır, təpikləyirdilər.

Yaxası cırılmış, burnu qanamış, zərbələrdən sifəti qızarmış oğlanlar geniş zalın bir yanından o biri yanına burulğan kimi keçirdilər. Qatarı gözləyənlərin bəziləri qaçıb çölə çıxdı, bəziləri qat-qarışığa düşüb döyüldü, bəziləri əlləri ilə başını tutub

divara, küncə qısılıb qaldı.

Qəribəsi bu idi ki, bu dava-dalaşda şapalaq, yumruq səsindən, ayaq şappıltısından başqa bir qışqırtı, bir cınqırtı eşidilmirdi.

Elə bil televizorda lal kadrlar göstərilirdi. Kiminin papağı, kiminin ayaqqabısı göydə uçurdu. Balaca Ağəli gözləmə zalının qapısına doğru addımlayıb çölə sivişmək istəyəndə şıdırğı döyüş burulğanından dörd nəfər ayrıldı, dalaşa-dalaşa ona sarı yaxınlaşdı.

Dalaşanlardan birinin pencəyi sıyrılıb başqasının əlində qaldı, pencəksiz oğlan güllə kimi qaçıb qapıdan çıxdı. Ağəli divara qısıldı. əlində bıçaq, limonad şüşəsi tutmuş, yumruğunu yuxarı qaldırmış oğlanlar qaçanın dalınca cumurdular. Gözləri qızmış bu adamlar Ağəlinin yanından keçəndə bir anlıq baxışlarını ona tuşladılar.

Zalın ortasındakı döyüş burulğanı bir neçə yol yerini dəyişdi, gəlib Ağəlinin yanına çatdı. Atılan stəkan ondan azca aralıda divara dəyib çilik-çilik oldu. Ağəli uşaq fəhmiylə anladı ki, qaçsa, azca tərpənib hərəkət etsə, əlləri ilə başını tutub gizlətsə, kimsə onu rəqib tərəfin adamı bilib vurub əzəcək.

Başına dəyən limonad şüşəsindən duruşunu itirən bir oğlan səntirlədi, bir anda onun üzünə, başına, qarnına neçə-neçə yumruq, ayağına, dizinə təpiklər dəydi. Oğlan əlləri ilə başını tutmuş halda yerə sərələndi.

Yıxılandan sonra qarnına dəyən təpikdən ilan kimi qıvrıldı, qeyri-iradi əllərini qarnına sarı apardı. Bu vaxt gözləmə zalının qapısından bir nəfər boylanıb həyəcan içində “”Zek! Zek!” –deyə ucadan qışqırdı. Elə bil hakim zəngi basıb oyunun bitdiyini bildirdi. Dalaşanlar tələsik bayıra çıxmağa başladı.

Bu vaxt ucaboylu, qara köynəkli, qara şalvarlı, ayağında dikdaban, şiş uclu, qara çəkməsi par-par yanan bir oğlan yerdə sərilib qalmış oğlanın açıq sifətinə qapıya top vurmuş kimi güclü bir təpik ilişdirdi. Döyülənin qolu tərpəndi, ancaq əlini üzünə gətirib qoymağa heyi çatmadı. Qara geyimli ayaqlarını taqqıldada-taqqıldada qaliblər kimi qapıya yaxınlaşdı. Özündən razı və kinayə ilə - Vağzal uşağıdı!

Gözlərim aydın! – deyib Ağəliyə baxdı. Tez geri çəkilib əlini onun arxasınca gələn bəstəboy oğlanın kürəyinə toxundurdu. – Ardo, gəl bu yandan çıxaq – deyib restorana sarı tələsdilər.

O vaxtdan sonra neçə illər keçsə də, hər dəfə gəlib bu vağzaldan bilet alanda sağ tərəfdəki gözləmə zalının xofu Ağəlinin canını bürüdüyündən, oraya ayaq basmaq

istəmirdi.

Ağəli atasına çatıb qolundan tutub geri çəkdi. Atası dartınaraq gülümsünə - gülümsünə: - Madnaqaş almaq istəyirəm. Maman o çörəyi çox istəyir, - dedi. Ağəli: - Gecikirik, özüm alaram, - söylədi.

Birinci qatara bilet olmadı. Ancaq ikinci gecə qatarına bir kupenin bütün yerlərini ala bildiyinə görə Ağəli bir az arxayınlaşdı. "Qapını bağlayarıq, bir də düşəndə açarıq" – fikirləşdi. Zənbilləri gözləmə zalında atasına tapşırdı. Ortasından qayışlar bağlanmış iki çamadanı götürdü, nə fikirləşdisə çamadanları yerə qoydu. Atasının kiminləsə söhbətə girişməsini istəmədiyindən zənbilləri aparıb adamlardan uzaqda olan boş skameykaların birinə söykədi. Qayıdıb astadan - Get zənbillərin yanında otur, bu dəyqə gəlirəm – dedi. Çamadanlarını götürüb qadınına başıyla "gəlin" – dedi.

Kupeyə çatcaq çamadanları aralığa qoydu, arvadına - Qapını açmayın, qayıdıb özüm yerləşdirəcəyəm – deyib tələsik bayıra çıxmaq istəyəndə qadını – Qumru tualetə getmək istəyir – söylədi. Ağəli azca hirsləndi. – Bu iki daşın arasında... – söylədi, qızının əlindən tutub eşiyə çəkdi, - Tualet bağlıdır, bir az döz gəlirəm. Qatar tərpəncək açacaqlar – deyib kupenin qapısını çəkib örtdü.

O, uzaqdan vağzalın qapısı önündə çəliyinə dayanıb qərib-qərin vaqonları gözdən keçirən atasını gördü. Görkəmi xoşuna gəldi. "Şərq xalqlarının nümayəndəsi kimi BMT toplantısına göndərmək olar. Gərək qalstuk da alaydım" – fikrindən keçdi. – zənbilləri kimə tapşırıb gəlmisən? Gözlə gəlirəm, doqquzuncu vaqondayıq – deyib gözləmə zalına girdi.

Bağlamaları götürüb bayıra çıxanda atasının birinci vaqona sarı getdiyini gördü. Zənbilləri yerə qoyub atasına sarı tələsdi, yaxınlaşıb qolundan tutdu. – A kişi, mənim başıma nə oyun açırsan? –dedi. Onun qolundan tutub geri çəkdi, ancaq atası ona məhəl qoymadı, qolunu dartıb oğlunun əlindən çıxarmaq istədi. Ağəli qışqırmaq istəyirdi, yan-yörəsindəkilərin diqqətini çəkməkdən ehtiyat etdiyinə görə qışqırammırdı. – Axı hara gedirsən, bizim vaqon daldadı, gəl, qatar tərpənir. Atası özünü sındırmadı, danlayıcı baxışla oğlunu tərs-tərs süzdü. Ağəli bildi ki, atasının qolundan buraxmasa o, inadından dönməyəcək, yerindən tərpənməyəcək.

– Doqquzuncu vaqondayıq, gəl, - deyib geri qayıtdı. Zənbilləri götürüb öz vaqonlarına sarı tələsdi.

Doqquzuncu vaqonun qapısı yanında çoxlu cavan uşaq vardı. Ucadan danışıb-gülürdülər. Ağəli geri çevrildi. Atası gözünə dəymədi. Ağır zənbilin birini götürüb vaqona qalxdı. Yerdəki oğlanlardan biri zənbili götürüb Ağəliyə vermək istədi.

“Vay, necə ağırdı” – deyib ikiəlli götürüb qaldırdı.

Ağəli Yerevan ləhcəsində - Mersi axbercan, şad şnoraqaltsyun (Sağ ol, qardaş, çox təşəkkür edirəm) – dedi, zənbilləri yana çəkib yolu açdı, tamburdaca qoyub tələsik atasının ardınca getdi. Qoca gözləmə zalının qapısının tuşunda çəliyinə söykənib arxayın-arxayın gəlib-gedəni gözdən keçirirdi.

Tələsik keçən adamların bəziləri ani olsa da çevrilib maraqla onu süzürdülər. Ağəli atasına çatıb: - A kişi, qatar tərpənir, nə dayanmısan? – deyib qolundan tutub çəkdi. Atası qolunu dartıb onun əlindən çıxarmaq istədi. –Tələsirsən, atıl min, mənnən işin olmasın...

Ağəli əsəbi və tələsik – Qatar tərpəndi, minə bilməyəcəksən, nə olub sənə, yenə tərsliyin tutub?

Ağəli bu dəfə onun qoluna girib çəkməyə başladı. Qoca yenə inad göstərib dartındı:
- Əşşi, əl götür yaxamdan! – dedi. Ağəli atasının qolunu buraxmadı. – Gəl, özü də danışma, dığalar ələ salacaq bizi...

Atası dartınıb qolunu çəkmək istəsə də, könülsüz-könülsüz gedirdi. – O nə dığadı, dığanın anasını-zadını söyən var?... Ağəli onun qolunu sıxıb – Yaxşı, dinmə, - dedi. Atasının gözəgəlimli, diqqəti cəlb edən papağını başından götürmək istədi.

Ancaq gec idi. Vaqonun ağzına toplaşan uşaqların bəziləri onlara baxırdı. Ortaboylu, qıvrımsaç bir oğlan Ağəlinin atasına işarəylə Qafan ermənisi ləhcəsində: - Ara mi sran yeş! (ara, bir buna bax) – dedi. Artıq sarıyanız oğlan: - İm arev, sa turka (canım üçün bu türkdü).

Vaqonun yanında toplaşan uşaqların hamısı Ağəliyə, onun atasına baxırdılar. Aralarındakı ən ucaboylu Yerevan ləhcəsində: Ara sırank Gendoyi bareqamnerna, Gendo inçes spasum, himi el bitsayin okni, toğ bartsrana (Ara, bunlar Gendonun qohumlarıdı ki, Gendo, nə durmusan, indi də qocaya kömək elə, qoy qalxsın).

Gülüşdülər. Başqa bir oğlan: - Bir bunun papağına bax, deyə bilərsən neçə yumurta tutar? – Yenə gülüşdülər. Ağəli ucadan: - Dğerk! (Uşaqlar!) – deyib əlini gözləmə zalına uzatdı. – Endeğ cartumen mequ-myusin (Uşaqlar, orda bir-birini şil-küt eyləyirlər).

Suallar eşidildi. –Harda? Haçan? Kimləri? Ağəli kömək edib atasını vaqonun birinci pilləsinə qaldırdı, ermənicə: -Şudara, şudara! (tez ol, tez ol!) –deyib atasını tələsdirdi. Yerdəki uşaqlara sarı çevrilib: - Qartsumem meronkı daserin dvetsin

qayarantsinerin (Mən bilən bizimkilər vağzal uşaqlarının dərslərini verdilər). Qoca çevrilib söhbətə qoşulmaq istədi. Ağəli onun geri dönməyinə imkan vermədi. Vaqonun içinə sarı itələdi. Yerdəki uşaqların bir neçəsi gözləmə salonuna doğru götürüldü.

Qatar silkələnib dayandı. Vaqonun dəhlizində heç kim yox idi. Ağəli atasına: - Onlara nə ağız vermək istəyirsən, adam axtarırlar dolamağa, döyməyə. It arısı kimdilər, ilişdilər, əl çəkən deyillər – söylədi.

Kupelərinin qapısını astadan döyüb – Aç, aç – dedi. Qapı açılcaq atasını yavaşca kupeyə itələdi. Geri qayıdıb, zənbilləri götürüb gətirdi. Kupenin qapısını çəkib örtdü. Dərindən nəfəs aldı. Kastyumunu, panamasını çıxartdı, qalstukunu boşaltdı. Zənbilləri, çamadanları yerbəyer elədi. Dönə-dönə - Heç vaxt qapını açmayın, - söylədi. Qızının saçını tumarladı: - Matan, beşcə dəqiqə döz... Hopa, tərpəndi, getdik, iki-üç dəqiqədən sonra açacaqlar...

“Dava-dalaşa” baxmağa gedən bayaqkı oğlanlar gözləmə zalından çıxıb sürət götürüb irəliləyən vaqonlara sarı cumdular. Ağəli pəncərənin pərdəsini çəkib örtdü. – Gedək matan – deyib qızına baxdı, sonra qadınına sarı çevrilib – Yeməyi çıxart, acından birtəhər olduq, - dedi. Yenə qızına: - dur, dur gedək, dedi. Qızı anasına sığınıb nazla başını yellətdi. Anası qızının qulağına nəsə pıçıldadı. Qızı yenə də nazlana-nazlana “istəmirəm” dedi.

Ağəli zənbildən qəzet bükülülərini çıxardıb “masacığın” üstünə qoydu. Qadın astadan: - Göy-göyərti – dedi. Ağəli qəzeti açdı. Iri, dəymiş pomidorlardan birini götürüb: - Baba, buna bir bax, bəh-bəh – dedi. Atası kinli-kinli Ağəlini süzdü, narazılıqla başını tərpətdi. Ağəli pomidoru atasına sarı daha da yaxınlaşdırdı. Atası çəliyini qaldırıb vurmaq istəyəndə: - Ay baba, ağacı qoy qırağa da – deyib çəliyin ortasından yapışıb dartdı, ancaq atası çəliyi buraxmadı – Maşallah, səndə fil gücü var, bura bax hələ! – deyib darta-darta qadınına baxdı, qadını acıqlı-acıqlı - Neynirsən, niyə incidirsən? - söylədi.

Ağəli çəliyi yavaşca buraxdı. Kağızın arasından göy soğan, keşniş, vəzəri, gömgöy xiyar çıxarıb bir-bir göstərib – Bura bax e! – deyib sanki onları iştaha gətirmək istədi. Iri yarpaqlı, yam-yaşıl reyhan dəstəsini götürdü, reyhanın qoxusu kupeni bürüdü, yenə atasına sarı yaxınlaşdırdı,

- Baba, lap mamamın reyhanlarına oxşayır. Kupeni bürübmüş göy xiyarın, keşnişin, reyhanın qoxusundanmı, qadınını xatırladığındanmı, qocanın sifəti yumşaldı, qaşqabağı açıldı. Baxışları süfrəyə dikilib qaldı. Ağəli atasının ovqatındakı dəyişikliyi dərhal duydu. – Bu da duzdu, varam belə səliqəyə, lap mamamın səliqəsidir, - deyib qızardılmış toyuğu götürüb parçaladı. – Bu da pendir.

–Bax bunu göy-göyərtinin yanına qoyanda ayrı cür görünür, adamın iştahı daha da artır...
O, toyuğun qızarmış budunu götürüb atasına uzatdı, qoca gözlərini yumub əlini yellətdi. Bu, "istəmirəm" –deməyi idi. Ancaq Ağəli atasının yumşaldığını bilirdi. –Qoy duz da səpim – deyib ağappaq, narın duzdan bir çimdik götürüb səpdi. Ağəli bilirdi ki, belə vaxtda atasını dilə tuta-tuta, nazıyla oynaya-oynaya yedirtməlidi. Ət parçasını yenə uzatdı, bu dəfə atasının üzünə baxmadı: - Gör heç yadıma düşür, axı mamam həmişə sənə toyuğun sinəsini verir. Eybi yox, ye, indi sinəsindən verəcəm – söylədi. –Yoldaşına sarı çevrilib – Lavaşın yumşaq yerindən, bax o qırmızını ver, - dedi. Qoca könülsüz-könülsüz aldı. Ağəli qızını əzizləyə-əzizləyə: - Matan, sən keç ananın yanına, qoy baba burda otursun.
Ağəli atasının qolundan yapışıb qaldırdı, çəliyini götürüb pəncərənin yanına qoydu.

Qoca ayağa qalxsa da, əlindəki toyuq budunu ağzına yaxınlaşdırdı. Atasının ayaqüstə yeməyinə işarə ilə Ağəli qadınına göz vurdu, qaraqabaq qadınının dodağı qaçdı. Atası oturandan sonra Ağəli toyuğun sinəsini parçalayıb onun qabağına yığdı. -Göy-göyərtidən də ye – deyib doğranmış xiyar dilimini ona uzatdı. Atası aldı. Ağəli – Gətir duz da səpim – dedi. Qoca sözəbaxan uşaq kimi oğlunun hər dediyini yerinə yetirdi.

Qatar stansiyaların birində dayandı. Ağəligilin vaqonuna çoxlu adam mindi. Qalmaqal qopdu. Bələdçinin səsi vaqonu başına götürdü. Kiminsə səsi bələdçinin səsini batırdı. – Erməni deyilsən, qoca kişi yerdə qalmalıdı? Yer tapmasan, sənin yerində yatar!

Qocaya hörmət eləməlisən. Mən ayaq üstə də gedə bilərəm.
Qatar tərpənib sürət götürdü. Ağəli qalmaqalın yatmasını gözlədi. Masanı yığışdırmaqda yoldaşına kömək elədi. Atılmalı şeyləri qəzetə bükdü. Kupenin pəncərəsindən bayıra tulladı. – Havalar soyuyub – dedi, pəncərəni bağlayanda qoca – Qəmərliyə çox var? – soruşdu. Ağəli – Qəmərlini neynirsən? – deyib kostyumunu geydi, qalstukunu düzəltdi. Gedim mələfələri gətirim. Qapını açıq qoymayın – söylədi.

Kupenin qapısını açıb dəhlizə çıxanda azca aralıda dayanmış bayaqkı oğlanlar çevrilib ona baxdı. Ağəli onların üzünə baxmadan ötüb keçmək istədi. Oğlanlardan biri: - Turka eli (türkdü də). Başqa birisi isə: Elə türk olar, ara? – Üçüncü səs: - İstəyirsən mərc gələk. Məşədi ilə gəlirdi, ha, odur də - dedi.

Ağəli eşitməzliyə vurub onların yanından tələsik ötüb getdi. Bələdçinin kupesinin qapısı ağzında üç adam vardı. Ağəli nigaran idi, atasının çölə çıxmasından ehtiyat edirdi.

Ağları alıb geri qayıdana qədər ona uzun bir zaman kimi göründü.
Qoca kupenin ağzında çəliyinə söykənib dayanmışdı. Papağı yana əyilmişdi. Oğlanlara baxıb gülümsünürdü. Nəsə soruşdu, oğlanlardan biri: - Sa şəşə ara, xiya tsitsağum (bu gijdi ara, niyə gülür)? Qoca: - Mer dğən vordeğ qnəts (bizim oğlan hara getdi). Oğlanlardan biri Qafan ləhcəsində:

-Zuqarana ketsal, srpelu (Tualeti təmizləməyə getdi).

Ağəli mələfələri alıb gəlirdi. Oğlanların dediyini eşitdi, ancaq fikir vermədi. Onlardan alçaqboylusu: - Bu dəqiqə, - deyib qocaya yaxınlaşdı, yanından ötəndə ayağı ilə qocanın söykəndiyi çəliyə vurdu. Çəlik qocanın əlindən çıxıb yerə düşdü.

Qoca yıxılanda əllərini pəncərəyə söykədi. Oğlan geri çevrilib: bağışla, - dedi. Çəliyi götürüb qocaya uzatdı, qoca almaq istəyəndə çəliyi pəncərənin önündəki dəstəkdən asdı. Ağəli oğlanların yanından ötəndə onların diqqətini yayındırmaq üçün heç nə olmayıbmış kimi ermənicə: -Uşaqlar, mələfələr qurtarır, gedin alın, - söylədi.

Oğlanlardan biri: - Yerimiz var ki, mələfə alaq, - dedi. Ağəli atasının yanına çatdı, çəliyi dəstəkdən götürdü. Alçaqdan, əmredici tonda:

-Gir içəri, - deyib onu yavaşca kupeyə itələdi. Atası dirəşdi, əlini çəliyə uzadıb: - Bura ver,- dedi. Ağəli səsinin tonunu dəyişmədən: - A kişi, yeri içəri, ağları gətirmişəm, yerləri açaq, yataq, tezdən o başdan durmalıyıq.

Qoca əlini atıb kupenin bayır dəstəyindən yapışdığından Ağəli onu kupeyə apara bilmədi. O, qapının ağzından mələfələri alt yerlərin birinə atıb: - Yerləri aç, - dedi. Oğlanlar qəhqəhə çəkib gülür, rişxənd edir, ağır sözlər deyirdilər. Ağəlinin qulaqları uğuldayır, onların dediklərini sinirə bilmirdi. Oğlanlar görməsin deyə bədəni ilə atasının qapının dəstəyindən bərk-bərk yapışdığı əlinin qarşısını kəsdi, onun barmaqlarını açıb dəstəkdən araladı. Qolundan yapışıb: - Bir hoqqa çıxartmamış əl çəkən deyilsən.

Qocanın fikri erməni uşaqlarındaydı. Oğlunun dediyini anlamayıb: - Hı? – dedi. Ağəli hirsini gizlətməyə çalışdı: - Görmürsən çingənə şeylərdi, adam axtarırlar dolamağa.

Qoca yenə bir şey anlamadı. Oğlunun əlindən yaxasını qurtarmaq istədi, yana çəkilib uşaqlara sarı dartındı. Uşaqlardan biri: - Ara, ona bir bax, molla nə istəyir? Ağəli güclə atasını itələyib kupeyə saldı. Qoca boynunu çölə uzadıb əlini-əlinə vurub uğunub getdi.

Qoca ermənicə: - Bura haradı? Qəmərliyə çatmırıq? – soruşdu, qatarın bu dəqiqə haraya getdiyini bilmək istədi. Oğlanlardan biri: - Zəngilandı! – dedi. Başqa birisi: - İndi sizin üçün bir teatr göstərim, ömrünüzün axırına kimi unutmayasınız. Qocanı yerə düşürəcəyəm...

Son sözləri eşidənədə Ağəlinin bədənindən soyuq bir gizilti keçdi. Atasını kupeyə çəkdi, qapını örtüb arxadan bağladı. Qoca ayaqüstə dayanıb acıqlı-acıqlı oğlunu süzdü. Ağəli əyləşib acı-acı güldü: - Elə bilirsən əl çəkəcəklər, baxarsan bir azdan... başa düşmürəm bu kişini! Deyib arvadına baxdı: - Axı Qəmərli nəyinə lazımdı? – dedi. Qoca dəyərli bir şeyini itirənlər kimi acı-acı: - Ya qismət! Bir də burdan keçəm, ya keçməyəm...

Qapı döyüldü. Ağəli ermənicə: - Kim lazımdı? – soruşdu. Qapı daha bərkdən döyüldü: - Ara, aç da, sizi yeyəcəklər? Aç görüm!

Ağəli ayağa durub qapını açmaq istədi. Geri çəkilib qadınına: - Uzanın mələfəni çəkin başınıza, - dedi. Qadını qızının ayaqqabılarını çıxartdı. Ağəli atasına acıqlandı.
– Ay kişi otur də, niyə ayaqüstə dayanmısan?! – deyib qapını açdı. Ucaboylu oğlan
- Tətələbazın biri tətələbaz. Qoca kişiynən nə işin qalıb, niyə zor işlədirsən. Bizimlə söhbət eləmək istəyir...

Qoca gülə-gülə: - İm dğəsə (oğlumdu) – dedi.

Ağəli:

-Qardaşcan, atamdı, özgə deyil...

- Necə yəni atamdı. Bəyəm sən də türksən? Elə bildim ingilissən?

Kastyum, qalstuk! Haçandan türk şlyapa qoyur?..

Ağəli gərginliyi zarafata çevirmək istədi: -Hardan bildiniz ingilisəm? – soruşdu və gülə-gülə amerikan ləhcəsinə oxşar tərzdə - Pliiz...

Kam inayarispekt tu qest iz qreyt (buyurun içəri keçin, qonağa hörmətimiz böyükdür) – dedi. Ağəliyə görə ingiliscə danışandan sonra oğlan yumşalmalıydı. Ancaq o, bir az da acıqlandı.

-Meymunluq eləmə, - dedi. Oğlanın yan-yörəsindən bir neçə baş göründü.

Ucaboylu oğlan yoldaşlarına baxıb kinayə ilə: - Türkün ədasına bir bax, elə bil bu dəqiqə Londondan gəlib. Uzunboyunlu bir oğlan başını kupeyə uzadıb boynunun damarları şişmiş halda: - Ardo, Ardo bunun anasını, - deyib, başını kupedən çəkib pis sözü dəhlizdə dedi. – Gör neçə boş yer var burda...

Ağəli səsini yumşaldıb gülə-gülə:

- Hamısının yiyəsi var. Biletimiz var, xəstə uşaq aparırıq.

Başqa bir oğlan: - Gözümüz aydın, işə bir bax. “Yerevan-Qafan” qatarında türklər kupedə gedir, bizsə obşi vaqonda bir-birimizin belində...

- Oğlanlardan başqa biri: - Axı bunlar üç nəfərdi...

Ağəli onun sözünü kəsdi: - Xəstə uşaq da var, anasının yanındadı...

Ucaboyunlu oğlan kobutcasına: - İt oğlu! Bəlkə itinizə, pişiyinizə də bir yer zanit eliyəsiz?

Ağəli atasının qolundan tutub qızıyla qadınının uzandığı yerə oturtdu. Oğlanlardan dördü kupeyə girib boş yerdə oturdu. Ikisi də kupenin ağzında dayandı. Qapının yanında oturan oğlan darağını çıxarıb saçını daradı. Onun yanındakı oğlan: - Ver qoca da darasın, - dedi. –Verərəm, ancaq darağı daha cibimə qoyan deyiləm. Ağəli ayağa qalxdı, bir an oğlanların hamısını gözdən keçirdi, sonra qapının ağzındakı oğlanlara baxdı. – Uşaqlar, burda arvad-uşaq var. Gəlin çıxaq eşikdə söhbət edək, - deyib çölə çıxanda qadınının yanında oturan oğlan ayağını uzadıb badalaq verdi. Ağəli büdrəyib əlini dəhlizin pəncərəsinə söykədi.

Geri çevrilib gülə-gülə: - Azca qalmışdı pəncərəyə kəllə vuram, - deyib bələdçi olan kupeyə sarı getdi. Mələfələri alanda sonuncu kupedə rayonlarından bir tanış erməni qadını gözünə dəymişdi. Onu öz kupelərinə çağırmaq istədi. Kupeni açıb ermənicə salam verdi. – Mən də Mığrıdanam, bir dəqiqə, - deyib qadını bayıra çağırdı. Qadın çölə çıxanda - Abdulla Əhmədovun oğluyam, atam da burdadı. Yanımızda qadın da var. Gedək bizim kupeyə. Bura tualetin yanıdır. Ora Sizə də münasib olar, bizə də.

Ağəligilin kupelərinin qarşısında indi üç oğlan dayanmışdı. Atasının çəliyi onların birinin əlindəydi. Ağəli onlara çatanda atası ermənicə kəkəliyə-kəkəliyə: - Mənim gəlinimdi... Uşaq da nəvəmdi... - Ağəli başını kupeyə uzadıb səsini qaldırmadan ancaq hikkəylə: A kişi, qonşun Gülnisədən də danış, - deyib oğlanın əlindəki çəlikdən yapışıb almaq istədi. Oğlan sərt hərəkətlə çəliyi özünə sarı çəkdi. Ancaq

balacaboy, çəlimsiz oğlana yumşaq və yalvarıcı səslə: - Qardaşcan, bu qocanın ayağıdı, bunsuz yeriyə bilmir...

Köynəyini şalvarının üstünə salmış oğlan: - Onun ayağıdı... Ardo, pəncərədən atmayan qəhbə oğludu.

Ağəli gözlənilmədən çəliyi oğlanın əlindən qapıb kupeyə girdi. Çəliyi atmaq istəyən oğlan: - İndi göstərərəm sənə, - deyib kupenin ağzına çatmış erməni qadınını azca yana itələyib içəri dürtüldü və özünü qocanın yanına pərçimlədi. Ağəli erməni qadınını görəndə yenicə oturmuş dığaya nisbətən sərt səslə: - Durs ari, esdeğ ingeruhina nısdelu (Bayıra çıx, burda xanım əyləşəcək) – deyib, çəlimsiz dığanın qolundan yapışıb asanlıqla bayıra saldı. – Mən də gəlirəm, - dedi. Qapının ağzında dayanan oğlanlardan biri yoldaşına: - Kefini pozma, indi onun özünü çəkib eşiyə salacağam. Qadın qapıda görüncək öz doğması ilə qarşılaşırmış kimi: - Bıyy, Axmedov sizsiniz, hardan gəlirsiniz?..

Qarşıdakı sarıyanız oğlan qocanın sinəsindəki medalların o üzünə, bu üzünə baxıb:

- Kimindi? Hardan tapmısan?

Ayaqüstü dayanmış oğlanlardan biri:

- Tapmayıb, oğurlayıb! Türk deyil? Bunların oğurluqdan savayı əllərindən bir şey gəlir?!

- Qadın oğlanın sözündən inciyən kimi: - Bilmədiyin şeyi niyə danışırsan? Mənim yadıma gəlir. Müharibədən sonra bizim rayona iki, yoxsa üç kapitan qayıtmışdı. Hərbi formada, üst-başları par-par yanırdı, bellərində də tapanca. Bütün rayon onların yerişinə, duruşuna tamaşaya durmuşdu. Onların biri yoldaş Axmedovuydu...

Qoca razılıqla başını tərpədir, qadın danışdıqca sözləri yağ kimi onun canına yayılırdı.

Qapının ağzındakı oğlanlardan biri qadına işarəylə:
- Ara, deynən qoy səsini kəssin, canım üçün, ürəyim bulanır. Belə erməni qadını olar?

- Kupedə yuxarı başda oturan oğlan qocanın papağını götürüb öz başına qoydu. – Ara, mənə yaraşır, Aram? Oğlanlar gülüşdü. Qadın gülə-gülə heyranlıqla başını bulayıb: - Bilirsən necə yaraşır! Uşaqlar, bilirsiz bu nə papağıdı? Bəy papağıdı.

Düzmü deyirəm, yoldaş Axmedov?

Qoca gülə-gülə başını tərpədi: - Cişdə, cişdə. (düzdü, düzdü) – dedi. Ortada oturmuş oğlan papağı yoldaşının başından qapıb qadının yanında oturmuş qaradinməz oğlanın başına keçirdi. Papaq onun qulaqlarını əydi, qaşlarını örtdü. Kupeni qəhqəhə götürdü. Oğlan papağı başından çıxarıb hirsli-hirsli: - Bu murdardı, o yana elə, iyrənirəm – deyib dəhlizə atdı.

Dəhlizdəki oğlanlardan biri gözləyirmiş kimi papağı top kimi ayağıyla yavaşca qəbul edib azca yuxarı qaldırdı, yerə düşəndə zərbəylə vurub dəhlizin başına tulladı. Ağəli ortada oturan ucaboylu oğlana incik-incik: - Belə olarmı, atanız yerindədi. Özünüzü mənim yerimdə təsəvvür edin, nə edərdiniz? – deyib ayağa qalxanda yuxarı başda oturan oğlan bu dəfə Ağəlinin panamasını asılqandan götürüb qocanın başına qoydu. – Bu, başqa aləmdi, - dedi. Uşaqlar ucadan gülüşdülər. Erməni qadını Ağəlinin qolundan yapışıb aşağı dartıb oturtmaq istədi. Qadının yanındakı oğlan panamaya işarəylə: - Bu da yaraşır.

Yanındakı oğlan: - Elə qocadı də, başına nə qoysan yaraşır. Tulla, tulla bu yana. Ağəli birdən ayağa qalxdı: - Pistaleti görüm, bunların hamısını qıracam? – deyib əlini atasının döş cibinə uzatdı. Qoca qollarını sinəsinə bərk-bərk sıxdı. Atasının bu hərəkəti ona ləzzət elədi. Ağəliyə görə atası onu heç vaxt indiki qədər başa düşməmişdi. Erməni arvadının müharibədən sonra Mığrıya qayıtmış beli tapancalı üç zabit haqqında söhbətdən sonra o, əlini atasının cibinə uzadanda, qoca qollarını sinəsinə bərk-bərk sıxıb mane olanda, dığalar onlarda tapanca olduğuna inanmalıydılar. Ağəli coşqunluqla: - Qoy görüm, axırıncı patronacan boşaldacam bunların canına!

Erməni qadını qapının ağzından qayıdıb arxadan Ağəlini qucaqlayıb ucadan qışqırdı: - Oyy! Qurbanın olum, olmaz! – deyib Ağəlini geri datra-darta başını yana çevirib: - Bayıra çıxın, it uşağı! Əcəlləri gəlib! Oğlanlar sivişib kupedən çıxdılar. Ermənı qadını Ağəlinin qolundan tutub: - Səbr elə, qurbanın olum, otur, otur, indi mən gətirərəm, - deyib bayıra çıxdı, üzünü dəhliz boyu düzülmüş uşaqlara tutub: - Ayıb olsun sizə. Qocayla belə rəftar eləmirlər. –Hanı, hanı papaq? – deyib vaqonun sonuna tərəf tələsdi. Onun qışqırtısına kupenin bütün qapılarından adamlar başını uzadıb boylandılar.

Erməni qadını papağı yerdən götürdü, əliylə tozunu çırpa-çırpa geri qayıtdı, öz kupelərinin yanından keçəndə qapının ağzında dayanıb maraqla ona baxan ağsaçlı qadına təəccüblə alçaqdan: - Mən başa düşmürəm, nə məsələdi? Bizimkilər tək olanda dünyanın ən mehriban, mədəni adamları olur. Elə ki, bir yerə yığışdılar, iyrənc bir şey qaynatmalıdılar... – dedi, sonra səsini qaldırıb başıyla qabaqdakı kupeyə işarəylə: - Ay qız, bilirsiniz bunlar necə mədəni adamlardı? Bizi biyabr

elədilər. Vaxtıyla paykomda işləyib, kolxoz sədri olub. Bizim rayonda hamı ona Dəniz deyir. Deyirlər yoldaş Axmedov Dənizdir.

Ağəli atası haqqında deyilmiş "Dəniz" sözünü Mığrı ermənilərinin dilində çox eşitmişdi. Hər dəfə bu sözü eşidəndə "Fezo"da (texniki-peşə məktəbində) oxuduğu vaxtı xatırlamışdı. İyun ayının axırlarında qonşu Oxçu qəsəbəsində bir dəstə erməni dığasıyla dağın döşündə xəndək qazırdılar. Günortaya az qalmış xoz (donuz) Lernikin ucadan yana-yana və həsrətlə: - Ara, bunların anasını... Bu qədər şəftəlini hara aparırlar!? – dediyi sözlərdən sonra uşaqların hamısı əlini işdən saxlayıb aşağı boylandı. Yük maşını dolama asfalt yolla aşağıdan yuxarı ağır-ağır dırmanırdı.

Qıpqırmızı, sapsarı, ağappaq şəftəli ilə doldurulmuş yeşiklər maşının banı ilə bərabər idi. Maşının və banın künclərində dayanmış adamları tanıcaq Ağəli qazmanı yerə atıb başaşağı götürüldü. Maşına çatcaq dayanmasını gözləmədən pişik kimi dırmanıb banın qırağındakı ensiz taxtanın üstüylə qabaq küncdə dayanmış atasına yaxınlaşdı. Atası onun qolundan bərk-bərk yapışdı. Maşın düzə çıxıb dayandı. O, şəftəlisini satmağa aparan kəndçiləri ilə bir-bir görüşdü. Neçə ay qabaq ayrıldığı bu adamların danışığı, səsi, zarafatları ona şəftəlinin məst edici qoxusu kimi doğma və gözəl idi. Yuxarıdan erməni uşaqları qışqırdı: - Bizə də gətir!
Ağəlinin atası erməni uşaqlarına baxa-baxa: - Haşım, sən Allah, bir onlara bax, ağızlarının suyu axır, - dedi. Haşım xəndək boyu qazılıb qırağa tökülmüş təzə torpağın üstə sıralanıb dayanmış uşaqlara çəpəki baxdı. Siqaretini tüstülədə-tüstülədə: - Neynəsinlər, dağ adamıdılar. Aylarla meyvə üzünə həsrətdilər. Ağəlinin atası əl eləyib uşaqları çağırdı. Uşaqlar bir himə bənd imişlər, tökülüşüb gəldilər.

O, gülə-gülə, mehribancasına zarafat edə-edə, sevinə-sevinə öz bağçalarından yığdığı üç yeşik şəftəlidən birini uşaqlara paylayıb qurtardı. Qəddini düzəldəndə bayaq uşaqların dayandığı yerdən azca yuxarıda işləyən dustaqları və onların üstündə dayanmış avtomatlı adamı gördü. Yan-yörəsinə baxıb boşqab axtardı. Boşalmış yeşiyi götürdü: - Yox, bunu qonşudan almışam, - dedi. Ağəlini aşağı düşürtdü. – Ətəyini aç bura, - dedi. Ikinci yeşiyin yarısını oğlunun ətəyinə boşaltdı. Teymurun səsi eşidildi: - A kişi, bəsdi, arvad evə qoymaz səni, - dedi. Ağəlinin atası dikəldi, oğluna əliylə "apar" işarəsi verdi, sonra onun arxasınca mehriban səslə: - Nə vaxt qurtarırsız?

- Bir həftəyə, on günə, - atası yenə əliylə "get" işarəsi verdi.

Teymura tərəf çevrildi, gülə-gülə: - Aravada deyəcəm siyahını itirdim.
Ağəli siyahı sözünü eşitcək beşinci sinifdə oxuyan bacısının gözəl, aydın xətlə

yazdığı vərəq gəlib durdu gözünün qabağında. Birinci sırada sentyabrda geymək üçün ayaqqabı, kofta, lent, çanta, dəftər, qələm, pozan, bir sözlə, lazım olanlar olmalıydı. Sonra anasının dedikləri – qənd, pesok, sabun, kibrit ... Atası satdığı şəftəlinin puluna bunları almalıydı. Ağəli maşının qabağına çıxdığına peşman oldu.

Uşaqlar yediyi şəftəlilərin çəyirdəyini bir-birinə atırdılar. Çəyirdəyin biri gəlib Ağəlinin atasının qoluna dəydi. Teşdinli Vaço: - Ay görməmişlər! Ömrünüzdə belə şey yemisiz? Adamyan sizin barənizdə yaxşı deyib ki, eşşək kimi yeyib, eşşək kimi böyümüsünüz. Hansınızın dədəsi belə eliyərdi? Barı bir sağol deyin də...

Ağəlinin ətəyindən şəftəlilər pırtlayıb çıxır, yerə düşüb üstdən aşağı diyirlənirdi. Ağəli qərara gəldi ki, uşaqların içində başa düşəni teşdinli Vaçodur. "Ancaq incimə Vaço, sən də bu hülünün dəyərini bilməzsən. Axı sizin dağ kəndinizdə şaftalı bitmir. Bu uşaqlar kimi yəqin sən də elə bilirsən ki, maşındakı şəftəlilərin hamısı bu rəngdə, bu dadda, bu qoxudadır. Indicə yediyiniz bizim bu yarma hülümüzə bənzəyir. Sən də uşaqlar kimi biizm hülünü alma kimi dişlədin. Bal kimi şəhdi-şirəsi axıb yaxana, üst-başına töküldü. Yox Vaço, gərək onu ehmalca iki böləsən, asanlıqla bölünür, ona görə yarma hülü deyirlər də. Xəbərin varmı bizim bu yarma hülüdən nəinki maşında, heç löklülərin bağında, bağçasında, gövşənində belə yoxdur. Ancaq sən düz danışansan, vicdanlısan. Ona görə ətəyimdəkilərdən birini də götürüb sənə verəcəm"...

Qatar fit verdi, Ağəli pəncərədən çölə baxdı, əlini-əlinə vurub başını yellədi, ermənicə: - Vordeqec ay Vaço? (hardasan ay Vaço?) – dedi.

Dəhlizdəki oğlanlardan biri Qafan ləhcəsində - İprte Meğrum sqaqan hay qa? Mihad el qaveç (Guya Mığrıda əsl erməni var? Bir dənə də yoxdur).
Ağəli atasına baxıb kinayə ilə gülə-gülə: - Hələ harasıdı... – dedi.

Erməni qadını kupeyə girdi, papağı təmizləyirmiş kimi əlini ehmalca onun üstünə çəkdi, sonra üflədi – Qələt eliyirlər, cavandılar, qanmırlar, - deyib məhrəm adam kimi papağı qocanın başına qoydu.

Üç oğlan yenidən kupeyə girib əyləşdi. Ortadakı oğlan qadına baxıb: - Sizin erməni olmağınıza şübhəm var.
Bayırdan səslər gəldi.

- Yoxsa qocanı qonaq aparacaqsan evinizə?

Erməni qadını dəhlizdəki oğlanlara üzünü tutub hədələyici tonla: - Bax, elə eləmiyin durum milis çağırım! – deyib kupedəki oğlanları gözdən keçirdi. – Budur

sizin erməni mədəniyyətiniz? Atanız yerindədi!..
Dəhlizdən səslər gəldi:

- Qəhbə qızı! Gör kimi müdafiə edir!..

- Millət satqını!

- Ağəli ayağa qalxdı, qadının qolundan yapışıb öz yerinə oturtdu. Kupedə və dəhlizdə dayanıb onlara baxan oğlanları bir an gözdən keçirib mehriban səslə:

- Uşaqlar, indiyəcən nə oldu gəlin unudaq. Burda arvad-uşaq var, qoca var. Axı bunun sizə bir xeyri yoxdu. Bu dəqiqə sizin yeyib-içən vaxtınızdı. Durun gedək restorana, hörmət eləyim, yeyək-içək, orda istədiyiniz kimi deyin, gülün, sevinin... Masanın yanındakı oğlan: - Bunun yekə-yekə danışmağına bir bax, - dedi. Ağəli: - Yaxşı gedim araq alım, gətirim burda içək, - deyib tələsik kupedən çıxdı.

Bir tanış, bir doğma sifət görmək ümidi ilə kupeli, plaskartlıdan tutmuş bütün ümumi vaqonlardan tələsik hamısını bir-bir gözdən keçirdi. Ancaq nə öz kəndlərindən, nə də qonşu kəndlərdən bir türk, nə bir tanış Mığrı ermənisi gördü, nə də bir milis tapa bildi. Vaqonların qapısında dayanmış əliavtomatlı sərhədçi rus əsgərlərinin bir neçəsinə məsələni başa salmaq istədi, ona əhəmiyyət verən olmadı. Ağəlini vahimə bürüdü. Bir anlıq ona elə gəldi ki, qatar onları doğma rayonlarına, kəndlərinə deyil, bu dünyadan götürüb harasa gedər-gəlməz bir yerə aparır. O, bir azdan dığaların daha da azğınlaşıb onun qadınına, qızına sataşacaqlarından qorxurdu.

Qayıdanbaş restorandan bir araq və kolbasa aldı. Öz vaqonlarına girib birinci kupenin yanından ötəndə bayaqkı mığrılı qadını gördü, üct yerdən bağlamaları yendiridi.

- Ağanik xala, qoy mən düşürüm, - dedi.

Ağanik:

- Harda qalmısan, sən qaç kupeyə, tələs, tələs! – dedi. Ağəli qaçıb kupeyə girmək istəyəndə doluxsunmuş və üz-gözü təlaşlı qadınıyla toqquşdu.

- Babanı çəkib eşiyə çıxartdılar, itələyə-itələyə o tərəfə apardılar. Çəliyini də pəncərədən atdılar...

Ağəli arağı və kolbasanı uzadıb: - Qoy ora, - dedi, ancaq arağı vermədi. Vaqonun o biri başına sarı qaçdı. Sürətlə gedən qatarın əyləci qırıldı. Ağəli bir an geriyə

meylləndi, fışıltı vaqonu başına götürürdü.

Tambur adamla doluydu. Ağəli pəncələri üstə qalxıb boylandı, atası vaqonun çölə açılan qapısının ağzındaydı. Arxadakı oğlanlardan biri qışqırdı: - Ğamarluna! Ğamarluna!

Qapının ağzında dayanmış ucaboylu oğlan qocanı tələsdirib: - Qoca, nəyə baxırsan, Qəmərlidi də, düş! – dedi. Qoca iki əlləri ilə qapının yanlarındaı qoşa dəstəklərdən bərk-bərk yapışıb qaranlığa: - Qoy dayansın, - dedi. Arxadakı dığalardan biri: - O yana dur görüm, kişi deyilsiniz, itələ sal yerə də, onun toxumunu...
Qatar dayandı. Ağəli tambura açılan qapının ağzından:

- Baba düşmə, düşmə! Aldadırlar! Qəmərli çoxdan keçib! Çölü-biyabandır! Sizdə insaf varmı?!

Qocanın arxasındakı oğlan onu hey tələsdirir:

-Düş, düş, - deyirdi. Ağəli ağzını vaqonun dəhlizinə sarı çevrilib qışqıra-qışqıra: - Yoldaş kapitan, bura gəlin, bura! – deyib atasına doğru cummaq istəyən dığanın köynəyindən tutub geri dartdı. Oğlanların hamısı bir an duruxdu. Arxadakılardan biri boylanıb vaqonun dəhlizinə baxdı, tez çevrilib: - Ara bu köpəyoğlu bizi yenə dolayır. Milis-zad yoxdur, - dedi. Ağəli: - Bizim kupedədir, indi cavabını verərsiniz! – dedi. Oğlanlardan biri Ağəlinin yanından sivişib kupeyə sarı cumdu. Ağəli onları aralayıb atasına yaxınlaşmaq istədi. Ancaq oğlanlar yol vermədi. Vaqondan qayıdan oğlan gözlənilmədən arxadan təpiklə Ağəlini vurub: - Ömrümdə belə dələduz türk görməmişəm, bizə kələk gəlir. Eşşəyin balası! Milis-zad yoxdu! Ara bunu da çəkin salın aşağı!

Sanki dığaların donu açıldı. Kimsə yenə əlini qatarın əyləcinə sarı uzatdı. – Demişəm gərək düşürəm, - söylədi, ancaq əli əyləcə çatmadı. Başqa bir oğlan: - Ara yaxşı deyil, qoca qaldı, Qəmərlu keçdi axı!

Qoca əllərini dəstəkdən buraxmadan başını azca yana döndərib: - Düşmək istəmirəm. Lazım deyil.

Törəboy, canlı oğlan başına cin vurmuş kimi: - Bu yana durun görüm, bir qocaynan da bacarmırsız, - deyib oğlanları aralayıb qocaya sarı can atdı.

Dığalardan hansısa qocanın papağını vurub yerə saldı. Ağəli boğazından yapışdığı araq şüşəsini vaqona açılan qapının küncünə vurub sındırdı, əlində qalan şüşənin xəncər kimi qıraq hisəsini yuxarı qaldırıb dəli kimi qışqırdı: - Hamının qarnını

cıracam! Bir əlinizi vurun!!!

Oğlanlar yenə bir an donuxub qaldılar. Qocanın yanındakı ucaboy oğlan bıçağını çıxarıb yuxarı qaldırdı, bıçağın tiyəsi parıldadı. Ağəli: - Sal yerə! – dedi. Başılovlu özünü yetirən mığrılı erməni qadını həyəcanla: - Qatar Naxçıvana girir, indi cavab verə biləcəksiniz?!

Ağəli ürəkləndi: - Hə, indi deyərəm sizə!

Oğlanlardan biri eşiyə boylanıb: - Doğrudan Naxçıvandı, - dedi. Oğlanlardan başqa birisi əlini uzadıb əyləcdən yapışdı. Ancaq aşağı çəkmədi. – Yaxşı, uşaqlar, getdik, - dedi. Ağəli geri çəkildi. Oğlanlar o biri vaqonun qapısını açıb bir-bir çıxıb getdilər. Qoca əlinin birini dəstəkdən çəkib tanburun divarına söykəndi. Ağəli yaxınlaşıb atasının qolundan yapışıb dartdı. Qoca yenə də o biri əlini dəstəkdən buraxmadı, hirsli-hirsli: - Hardasan?.. İt toxumları kupedə ağzına gələni danışırdı. Ona görə çıxdım eşiyə...

Qatar Naxçıvan stansiyasında dayandı. Ağəli tələsik atasını kupeyə aparıb qapını arxadan bağladı. Qızı balıncın üstündə oturub göz yaşından islanmış balaca yumruqları ilə gözlərini ova-ova için-için ağlayırdı. Ağəli: - Nə olub? – dedi, pəncərənin pərdəsini açıb vağzala baxdı. Aralıdan iki kişi keçirdi. Qatarın fiti eşidildi. Ağəli qızının yanında otutub onun biləyindən yapışıb özünə sarı çəkdi: - Nə olub buna? – coruşdu. Qadını him-cimlə anlatdı ki, tualetə gedə bilmədiyindən yerini isladıb. Ağəli ucadan: - Lap əcəb eliyib, yaxşı eliyib. Bu dəqiqə! – söylədi, yorğan-döşəyi bürmələyib yuxarı yerə qoydu. Yenisini açdı. O biri alt yeri də atasına düzəltdi. Ayaqüstə dayanmış atasının qolundan yapışıb aşağı dartdı: - Otur, - dedi. Qoca yenə dartınıb müqavimət göstərdi. Ağəli: - Maşallah, bunda fil gücü var, - deyib qadınına baxdı. – Dığaların gücü çatmırdı buna. Nə qədər əlləşdilər, yenə düşürə bilmədilər.

Qoca çevrilib oğlunu tərs-tərs süzdü: - Ölmüşdü də Abdulla, olarnan bacarmasın. Uşaq-muşağa baş qoşmaq istəmirdim...

Kupenin qapısı bərkdən döyüldü. Qız anasına qısıldı, qorxudan bərəlmiş gözləri atasına dikildi. Ağəli ayağa qalxanda qadını pıçıltıyla: - Dəli olmusan, açıb eləmə, - dedi. Qapı daha bərkdən döyüldü. Ağəli ermənicə: - Nə lazımdı? – soruşdu. Qapı yenə döyüldü: - Orda bir şey qalıb, aç! Ağəli kupeni gözdən keçirdi: - Burda heç nə yoxdur, cavab verdi.

- Yaxşı, indi deyərəm...

- Azca sonra bayırdan kupenin qapısına açar salındı. Ağəli tez qapının ehtiyat

işkilini qaldırdı, bayırdan itələdilər. Qapı cırlanıb aralandı, ancaq açılmadı. Səslər gəldi:

- Açmasan Mığrıda düşməyə qoymayacağıq.

Ağəlinin qadını qorxu içində barmağını dodaqlarına toxundurub “sus” işarəsi verdi. Qoca: - Gör kimdi, nə istəyir... Niyə açmırsan? – deyib qapıya sarı əyildi. Ağəli – Dostlarındı, - söyləyib atasını tutub saxladı. Qoca oğlunun dediyini eşitmədi, yenə: - Kimdi? Nə istəyir? – soruşdu.

Yenə səslər eşidildi:

-Hamınızı Qafana aparacağıq.

-Mənim qonağım olacaqlar...

-Köpəyoğlu, elə bilir yorulub bezəcəyik. Ara partlayıram, bəs bu insafdandır ki, türklər kupedə rahatca getsin, biz də ayaqüstə, gecəni yatmadan, bir saat bir yerdə oturmadan...

Əgər səhərəcən yatsam, onları düşməyə qoysam, onda mən erməni deyiləm, türk oğluyam.

Qapıya bir neçə tapik vuruldu. Ağəli üst yerdə uzanmışdı. Dəhlizdəki danışıqları eşidirdi. Söyüb təhqir etsələr də onların cavabını vermirdi. Atasının qalxıb qapını açmasından ehtiyat etdiyindən bir an onu gözdən qoymurdu.
Balaca stansiyaların birində oğlanlar yerə düşüb pəncərəni döyüb daşladılar, söyüş yağdırdılar.

Qatar səhər saat beşdə Mığrıdan keçməliydi. Gecənin o vədəsi vağzalda çox vaxt adam olmurdu. “Birdən düşməyə qoymazlar” – fikri Ağəlini tamburda gördüyü bıçağın tiyəsinin parıltısından çox üşütdü. Birdən qulağı “Ordubad” sözü çaldı və elə buradaca düşmək ağlına gəldi. Çevrilib pəncərənin meşin örtüyünü yuxarı qaldırdı, qatı qaranlıqda bir şey seçə bilmədi. “bərk ayaqda pəncərədən düşüb, qaçıb stansiya gözətçisinə xəbər verərəm” – düşündü.

O, pəncərəni açıb başını çölə çıxartdı. Qarşıda işıqlar sayrışırdı.

Qabaqdakı vaqonun qapısından: - Ordubada giririk: - dedilər. Ağəli vağzalı tanıdı. Üç il burada internat məktəbində oxumuşdu. Vağzalın hər qarışını tanıyırdı. Doqquzuncu vaqon poçt qəbul edilən binaın yaxınlığında qoşa qələmə ilə qarşı-qarşıya dayandı. Yaxınlaşmaqda olan iki əsgərdən başqa gözə dəyən yox idi,

əsgərlərin çiynində avtomat vardı. Ağəli onların doğma dildə danışdıqlarını eşidəndə: - Ay dadaş... Əmoğlu!.. əsgərlər ayaq saxlayıb, altdan yuxarı baxdılar.

-Ermənilər döymək istəyir bizi. Qoca kişi var, arvad-uşaq var. Kupeni bağlayıblar, düşməyə qoymurlar. Kömək eləyin düşək.

Əsgərin biri yoldaşına: - Gəl bura görüm, - deyib vaqonun qapısına sarı qaçdı. Ağəli: - Qadan alım, qardaş, bunlar çoxdu, yeddi, səkkiz nəfərdi. Köməyə adam çağırın.

Əsgər geri döndü, yoldaşlarına: - Növbətçiyə de qatarı buraxmasın, - deyib vağzalın binasına sarı qaçdı.

Onlar vağzalın yanından keçən avtomaşın yolunun qırağında dayanmışdılar. Qoca üzünü turşutdu, başını yelləyib: - Duzsuz iş tutursan. Axşamacan qatar gözləyəcəyik? – deyib əlini üstündə oturduğu çamadana dayaq edib yavaşca ayağa qalxdı. Ağəli kefikök ovqatla: - Baba, burdan Mığrıya saat yarım, uzaqbaşı iki saatlıq yoldur. Axşamı niyə gözləyirik. Drezin var, paravoz var, nə düşdü minib gedəcəyik. Ya da ölməmişəm ki, minik maşını tutacağam, düz qapımıza sürdürəcəm...

Qoca yavaş-yavaş gedib yolun qırağındakı soğan təpəciyinin yanında dayandı. Açılıb-yığılan çarpayıda uzanmış kişiyə nəsə dedi, kişi oyaq olsa da cavab vermədi, çevrilib o biri yanı üstə uzandı. Ağəli atasına yaxınlaşıb soğan tığına işarəylə: - Bərəkətə bax ee... lap bizim kəndin soğanına oxşayır...

Qoca cavab vermədi. Soğan təpəciyinin başına hərlənə-hərlənə aralı düşənləri bir-bir ayağıyla yığnağa sarı dığırlatdı. İşıqlandıqca soğan təpəciyindən elə bil xışıltı qalxırdı. Qocanın üzündəki tutqunluq yavaş-yavaş uçub gedirdi. Ağəli atasına yaxınlaşıb: - Baba, yadındamı bir il soğan yığırdıq, məktəb uşaqları da, müəllimlər də. Bir gözəl müəllim də vardı. Bilmirəm hardan gəlmişdi bizim kəndə. Sonra çıxıb harasa getdi.

-Qəmərliyə qaçırtdılar...

Ağəli əlini qaldırıb mavi rəngli "Jiquli"ni saxladı. Maşının sağ qapısından əyilib sürücü ilə danışdı. Dikəlib sevinclə: - Baba getdik, gəl qabaqda otur! – deyib qapını açdı, sonra bağlamaların yanında dayanıb onlara baxan qadınına, qızına sarı qaçdı.
"Jiquli" Araz boyunca Ordubaddan Mığrıya gedirdi. Ağəlinin kefi durulmuşdu, əlini atasının kürəyinə qoyub: - Baba, qayıtcaq ondan da yaxşı papaq tikdirəcəyəm. On günə, uzaqbaşı iyirmi günə göndərəcəm.

O payız düzü-dünyanı soğan başına götürmüşdü. Zəmilərin qırağından, avtobus dayanacaqlarının, vağzalların yanından keçəndə qalaq-qalaq yığılıb tığlanmış qızılı-sarı soğan adamın üzünə gülürdü, aralanıb gedəndən sonra uzun müddət qulaqda xışıltısı qalırdı.

**Mart, 1993**

## CAVUŞ

**“Məğlub ölkənin igid oğulları” silsiləsindən**

*Batı Azərbaycanın Zəngəzur bölgəsində sonuncu türk kəndi Nüvədinin də əhalisini erməni silahlı dəstələri, onun ardınca Azərbaycanın bir neçə rayonunu erməni – rus ordusu vəhşicəsinə işğal edəndə, hirsindən, nifrətindən mürəkkəbi donmuş qələmini yerə çırpıb silaha sarılaraq torpaqlarımızın azad olunması uğrunda cəbhədə vuruşmuş (1991-1995), dəfələrlə ölümlə üz-üzə gəlmiş jurnalist – kapitan AQİL HƏMZƏ oğlu üçün.*

Tarixin ezamiyyətdən üç gün tez qayıtması, əskərlərlə qarşılaşarkən günahkar adam kimi gözlərini onlardan yayındırması, silahların hissələrini söküb yığarkən birinci dəfə olaraq gecikməsi, heç kimlə ünsiyyətə girməməsi briqada komandirinin gözündən yayınmadı.

O, çavuş Tarixin yanından ötəndə, ona öz yaxınlığını, doğmalığını və istəyini əsgərlərə bir daha bildirmək məqsədiylə həmişəkindən fərqli olaraq bu dəfə “çavuş” sözünü demədən, sadəcə - Tarix, axşam yanıma gələrsən - deyib bir addım aralandı, cəld geri dönüb onun qulağına pıçıltıyla, həm də başıyla kəndin yuxarısına işarəylə “Get gör həmin yanacaqdan varsa, yarım al gətir” - söyləyib əlini cibinə salmaq istəyəndə Tarix suçlu baxışlarını bir an komandirə tuşlayıb tez də yayındırdı, - Var, var, alaram, baş üstə-dedi.

Briqada komandiri iki konservləşdirilmiş mal ətini sapılcaya boşaldıb elektrik sobasının üstünə qoyanda çavuş Tarix içəri girdi, sırıqlısının döş cibindən çıxartdığı araq şüşəsini yonulmamış taxtadan düzəldilmiş masanın üstünə qoydu. Komandir şən ovqatla- Həmin kişidən aldın?-soruşdu.

Tarix onun üzünə baxmadan - Yox – dedi, - qurtarıb, qonşusundan aldım. Yoxladım, tutdu...Həmişə deyib- gülən, əsgərlərlə məzələnən çavuş Tarixin qaşqabaqlı olmasından çox, səhər tezdənnən axşamacan ağzına su alıb susması briqada komandirini təəccübləndirirdi.

Tezdənnən bu vaxtacan komandir dilinin ucunda güclə saxladığı "şəhərdə ağzını qıfıllayıblar, bəlkə dilini kəsiblər" bu sözləri bir neçə dəfə demək istəmişdi. Axı ən çətin, ağır, gərgin anlarda, döyüşün qorxulu, dözülməz məqamlarında hamının susduğu vaxtda Tarixin ortaya atdığı bir məzəli atmacasıyla, xoruz kimi banlamağı, yaxud kəklik kimi qaqqıldamağı, şux zarafatıyla, adamların ovqatına yüngüllük gətirdiyinin dəfələrlə şahidi olmuşdu.

Çavuş tabeliyində olan on iki əsgəriylə itki vermədən, düşmənin bir həftə öncə ələ keçirib mövqeyini möhkəmləndirdiyi "Çataçat" yüksəkliyini geri almış, başqa bir vaxt isə üç gün düşmən nəzarəti altında qalaraq təhqir olunmuş bir əsgərimizin meyitini şaxtalı fevral gecəsi tabeçiliyində olan bir əsgərlə oğurlayıb gətirmişdi.

Ötən mayın ortalarında göy üzünü birdən qara buludlar aldığı vaxt şişman bədəninə uyuşmayan cəldliklə ortayaşlı, ucaboy, qara dəripencəkli bir nəfər gümüşü BMV maşınından düşərək, göy otların üstündə oturub avtomatlarının hissələrini söküb yağlayaraq yenidən yığan əsgərlərə yaxınlaşıb saymazyana – Böyüyünüz kimdi?!- sorğusuna sanki cavabı gözləməyə səbri çatmadığından – Nə gözünüzü döyürsüz!? Key uşağı key! Məni qoruyanlarıma bax.

Yetim uşağı yetim...- deməyi ilə lüləsinə qatlanmış süngünün şaqqıltıyla açılıb dikəldiyi kimi çavuş Tarixin qəfildən ayağa qalxaraq, havanı yarıb bədənə üşütmə gətirən qılınc səsinə bənzər səsiylə -Dayan! – deyib göyə bir qatar güllə boşaltmağı bir anın içində oldu.

Qarapencəkli, şişman adam diksinərək çevrilib baxanda ona tuşlanmış avtomat lüləsindən, lüləsinin qapqara ağzından da qorxulu, vahiməli, birbaşa beyinə işləyən bir cüt qapqara gözün ona sarı tuşlandığını gördü. Çavuş Tarix sərt və soyuqqanlı səslə -Geri dön! Paxan oğlu paxan! – dedi, başıyla onun maşınına işarəylə - Dranqletinin yanına get! –söyləyib göyə bir güllə də atdı. Atılan sonuncu güllə elə bil göylərin su ilə dolu qarnını deşdi, əvvəlcə orda-burda iri-iri damcılar düşdü, sonra birdən leysan başladı.

Oğlan özünü maşına təpmək istəyəndə Tarixin "Dayan"-dediyi zəhimli səsi yenidən eşidildi, bir neçə gülləni onun yan-yörəsinə səpələdi. Üzü meyit rəngi almış oğlan büzüşmüş, qorxu içində geri çevrilərək yazıq-yazıq –Ay qardaş, belə zarafatmı olar, nə istəyirsən, günahım nədi?..-dedi. Çavuş avtomatı ilə işarə edərək maşından aralanmağını bildirdi. Oğlan bir addım maşından aralandı, səsi titrəyə-titrəyə - Məni tanımadın?.. İki ay qabaq sizə bir Kamaz mannı-makaron

gətirmişdim...- dedi, bu vaxt döngədən çıxıb ağır-ağır yaxınlaşan Kamaz maşını görüb sevincək – Bax, bu maşın da mənimkidi - söyləyib maşının sürücüsünə əl edərək "Bura! Bura!" çağırdı. Üzünü Tarixə tutub –Yenə gətirmişəm. Əsgərlərə deyin boşaltsınlar – deyib dərindən nəfəs aldı. Çavuş Tarix daha qətiyyətlə - Yerindən tərpənsən, təpəni odlayacam – dedi.

Göydən yağışı sanki vedrəylə əndərirdilər. Bayaqdan maşından azca aralıda yerində donub qalmış operator qorxa-qorxa- Cənab rəis, icazə verin kameranı maşına qoyum, islandı heç oldu.-söylədi. Tarix başıyla razılığını bildirib –Sən də onun tayısan- dedi, səsini alçaldaraq öz-özüylə danışırmış kimi – Kamera ikinizdən də dəyərlidi.- dedi, səsini ucaldaraq acı-acı - Hamınız juliksiniz, Paxan – maxan uşağı! Yenə sallağı oturub Kamazı aşağıdan çəkəcəksən...

Operator da həmin adamıydı. Bir UAZ maşının rahat gətirə biləcəyi on beş-iyirmi kisəni Kamazın arxa tərəfinə iki sıra qalaqlayıb gətirmişdilər. O vaxt bu operator bir az da aşağı əyilib kisələri kameraya alanda Tarix gülə-gülə - Televizorda "N" hərbi hissəyə bir Kamaz mannı-makaron verdik deyəcəksiniz. Pripiska müharibə bölgəsinə də soxulur.

O vaxt qarapencəkli bu gombul oğlan Tarixi saymazyana azca geri itələyib, – Allahınıza şükür eləyin- deyib tələsik qərargaha getmişdi. Bir gün sonra aşbaz kisənin ağzını açanda unun içində qaynaşan başları qara, buğum-buğum bədəni ağ qurdlar görmüşdü. Kisələrin beşini açsa da eyni mənzərənin şahidi olmuş, qərargah rəisinə xəbər verəndən sonra kisələri yaxınlıqdakı toyuq fermasına göndərmişdilər. Indi qarapencəkli hər dəfə yerində qımıldananda leysanın altında heykələ dönmüş, zəhimli baxışları ölüm saçan Tarix – Tərpənmə! Maxan oğlu maxan!- deyir, oğlan yazıq-yazıq ağzını açıb nəsə demək istəyəndə onun sözünü ağzında qoyur – Mumla! Sözlərini saxla, deputat olanda üyüdüb tökərsən. Qayğımıza qalana bax... Canından keçən oğullar var burda. Sənin də arzun deputat olmaq, daha çox allatmaq, daha çox talamaqdı...

Çavuş Tarix bu sözləri deyəndə bir həftə öncə baş vermiş faciəni xatırlayırdı. Qrad mərmisi qollu – budaqlı qocaman dağdağanı köklü-közərli çıxarıb toz-duman içində göyə qaldırdı. Burum-burum qalxan nəhəng toz-dumanın içində mayallaq vurub ağır-ağır yerə enən bir adam silueti də Tarixin gözünə dəyəndə onun həyəcanlı səsi eşidildi – Cənab kapitan, salamatsan?.. Bir an sonra toz-torpaq, narın qum yağışı xışıltısına qarışmış –Vay ma...ma!..- iniltisi eşidildi. Getdikcə seyrələn toz-dumanın içində qarşıdakı palıd ağacının yerə yaxın budağından əsgərin sallandığını görəndə Tarix həyəcanla –Ədə, tez aşağı düş! Bu dəyqə bədənin şədərəyə dönəcək-dedi, əsgərin can verdiyini görüb toz-duman çəkiləndən sonra ona yaxın düşməyin mümkün olmayacağını biləndə ağılagəlməz cəsarət və çevikliklə ağaca dırmaşıb əsgərin paltarını kəsərək onu yerə buraxdı, bu an güllləyə tutulduğunu görəndə, elə ordanca özünü yerə atdı, əsgəri yombaladaraq çökəkdə gözlərini ovuşdurub tozdan təmizləyən briqada komandirinin yanına saldı. Özündə

olmayan əsgər yenə inləyərək “ma...m...” pıçıldadı.

Tarix gözünü əsgərdən çəkmədən başını bulayaraq bu gərgin anlarda zarafatından qalmayaraq sanki qərargahda əsgərlərinə tərbiyə verirmiş kimi danlayıcı-qınayıcı tərzdə - Bu uşaqlara “Ana” sözünün qiymətini öyrədəmmədim. Bunlar Ana torpağa Mama torpaq-Maxan torpaq deyəcəklər...

Çavuş Tarixlə briqada komandiri çökəkdə arxasıüstə uzanaqlı qalmış, sağ ayağı dizindən üzülüb ayrılmış, sol ayağısa dörd barmaq enində dərisindən sallanan, qolları, dizdən yuxarı qıçları hərdənbir atan, bütün bədəni titrəyən əsgərin getdikcə zəifləyərək iniltiylə - sssuu... suuu...-deyən pıçıltısı daşın, torpağın, kol-kosun, qurumuş otların üstünə toz-duman buludundan yağan qum zərrəciklərinin xışıltısına qarışaraq itirdi. Tarix dizüstə yerə çöküb əsgərin sol çiyninə sarı əyilmiş başını düzəldərək üzünü ehmalca şapalaqlayıb –Qardaş, sakit ol, sən deyən qorxulu şey yoxdu.

Bu dəyqə qospitala çatdıracağıq –dedi, briqada komandirinə baxıb başını təəssüflə buladı – Özündə deyil, iş işdən keçib – söylədi, yenidən çevrilib əsgərə baxdı, gözünü ondan çəkmədən, sanki əsgərin eşitməməsi üçün astadan – Cənab kapitan, bura bax... –deyib qürub çağı dağların ətəyindən zirvəyə sarı çəkilməkdə olan Günəşin şəfəqləritəkin əsgərin alnından başlayıb sifətinə sarı yavaş-yavaş enən işığın ardınca barmağını ehmalca sürüşdürdü. –Qurtardı. – deyib əsgərin gözlərini qapadı. Cibindən qatlama bıçağını çıxarıb açdı, bir dəfə çəkməklə dörd barmaq enində dərisindən sallanan sol qıçını üzüb bədənindən ayırdı, sonra şalvarının qalan hissəsini də səliqəylə kəsib ayırdı, bədənindən üzdüyü ayağı qaldırıb başaşağı çevirdi, çəkməsinə, şalvarının qıçına dolmuş qan şırıltıyla yerə tökülərək qovulan ilan kimi bir göz qırpımında yamacaşağı gilli- qumsal torpaqda əyri-üyrü axaraq birdən torpağa çəkilib yastılanmış parıldayan qızılı lentə bənzər şəkli qaldı.

Çavuş Tarix çevrilib dizlərindən başınacan əsgəri yenidən süzdü, onun cənazəsinə işarəylə öz – özünə danışırmış kimi – İndı mən boyda olar... – dedi. Briqada komandiri bu ağır, faciə anlarında çavuş Tarixin yumorundan-zarafatından qalmadığınımı, yoxsa ağrıyıb acıdığınımı kəsdirə bilmədi.

Dörd il öncə 1992-ci il dekabrın ortalarında düşmənin işğal edərək üç ay saxladığı bir kənd əsgərlərimiz tərəfindən geri alınanda, Qarabağ bölgəsi üzrə baş qərargah rəisinin, paytaxtdan gəlmiş şair, yazıçı, incəsənət xadimləri, mətbuat işçilərinin iştirak etdiyi rəsmi, həm də şən ovqatlı mərasimdə mikrafonla əsgərlərə yanaşan jurnalistin “Bura nə məqsədlə gəlmisiniz?” sorğusuna sıravi əsgər Tarix – Heç bir yerdə iş tapammadım.

Qoca anamı saxlamaq üçün... –deyəndə hamının qəfildən gülməsi onu çaşdırdı, bir an özünü itirdi, qızarıb pörtdü, ondan aralanıb getməyən, əlindəki mikrafonu daha da yaxınlaşdırıb gülümsəyən jurnalistin mehribanlığını görəndə tez özünü ələ

alaraq daha səmimi cavab vermək məqsədiylə - İki ildi nişanlıyam. İmkansızlıqdan evlənə bilmirəm...- deyəndə bu dəfə gülüş xoru, qışqırıqlar daha gur, ucadan səsləndi, arxa sırada kiminsə çəpik çalmasına hamı qoşuldu, fit səsləri eşidildi, qarmaqarışıq səslər uğultuya çevrildi, bu, rəğbətdən doğan alqışıydımı, yoxsa ehtirazdan yaranmış kinayəmi idi, bilinmirdi. Mərasimin rəsmi, gərgin ovqatı yumşaldı, jurnalist tələsik Tarixdən uzaqlaşdı.

Həmin dekabr axşamı kəndin bir evində ikinci mərtəbədə xalçanın arxasında divarın içində yerləşdirilmiş balaca kitab rəfində kitabların arxasında göy qovluğun içində üzərində “dlya orujiye” yazılmış sarı kağıza bükülünün içindən tapdığı və dünəndən sırıqlısının döş cibində gəzdirdiyi bir “paçka” ağzı bağlı və altmış dənə yüzlük dolları Tarix masanın üstünə briqada komandirinin qarşısına qoyaraq – Nə qədər istəyirsiniz götürün...- dedi. Komandir təəccüblə “Hardandı?” soruşanda – Dünən dediyimi Allah eşidib, qabağıma çıxartdı.- söylədi Tarix.

-Sənin qismətindi, gedib toyunu eliyərsən... Nə qədərdi?- komandir soruşdu.

-On altı min. Onda qardaş malı kimi bölək...

-Yaxşı, bir halda ürəkdən istiyirsən, onda bağlı paçkaya əl vurma, açıqdan otuzunu say ver. Qalanına toyunu da eliyərsən, hələ bir otaqlı ev də alarsan.
Tarix altmış yüzlükdən qırxını sayıb komandirin qarşısına qoydu. –Ömrümdə birinci dəfədi bu qədər pul görürəm.- dedi Tarix.

Bir aydan sonra Bakıda toy günü əvvəlcə qız evindən, dörd saat sonrasa “Bəxtəvər” şadlıq sarayından “Vağzalı” havasının sədaları altında gəlin qapıdan çıxarılanda briqada komandirinin göyə atdığı fişəngdən sonra sıraya düzülmüş on beş əsgər avtomatlarını yuxarı qaldıraraq hər dəfə bir mağazin gülləni göyə boşaldanda qonşuluqda yaşayanlar, küçədən keçənlər şəhərdə müharibənin başlandığını sanaraq vahimə içində çaş-baş qalmışdılar.

Ölkədə yeni prezident seçiləndən sonra hərc-mərcliyə son qoymaq məqsədiylə (həm də hərbi çevriliş ehtimalına görə) əsgərlər müharibə bölgəsindən şəhərə gələndə, ezamiyyətə buraxılanda özləriylə avtomat, tapança gəzdirmək qadağan edilmişdi.

Sapılcada suyu, şirəsi yenicə qaynamağa başlayan konservləşdirilmiş mal ətinin üstünə komandir yumurta da çaldı –Dünyada ən ləziz xörəkdən əzizdi mənimçün.- əlini əlinə sürtə-sürtə dedi komandir. Tut arağını çappa stəkanlara süzdü,- Yeməyə başlamamış gəl birini gillədəy- söyləyib stəkanı bir nəfəsə başına çəkdi, odlu nəfəsini bayıra üfürərək – Bu nədi ə?..-dedi, bir çimdik duz götürb pıqqıldayan xörəyin üstünə səpə-səpə - Ordan bir soğan gətir, ancaq bıçaq dəyməsin, başına bir yumruq ilişdir, vəssalam- dedi, sapılcanı götürüb elə mətbəxdəcə masanın üstündəki qırmızı kərpicin üstünə qoydu.- Gəl elə beləcə...- kəsdiyi çörək tikəsini

ətin suyuna batırıb ağzına qoydu, - dədə baba qaydası-. Vallah, bunun ayrı ləzzəti var. - söylədi.

Səhər tezdən çavuş Tarixin Bakıdan kefsiz, qanıqara qayıtdığını görəndə komandir – Nə olub, anan, arvad – uşaq xəstə-zad deyil ki? – soruşanda Tarix başını aşağı salaraq, təkcə özünə bəlli kinayə ilə - Xəstə nə gəzir, hamısı dingildəşir- deyərək özünü tələsən göstərib komandirin yanından uzaqlaşmışdı. İkinci stəkanı içəndən sonra komandirin – Axı nə olub, niyə susursan?- sualına Tarix başını qaldırıb bircə an onun gözlərinin içinə günahkarcasına baxdı, cəsarətsiz nəzərlərini tez də qaçıraraq – Mən daha yoxam, komandir, mən ölmüşəm – deyib stəkanları araqla siləbəsilə doldurdu, stəkanını qaldırıb bu dəfə gözünü komandirin gözündən çəkmədən qəzəb, həm də təəssüf qarışıq səsiylə - Yadındamı cənab kapitan, iki il qabaq mənə " Yaman açıq döyüşə girirsən, başının üstündən, yan-yörəndən uçuşan arı, milçək deyil, onların hər biri ölümdür."-demişdin.

Çavuş Tarix bu sözlərdən sonra stəkanı kapitanın stəkanına vurmadan başına çəkdi. Kapitan stəkanını masanın üstünə qoydu, qaşığı götürüb sapılcanın qıraq-bucağındakı yumurtalı əti sıyırıb Tarixin qabağına yığdı.- Yadımdadı, sən də dedin narahat olma, istəsəm, onları dişimlə tutaram.-söylədi.

Çavuş Tarixə elə gəldi komandir onun dediyi əsas sözləri yadından çıxarıb, ona görə yenə təəssüflə, bir az da incik-incik başını bulaya-bulaya – Yo o x, onu demirəm...-söylədi. Komandir əliylə iki yol "saxla" işarəsi verib onun sözünü kəsdi – Sonra da dedin məni qarşıdan vura bilməzlər. Vursalar, ancaq arxadan özümüzünkülər vurallar. Hamısı yadımdadı.- Kapitan sanki yaddaşıyla öyünürmüş kimi sözünə davam elədi.- Mən də qayıtdım, elə niyaransan, inandığın əsgərlərdən ikisini seç səni qorusun...

-Cənab kapitan, arxadan elə vurdular, nəinki mənim on iki əsgərim, heç sizin briqadanız da qoruya bilməzdi... Biz müharibəni uduzduq- şəxsən mən...

- Səndə fil səbri varmış, dünənnən gözlüyürəm. Elə bilirsən tökülən qanlar, gözümüzün qabağında can verən cavanlar, dəhşətli ölüm səhnələri mənim hisslərimi korşaldıb?.. Dünən səni birinci dəfə görcək üz-gözündən oxudum, nəsə xoşagəlməz bir iş var. Gözlüyürdüm özün deyəsən. Ağzına su alıb durursan. Axı de görüm nə olub?.. Briqada komandiri siqaretini yandırdı, ləzzət alırmış kimi tüstünü acgözlüklə içinə çəkdi. – Bayaq dediyin "dingildəşirlər" sözü də elə belə adi söz deyil.- söyləyib mənalı-mənalı Tarixi süzdü.

-Cənab kapitan...-Bu iki sözdən sonra elə bil çavuş Tarixin dili tutuldu. Son iki gündə yaşadığı ağır, gərgin günlər, bir göz qırpımında xəyalından keçdi...
Çavuş Tarix Bakıda keçmiş İnqilab küçəsiylə Lenin prospektinin kəsişdiyi yerdəki binanın yanına gecə saat birin yarısında çatdı.

Tək-tük pəncərədə işıq yanırdı. Tarix tələsik qaranlıq həyətə girib pilləkənləri qalxarkən gecə lampasının işığında yan-yana yatmış dörd yaşlı oğluyla arvadının Ay parçası kimi işıqlı, gözəl, məsum, təmiz sifətlərini xatırladı. "Gecənin bu vaxtı onları yuxudan oyatmaq insafsızlıqdı" düşündü.

Dördüncü qata qalxdı, cibindən açarı çıxartmaq istəyəndə qapılarında sonradan salınmış əlavə qıfıl gördü, açar hərlənsə də qapı açılmadı, bir neçə dəfə qapını astadan döydü. "Əsgər arvadı ayıq-sayıq yatmalıdı, gecənin-gündüzün hər dəqiqəsində ərinin gələ biləcəyini gözləməlidi." düşündü. İçəridən səs-səmir gəlmirdi. Tarixin başında qara-qura fikirlər dolaşdı. Qapını bərk-bərk döyməyə başladı. "Gecənin bu vaxtı... Qonşular... Bəlkə evdə başqa...

Bıçaqdan, baltadan götürsəydim..." Bu dəfə qapını astadan döyəndə üzbəüzdəki qapı yarıyacan açıldı. Tarix geri çevriləndə baxışları qonşusu Gülgəzin yuxulu gözlərinə tuşlansa da, düymələri bağlanmamış açıq qızılgül rəngli xalatının ətəyindən az qala ayıb yerinəcən görünən dolu, çılpaq budunu hiss elədi. Gülgəzin ərinin bir il qabaq şəhid olduğunu bilirdi. "Utancaq, abırlı Gülgəz nə tez dəyişdi?" düşündü. Doğma, şirin gülüşlə - Xoş gəlmisən, gəl içəri.- deyib Gülgəz qapını geniş açaraq – Bir həftə olar, bəlkə də on gündü yoxdu.- sözünə davam elədi. Tarix təəccüb və çaşqınlıqla – Bir həftə... On gün?.. Hardadılar? – soruşdu. Gülgəz onun yerində donub qaldığını görəndə -Tarix qardaş, keç içəri, atalar boş yerə deməyib yaxın qonşu uzaq qohumdan irəlidi. Keç, keç içəri- söyləyib Tarixin qolundan yapışıb içəri çəkərək – Qonşuları oyatmayaq- deyib Tarixi bir sayaq güclə dartıb içəri saldı, qapının işgilini tələsik bağladı. – Gecənin bu vaxtı Lökbatana gedib qoca ananı yuxudanmı edəcəksən? Avtobuslar da işləmir...

Qapının ağzında Tarixin ağac kimi bitib qaldığını görəndə Gülgəz onun sırıqlısının düymələrini bir əliylə açmaq istədi, düymənin çətin açıldığını görəndə xalatının yaxasını tutduğu sol əlini də ona sarı uzadanda Gülgəzin əl boyda ensiz, mavi rəngli tora bənzər parçayla örtülü ayıb yerindən başqa lümlüt bədənini görəndə Tarixin bütün varlığını xoş bir gizilti bürüdü. Gülgəz onun sırıqlısının bir düyməsini açandan sonra xalatını tez bürmələyib bədənini gizlətdi. – Özün aç, əsgər cəldliyi ilə.

Sözümə baxsan, mən deyənləri eləsən, hər şeyi açıb deyəcəm. Narıngülün işlərini məndən yaxşı bilən yoxdu...- dedi. Tarixi itələyə-itələyə- Aylardı bədənin su üzü görmür-deyib aparıb hamama saldı. Tarix çimənə qədər o, mətbəxdə masanın üstünü yer-yeməklə doldurdu. Suyun şırıltısı kəsiləndə Gülgəz hamamın qapısını azca aralayıb – Qurtardın?- soruşdu.Qapını tam açaraq – Üzünü divara çevir, dəsmal verim- deyib içəri girdi, yaxınlaşıb iri, xovlü məhrəbanı Tarixin çiyinlərinə saldı, tələsik kürəyini, yanlarını, baldırlarını quruladı, dikələrək dəsmalın quru yeriylə onun başını, tellərini ovcalaya-ovcalaya qarşısına keçdi, sanki ana nəvazişiylə ehmalca onun üzünün tərini aldı, sinəsini, qarnını quruladı, əyilərək budlarını, dizlərini, ayaqlarını sildi, ikinci dəfə bərk bir şeyin başına dəydiyini hiss

edəndə, qəfildən ayağa qalxdı, xalatıyla sinəsini örtə-örtə sərt səsiylə- Bu nə deməkdi?!. Ayıb olsun sənə! Bütün əsgərlərə biz doğma qardaş kimi baxırıq. Səninsə ürəyindən gör nələr keçir. Tərbiyəsiz, pozğun!- dedi,

Tarixin çaşıb qaldığını, sarsıldığını görəndə yumşaq, mehriban, doğma səslə- Deyirlər Tarix belə qoçaq, belə cəsur, nə bilim qətiyyətli, döyüşdə amansızdı, istənilən çətin vəziyyətdən çıxmağı bacarandı. Hanı sənin bacarığın? Bir qırıq ötəri ehtirasınla düşmənlə necə vuruşursan? Qorxaq imişsən ki! - söyləyib Tarixi birdən qucaqladı, üz-gözünü, boyun-boğazını, sinəsini aramsız odlu öpüşlərinə qərq elədi, dodağını dodağına söykəyib əlini yenidən oyanmaqda olan kişilik yerində gəzdirdi. Tarix qollarını xalatın altından onun çılpaq bədəninə doladı, əllərini onun kürəyində, sonra sürüşdürərək yançaqlarında gəzdirib sığalladı. Bir –birindən aralanmadan Gülgəz onu darta-darta çəkib hamamdan çxartdı.- Qabaqca gedək səni yedizdirim-söylədi, Tarixsə onu buraxmadı, - Altı aydı qadın üzü görmürəm. - dedi Tarix, Gülgəzi yataq otağına sarı dartdı.

Gülgəz Tarixin alnınıın, üzünün, tərini silə-silə - Bədənin mis kimidi, paltar sənin gözəlliyini gizlədir... Allahıma şükür edirəm. Arzumun birinə çatdım.- deyib Tarixin qaşlarını sığalladı, dodağından öpdü –Dur, dur gedək mətbəxə...

Gülgəz ikinci dəfə konyakla dolu qədəhi qaldırıb – Bunu içək sən başda olmaqla bütün əsgərlərimizin sağlığına. Gün o gün olsun... -Tarix qədəhini masaya qoyaraq onun sözünü kəsdi – Danışmadın axı, məni niyə məngənədə saxlayırsan?- deyəndə Gülgəz masadakı qədəhi götürüb ona uzadaraq- Atamın qəbrinə, ərimin ruhuna and içirəm, nə bilirəm hamısını danışacam. Bildiklərimi, şahidi olduqlarımı artırmadan, şişirtmədən hamısını.

Bunu da içək-dedi, Tarix onun əlində titrəyə-titrəyə qalmış qədəhi alıb birnəfəsə başına çəkdi. Gülgəz kolbas dilimini onun ağzına uzatdı, Tarix ağzını açmadı, kolbas dilimini alıb gözünü Gülgəzin gözünə tuşladı. Gülgəz konyakdan bir qurtum alıb bakalını masanın üstünə qoyub ehmalca sürüşdürdü, “sinikers” parçasını götürüb dişlədi. –Hə ə ə... Qonşu, inansan da sağ ol, inanmasan da.

Yalan danışanın ölüsünə də lənət, dirisinə də. Mən boynuma alıram, pozğunam, ancaq heç vaxt yalan danışmıram. Ancaq sənin gözəlçən, yalançıdı, paxıldı, atanşikdi, acgözdü... Bunlar cəhənnəm, əri ola-ola pozğundu... Ərim şəhid olannan sonra səkkiz ay kişilərin üzünə baxmadım...

Narıngülün evinizdə az qala hər həftə keçirdiyi ad günləri... Şumalüzlü, sağlam, ucaboy oğlanlar, bloka dolan kişi dezodarantın iysi, gecə səhərəcən divarın o yanında mənim acığıma çarpayı cırıltısı...Narıngülün qaqqıltısı... Bilirsən də qabaq sizin hamam işləmirdi. Gəlib bizdə çimir, çılpaqca xalatına bürünür, oturub tələsmədən çay içirdi. Bir dəfə qapımız döyüləndə açdım, sizin qapının ağzında dayanmış tanımadığım oğlanın hürkək-hürkək –Xanım gəlmir, bayaqdan telefon

neçə dəfə zəng çalıb?- dediyini Narıngülə söyləyəndə mənə göz vurub uğunub getdi – Telefonumuz işləmir, qoy gözləsin, yana-yana qalsın- söylədi. Bir dəfə qapının gözcüyündən baxdım. Ananıydı. Qapınızı neçə yol döysə də açılmadı. Qapını açıb –Gəlin bizdə gözləyin, birazdan gələr- dedim. Qabağına yenicə çay qoymuşdum telefonumuz səsləndi. Dəstəyi qaldıranda Narıngülün pıçıltısını eşitdim “ Az, mən evdəyəm, özüm açmıram, o kaftara üz verib buralara dadandırma. Qoy rədd olub getsin.” Yalan deyirəmsə, Allah məni sabaha çıxartmasın.

Gülgəz Tarixin bayaqdan süfrədən əlini çəkdiyini, qanının qaraldığını görüb –Mən səfeh düz eləmədim, səni doyunca yedirdəndən sonra bunları deməliydim.- söyləyib qədəhləri konyakla doldurdu, - Bax, yeməsən, maraqlı söhbətlər hələ daldadı, danışmayacam.- deyib qazandakı kələm dolmasını aparıb qazın üstündə qızdıraraq geri qaytardı. Bir sayaq Tarixi gah dilə tutaraq, gah da təkidlə yedirib içirtdi.

Qolundan tutub yatağa apardı. Asanlıqla onu vəcdə gətirdi, ikinci dəfə onun alnının tərini siləndə -Tarix, Allaha and olsun, ərim sağ ikən, üç il vuruşdu, beş-altı aydan bir evimizə gəlirdi, ona xəyanət eləmək ağlıma gəlmirdi. Öləndən sonra... Hər dəfə Narıngül hamamdan çıxıb bizdə çay içəndə - Ay qız ağlın olsun, ölənlə kim ölüb? Daha ərin yoxdu. Heç vaxt qayıtmayacaq. Deyirsən günnəri, illəri sayaq ki, müharibə haçan qurtaracaq? Bəlkə beş il, bəlkə on il çəkəcək? Bəlkə Tarix də Qürbət kimi şəhid olacaq.

Nəyə görə cavan canımı çürütməliyəm. Burdakı kişilərin arvadları yağ-bal içində, kurortlarda kefdə-damaqda. Biz də kişisiz olmağımız bir yana, acından qarnımız quruldamalı, dəyişəyimiz olmadığından axşam yuduğumuz alt paltarımızı ütüləyib qurudub tezdən geyib işə getməliyik. Niyə?.. Bir dəfə xahiş elədi, mən gedib uşağı baxçadan gətirim. Tərbiyəçi Narıngülün arxasınca deyindi. “ A a z, bu necə anadır, lazım deyil mənə elədiyi hörmət. Saatlarla uşağın gözü yolda qalır, gözünün yaşı qurumur.” Deyir iki dəfə götürüb evimizə aparmışam.

Deyir bir həftə xəstələndiyimdən işə çıxa bilmədim. Uşaq gecə baxçada tək-tənha qalıbmış. Gecə yarısı oyanıb, baxçanın ağac-budaqlı qaranlıq həyətində ağlaya-aglaya dolaşırmış. Qarşıdakı binanın balkonundan bir qadın uzaqdan - uzağa uşağı dilə tutub ovundurmaq istəyir –Get yat soyuqdu. Birazdan uşaqlar, müəllimlər gələcək- deyəndə uşaq ağlaya-ağlaya –Qaranlıqdan qorxuram, sən getmə... Ordan mənə bax- deyib için-için ağlayır, qadının ürəyi durmur, küçəyə çıxıb baxçanın uca hasarı boyunca hərlənsə də, içəriyə keçməyə yer tapmır. Hasarın başından- yaxın məsafədən uşaqla danışmaq, ona ürək-dirək vermək niyyəti ilə divarın dibində qalaqlanmış kubik daşların üstünə qalxmaq istəyəndə sürüşüb yıxılır, ayağı burxulur, topuğu qan-çil olur.

Axsaya-axsaya özünü evə çatdırır, ayağı ağrısa da uşağın qorxu içində ağladığını

unuda bilmir, balkona çıxanda qarşı binadan düşən özündən də balaca işıq parçasının altında, quruca torpaqda uşağın ana bətnindəki kimi bükülüb yatdığını görür. Bunları həmin qadın baxçanın müdirinə danışırmış.

Gülgəz sol qoluna dirsəklənib üçüncü dəfə Tarixin alnının, üzünün tərini nəvazişlə siləndə- Nəsə demək istəyirdin – Tarix dedi. Gülgəz gecə səhərəcən mürgü içində Narıngül və onun çalışdığı balaca kollektiv haqqında bildiyi, eşitdiyi, yadına düşənlərin hamısını sanki fəhmli dedektivçi, qüdrətli bir yazıçı, duyğulu bir psixoloq kimi gecənin səssizliyində pıçıltıyla danışaraq Tarixin qəlbində azacıq da olsa, deyilənlərə şübhə yeri qoymadı.

Altı nəfərin bir otaqda çalışdığını, respublikada tanınsa da hər gün fasilə vaxtı direktorun öz işçiləri ilə yeyib içdiyini, iş vaxtı tez-tez otağa girib əməkdaşlarını bir anlıq işlərindən ayıraraq gülməli bir əhvalat söyləyib onların ovqatını yüksəltdiyini, gülməkdən uğunub gedənlər özlərinə gəlməmiş direktorun qəfildən çıxıb getməsini deyirdi. İyirmi yaşlı rayon qızı Narıngülü də, yaşı əllini haqlasa da gənclik həvəsi və havası hələ də başından getməmiş, imkanı arzularından aşağı olsa da özünü kübar xanımlara oxşatmağa çalışan, şəhərli olmasıyla qürrələnən ərli xanımı da direktor gündə bir neçə yol təkbətək kabinetinə çağırdığını deyirdi.

Şübhə doğurmasın deyə, direktor çavan oğlanları və yaşı yetmişə çatsa da piyada gedərkən gənclərə aman verməyib şax yeriyən, şalvar, köynəyi ilə bərabər sanki bədənini də ütüləyib hər səhər hamıdan qabaq həvəslə işə gələn, şövqlə yeyib - içməyi ilə tox adamı da iştaha gətirən, danışığında tez-tez atalar sözü işlədən, məzəli əhvalatlar söyləyib məclisdə xoş ovqat yaradan, adət-ənənəyə və müsəlman qaydalarına əməl edən adam kimi özünü göstərən qırmızısifət kişini də direktor, kabinetinə çağırdığını deyirdi.

Ağsaqqal kimi görünməyə çalışsa da, hərdənbir qadınlarla çox ehtiyatla "şuluqluq" edən o qırmızısifət kişini bir dəfə gecə saat iki radələrində sərçə güdən qoca pişik kimi pəncələri üstə pilləkənləri ehtiyatla qalxıb qapınızı döymədən itələyib açdığını özü gördüyünü deyirdi.

Şümal üzləri par-par yanan, dezodarant qoxuları bloku bürüyən, boylu-buxunlu ərgən oğlanlar guya idarədə yarımçıq qalmış işlərini tamamlamaq üçün günaşırı, bəzənsə hər gün təkbətək gəlib Narıngüllə gecələdiyini dəfələrlə gördüyünü deyirdi.
Narıngülün bir səhər direktorun yaşadığı evin blokundan çıxarkən həmin yaşlı qadınla rastlaşdığını, elə buna görə də onların bir-birinə düşmən kəsildiyini, Narıngülün- Bilmirəm bu qadın nə istəyir, üz-üzə gələndə fısıltısının yeli az qala məni pəncərədən götürüb bayıra atmaq istəyir- gileyindən sonra direktorun – Nara, sən yazda yenicə açılmış ətir saçan təravətli çiçəksən, osa payızda yarpaqları saralıb tökülməkdə olan ərik ağacı, fikir vermə... –söylədiyini... Narıngüllə mehriban olduğum vaxtlar onun öz dilindən eşitmişəm...-deyirdi Gülgəz.

Sarsıntı içində, yuxulu, içkili halında bu adda-budda, dağınıq söhbətləri dinlədikcə özününmü, yoxsa Gülgəzinmi sərxoş, əsəbi olduğunu Tarix anışdıra bilmirdi. –O yaşlı qadın mənə nəsə deyə bilərmi?- Tarixin sorğusuna Gülgəz sanki diksinərək – Heç vaxt! O qadının yaxşı cəhətlərindən biri qeybət etməməsi, heç kimin sözünü danışmamasıdır. Bir də onun əri var, dedi-qodunun böyüməsini, özünü dava-dalaşın içinə salıb ərinin xəbər tutmasını istəməz.

-Bəs o qaraqabaq dediyin direktor müavini necə?

-Elə bilirsən bunları paxıllıqdan deyirəm? Evinizə girəndə özünə hər şey aydın olacaq. Mən gizlətmirəm, bunları açıb deməklə ondan qisasımı alıram. Min manatlıq televizor alıb. Sözün düzü, sizin balaca evinizə o boyda televizor yaraşmır. Görməmişdi. Yekə xolodelnik, yekə kondisioner, xalça. Soruşsan hardandı, lotereya oynayıb almışam, deyəcək sənə... İşçilərdən başqa yad adamların da bura gəldiyini görmüşəm. Bir səhər tezdən bizim uçastkovunun evinizdən çıxdığını gördüm... Direktor müavinini soruşursan, inanmıram o da sənə nəsə desin. Bilirsən onun haqqında Narıngül mənə nə deyib? Narıngülə deyirmiş sən əsgər ailəsisən, özü də qəhrəman əsgər. Sənin haqqında qəzetdə yazılan məqaləni də o tapıb gətiribmiş. Deyirmiş biz bazburutlu oğlanlar, kişilər burda boş-boş işlərnən günümüzü keçiririk, əsl kişi Tarixdi. Tarixin xanımına hamımız hörmət etməli, onun təsibini çəkməliyik. Ancaq Narıngül deyirdi, bir dəfə otaqda kompüterin arxasında tək oturmuşdum. Pəncərənin önündən keçəndə onu kölgəsindən tanıdım. Tez köynəyimin yaxasının bir düyməsini də açdım. Qapını açıb salam verdi, gülə-gülə salamını aldım. Əlində kağız yaxınlaşdığını görəndə mənə rahat baxması üçün gözümü kompüterin ekranına tuşladım, kağızları mənə sarı uzadıb həmişəkindən fərqli kövrək, həzin səslə -Bunları təcili yazmaq lazımdı- dedi. Mən qəsdən kompüterin ekranından gözümü gec ayırdım, onun əlindəki vərəqlərin titrədiyini hiss elədim, birdən başımı qaldırıb ona baxanda, alov saçan baxışlarının sinəmə tuşlandığını gördüm. Oğurluq üstündə tutulan adam kimi üzü qızarsa da, gözlərini sinəmdən qəfil ayıra bilmədi, baxışları sanki rezin kimi dartılıb uzandı. Günün şüalarını bir nöqtəyə tuşlayan linza kimi, baxışlarının sinəmi yandırdığını əməllicə hiss elədim. Deyirdi belə kişiləri qadınlar zorlamasa, onlar həyatı boyu qınlarında yanacaq. Tarix, nə olsun, hal-hazırda Narıngüllə düşmənəm. Boynuma alıram, o mənnən diribaş, fərasətlidi. Boydan gödək olsa da, gözəldi, bu şəhərdə onun dərisi kimi ipək, sığallı... yup-yumuru, tarım bərk döşləri olan... Görəndə qadınlığımla ağzımın suyu axırdı...

-Bəs aranız niyə dəydi?

Gülgəz bir an susdu, əlini onun sinəsində, qarnında gəzdirdi, bir az da aşağılara sürüşdürəndə Tarix ötkəm səslə-Niyə dinmirsən?-soruşdu. Gülgəz yenə onun sinəsini sığalladı. –Narıngülün ad günü direktordan, onun müavinindən, o yaşlı qadından başqa idarənin bütün işçiləri, bütün işçiləri deyəndə iki cavan oğlan, bir

də o qoca kişi sizə gəlmişdi. Məni də çağırmışdı. Gecə yarısınacan yeyib içdik, qonaqlar getmək istəyəndə Narıngül – Mənim xətrimi istəyən gecəni burda qalmalıdı.- dedi. Darısqallığa, yorğan döşək çatmadığına görə mən – Qonaqların hansı istəyir bizə gedək dedim. Narıngül dərhal elə şey yoxdu dedi ,özü də amiranə. Mənim qonaqlarım mənim evimdə qalmalıdı! Hamımız döşəmədə uzanıb yatacağıq. Sən rahatlıq axtarırsan, get öz evində yat-dedi. Onun son sözləri mənə toxundu, özümü qovulan, təhqir olunan hiss etdim. Ona "Acgöz, qudurmuş!" – deməkdən özümü zorla saxladım. Qapıdan çıxanda özümü sındırmadan "baxın da, qapım açıqdı, kim istəsə, buyura bilər"- deyib sağollaşdım. Mənim dalımca o qoca kişi də çıxıb getdi. Mən yata bilmirdim. Gecədən xeyli keçmiş qapımız açıldı. Günlərlə, aylarla həsrətini çəkdiyim həmin oğlan idi. Ucaboy, sarışın, kübar görkəmli, çeşməkli - dərdinnən öldüyüm o oğlan... Narıngül haqqında nə qədər haqsız olduğumu düşündüm. Neçə vaxtıydı Narıngülə yalvarırdım onu bizə gətir. Əvəzində nə istəsən sənin üçün edərəm, ömrüm boyu sənə borclu qalaram. O da ad günündə bunu edəcəyinə söz vermişdi. Tarix, inan mənə, dünyada heç kimi onun qədər sevməmişəm. Nişanlı olduğunu da bilirdim. O an mənim üçün Narıngüldən əziz, doğma adam yox idi. Oğlan köynəyini soyunub kreslonun başına atdı, şalvarının bir qıçını soyunaraq, kiminsə eşitməsindən sanki ehtiyat etdiyindən pıçıltıyla – Narıngül artıq obşi vaqona dönüb- deməsinə həm sevindim, həm də mənim sevimli rəfiqəm haqqında bu sözləri eşidəndə pis oldum. Bu dəm qapımız şaqqıltıyla açıldı. Nə gizlədim, sevindiyimdən, həyəcandan qapını bağlamağı unutmuşdum. Bir də bağlasaydım da xeyri yoxdu, hay-küy qaldırıb açdıracaqdı. Elə bil körpə uşağının üstünə qışqırırdı.- Geyin! Düş qabağıma!- Səninlə deyiləm!?
Oğlan sakitcə geyindi. Mən – Biri bəs eləmir sənə, içiqurtlu, yaramaz – dedim, o mənim sözümü eşitmirmiş kimi yenə də üzünü oğlana tutub ucadan – Düş qabağıma! Bu gün - sabah toyun olacaq, xəstəlik tapıb biabır olarsan. O gözəllikdə nişanlına xəyanət eləməyi Allah da bağışlamaz... dedi, ideal saydığım, aristokrat görkəmdə olan oğlan, balaca uşaq anasının qabağına düşüb gedən kimi, sakitcə otaqdan çıxdı. Ancaq oğlan bizdən çıxıb öz evlərinə getdi. Yeddi qatımacan yandım, özümü saxlayammadım,- BEŞINNIY QANCIX!- deyib qapını çırpdım. Səhərəcən yerimdə ağladım. Tarıx, sənin gözəlçən pis xəstəliyə tutulmuşdu, onu mənim tanış həkimim müalicə elədi, yerini də deyə bilərəm, adını da. Sonra öyrəndim ki, xəstəliyi həmin oğlana da keçibmiş...Səhərisi gün, təsəvvür edirsən, həmin oğlanın nişanlısının qohumları iki dəfə mənə zəng edib təhqir etdilər, hədə-qorxu gəldilər...

Gülgəzin dediyi "Beşınnıy qancıx" sözlərindən sonra Tarix onun ağzının, dodağının, çənəsinin tərpəndiyini görsə də dediklərinin heç birini eşitmir, doqquzuncu sinifdə oxuduğu vaxt baş vermiş xoşagəlməz, biabırçı hadisəni xatırlayırdı.

Keçən il itləri ilə bağlı camaatın ağzında dolaşan dedi-qodu yaddan çıxmağa başlayanda kəndin itləri yenidən havalanıb kürsəyə gəldi. Keçən il Tarixin dədəsi –

Qancığı rədd etmək lazımdı – desə də evdəkilərin heç biri bu ağıllı, vəfalı, gözütox, həssas, dil bilən itlərini itirmək istəməmişdi. Nurgiz kişi iti kisəyə salaraq yük maşını ilə aparıb yaşadıqları yerdən neçə - neçə kənd, neçə -neçə dağ – dərə aralı bir yerdə azdırsa da, üç gündən sonra səhər tezdən Tarix qapılarını açıb məktəbə getmək istəyəndə sevimli, gözəl itlərinin qapılarının ağzında başını əllərinin üstünə qoyub yatdığını görmüşdü.

Bəbir kimi incəbel, uzunqıç, görkəmi zərif itin qapqara ağız – burnundan, bir də gözlərindən başqa hər yeri bəmbəyaz olduğundan, çöldə yatarkən yazağzı dağın quzey ətəyində yenicə göyərmiş yamyaşıl otların üstündə hələ də əriməmiş bir parça qara oxşadığından Tarix iki il bundan öncə onun adını "Qardan" qoysa da, təkcə özündən yaşca balaca bacısından, hərdən də bir anasından başqa bütün qonşular, qohumlar, kənd adamlarının hamısı, elə bil Tarixin acığına itə "Nurgizin qancığı" deyirdilər.Yadlar bir yana, Nurgiz də bu gözəl itə qancıx deyəndə - Ay dədə, heç olmasa sən onun adını de də - Tarix incik – incik atasını dönə - dönə qınasa da xeyri olmurdu.

Tarixə görə adamların dilində səslənən qancıx sözündə təkcə o zərif, o gözəl itə yox, həm də onların ailəsinə bir həqarət, sataşmaqlıq vardı.Tarixin anası bu it haqqında "həm gözü tox, həm də insan kimi dil bilir" – deyirdi. Deyirdi neçə dəfə sinidə doğranmış əti, qalaq – qalaq lavaşı sulayıb eşikdə çarpayının üstünə qoymuşam, içəridən pəncərədən baxmışam, yazıq heyvanın onlara baxıb ağzının suyunu axıtdığını görmüşəm, ancaq bir dəfə də onlara yaxınlaşdığını, oğurluq elədiyini görməmişəm.

Gövşəndə dizəcən yaşıl otluqda Tarixin yanı ilə gedən Qardan neçə dəfə adamın bədənini qəfildən ürpəşdirən xışıltıya sarı cumaraq kərtənkələni, koramalı, ilanı tutaraq yerdən qaldırıb başını sürətlə sağa – sola silkələyərək, tutduğunu gic edir, yerə salaraq, bədənini bir neçə yerdən dişləyib xırçıldadaraq leşini qoyurdu.

Tarix anası, bacısıyla gövşənə gedəndə Qardan da onların dalısınca düşüb gedir, sevincdən atılıb düşür, gah irəli, gah geri qaçırdı. Bacısı Qardanı tutub saxlayır, gözlərini əliylə örtür, Tarix qaçıb uzaqlaşaraq bir yerdə gizlənirdi. Qardan bacısının əlindın buraxılcaq Tarixin getdiyi yerləri addımbaaddım iyləyə - iyləyə, havanı imsinə - imsinə özünü ora – bura vurur, yekə bir gilas ağacının başına dolanır, birdən başını qaldırıb Tarixi görəndə sevincindən atılıb - düşür, hürür, qabaq ayaqlarını qaldırıb ağacın gövdəsini cırmaqlayır, sanki "Tapdım, tapdım!" – deyə bildirirdi.

Bəzən çöldə Tarix anasıyla bacısından ayrılanda yazıq Qardan çətin vəziyyətdə qalır, onlar bir – birindən uzaqlaşdıqca, Qardan bir az Tarixin dalısınca gedir, birdən dayanır, geri qayıdaraq qaçıb Tarixin anasıgilə sarı qaçıb, sevincdən çox nigarançılıqla gah sağına, gah soluna keçir, azca irəliləyəndən sonra yenə duruxur, tərəddüd keçirir, zingildəyərək onları saxlamaq mənalı, yalvarışlı baxışlarıyla geri

qaytarmaq istəyir, bir də geri dönüb Tarixə tərəf qaçır, ancaq bu dəfə o, getdikcə bir – birindən uzaqlaşmaqda olan bu doğmaların aralandığı məsafənin tam ortasında dayanır, narazı – narazı, peşman – peşman, başını gah sağa, gah sola tutaraq hürür.
Onlar gözdən itəndən sonra Qardan son seçimini edərək sürətlə Tarixə sarı qaçırdı.

Ötən illərdən fərqli olaraq bu il kəndin köpəklərindən başqa qonşu kəndlərin hansındansa, bəlkə hansısa sürünü qoruyan, az qala birillik dana boyda hündür, qolları pələng qolları kimi uzun, qüvvətli, başı şir başı kimi yekə, nataraz bir heyvan Qardanın dalısınca, ondan azca aralı isə kəndin köpəkləri sıraya düzülərək camaatın evlərinin qabağındakı baxçaların dan gecə - gündüz bilmədən, bəzən boğuşa – boğuşa, didişə - didişə, al qana boyanmış halda ötüşürdülər.

Kəndin iki qaynaqlı, seçmə itini boğub haldan salandan sonra bu əcayib heyvanın gücünə bələd olan kəndin köpək sürüsü daha Qardana yaxın düşə bilməsə də, hansı ümidləsə bu mərasimdən aralana bilmirdilər.

Bəzən yaddaşsızlıqdanmı, bəlkə də istəyi, ehtirası qorxusuna güc gəlmiş köpəklərdən biri Qardana yaxınlaşanda, nataraz köpəyin göy gurultusuna bənzər bircə ağız hürüşü bütün köpək sürüsünü bir addım geriyə sıçradırdı. Bu səsə alışmayan adamların, evlərində olanda belə canına vic-vicə düşürdü. Keçən illərə nisbətən kürsəyə gələn bu it xılıyla bağlı dolaşan söz-söhbət, uydurulan əhvalatlar, atmacalar, zarafatları artıq Tarix sinirə bilmir, tay – tuşuyla sözləşir, bəzən yumruq davasına çıxırdı.

Ancaq Tarix camaatın ağzını bağlaya bilmirdi. İt sürüsünün boğuşmasına, yüz cür oyundan çıxmasına adamların bəzisi açıq – aşkar, bəziləri gizli – gizli maraqla baxsa da hamı deyinir, etirazını bildirirdi. Kənddə “yola yaxın” kimi tanınan gənc qadın, bir yerə yığışıb it sürüsünə həvəslə baxan, bəzən onları daşlayan yeniyetmə oğlanların yanından keçərkən (halbuki o, adamlardan aralı da ötüb keçərdi) başını aşağı salıb gülümsünərək – Canı yanmışlar, o boyda gövşəni, çölü buraxıb gərək camaatın gözünün qabağında oyun çıxarasınız... – deyib ötdüyünü eşidən ağızdan pərtöy bir kişi - Ə Tarix, yazığın gəlmir qancığınıza, o boyda xılın cavabını necə verəcək – deməsi, başqa birisinin – Qancığınızı sal tövlənizə də, görmüşük hər qancığın bir əri, bir köpəyi olar... Bağışla məni, sizin qancığ qəhbədi... Hünəriniz çatmır tərbiyə eləməyə, qovun getsin. Dədən də buna göz yumur...

Qabaqdan Qardan, onu daban – dabana izləyən pələng biləkli nataraz köpək, onlardan azca aralı ağızları bir şeyə çatmadığından bir – biriylə boğuşmuş, qarpışmış it xılı gecə - gündüz bilmədən həyətdən həyətə keçib, bağçadan – bağçaya adlayaraq yenə gəlib Tarixgilin qapısından azca aralı tut ağacının altında qaynaşırdılar.

Başqa vaxtlar Tarixin səsini uzaqdan eşitcək, hənirtisini duycaq yerindən götürülüb

qabağına qaçan, sevincindən atılıb düşən, yeyin – yeyin quyruğunu bulayıb əlini ayağını yalayan, zingildəyib yalmanan Qardan, küçəyə sarı açıq pəncərədən əlini yelləyib onu səsləyən Tarixi indi nə görür, nə də eşidirdi.

Eşşək boyda boz köpəyin ağırlığına tab gətirməyib Qardanın incə, uzun dal ayaqlarının yavaş – yavaş büküldüyünü Tarix görəndə o, eşiyə çıxıb itləri, daha doğrusu, o nəhəng boz köpəyi daşa bassa da, itlər saymazcasına yerlərindən tərpənmədi, köpək işinin başlanğıcını bitirəndən sonra Qardanın üstündən düşdü , ehtiyatla geri çevrildi. Yerini rahatlamaq üçün bəzən irəli, bəzən geri bir – iki addım atanda, köpəyin qıçları, qolları uzun olduğundan bəzən Qardanın dal ayaqları yerdən üzülərək göydə qalırdı.

Küçədən keçən adamların səsini eşitsək Tarix pəncərənin önündən geri çəkildi. Çəpərdən boylanıb bu mənzərəyə baxanlardan hansısa – Vay dədəm vay!.. Olmuya bu nataraz köpəyi Nurgizin özü tapıb gətirib – dedi. Tarixin tanımadığı başqa bir səs – Nurgizi səslə bayıra çıxsın, qancığın ayaqları göydə qalıb. Deynə, ya qancığına öz tayını tapsın, ya da balaca stuldan, mütəkkədən – zaddan gətirib qoysun onun ayaqlarının altına. Heyvan olanda nə olar, yazıqdı axı... Üçüncü səs – Elə bilirsən Nurgizin xəbəri yoxdu. Mərc gələk, bu dəyqə evlərinnən ailəlikcə bu mənzərəni seyr edirlər. Ancaq hərəsi bir deşikdən. Nurgiz televizora baxmır, kinoya getmir. Bir ildi səbirsizliklə bu pulsuz konserti gözlüyür. Əslində qancığın həyətbəhəyət qastrola çıxıb tamaşa göstərməsinə görə Nurgizə hamınız pul yığıb verməliyik...

Məktəbin küçə tərəfdən divarına yapışdırılmış ağ vərəqdə qırmızı qələmlə çap hərifləriylə yazılmış “BİLDİRİŞ”də (görünür, yazan adam xəttinin tanınmasından ehtiyat etdiyindən çap hərifiylə yazıb) “Hörmətli kənd sakinləri, kəndimizə gəlmiş səyyar truppa indən belə bir həftə də davam edə bilər. Bütün teatrlardan fərqli olaraq bu truppa hər bir evin qarşısında tamaşasını pulsuz göstərir. Unudulmuş evlərin sakinləri yazılı ərizə ilə truppanın bədii rəhbəri və pradüsseri Nurgiz kişiyə müraciət edə bilər.

Tarix “pradüsser” sözünün mənasını kimdənsə soruşmağı özünə sığışdırmır, ancaq dədəsinə aid edilmiş bu sözün yaxşı olmadığını fəhmən duyurdu. Onu da dəqiq bilirdi ki, BİLDİRİŞ kolxoz sədrinin doğmaları, yaxınları tərəfindən yazılıb. Dünən kəndin boş-bekar kişiləri, avara uşaqları Tarixgilin həyətlərindən azca yuxarıdakı baxçada səf bağlayıb cürbəcür oyun çıxaran it xılına baxır, kimisi onlara daş, kimisi söz atırdı. Atılan daş, çınqıl, ağac kəsintilərinin bəzisi itlərə dəyir, bəziləri onların yan-yörəsinə düşürdü. Qəribəsi bu idi, itlər onlara atılan daşlara nəinki məhəl qoyur, dayandıqları yerdən tərpənməməyi bir yana, neçə gündən bəri ac-susuz qalmalarının heç fərqində də deyildilər. Ancaq iş burasındaydı, hər hansı bir itin, yaxud it sürüsünün ünvanına deyilən istər birbaşa, aydın, istərsə də eyhamlı deyilən sözlərin hamısı Tarixin ürəyinə bıçaq kimi batırdı. Kəndin yuxarı başından bu maraqlı tamaşaya gəlmiş carçı Xalid - Ayə, bir

şeyə məəttələm, bu abırsızlar o boyda gövşəni, çöllüyü, dağı – dərəni, qoyub niyə gəlib camaatın gözünün qabagında... kimsə onun sözünü kəsərək – A qardaş, heç olmasa sən ağzını yum, səni bura dəvət eliyən var?.. Hazırcavab çarçı onun sözünü ağzında qoyub – eşitdim Nurgizin qancığı kəndin köpəklərini bəyənməyib, özünə yeni, zırpı bir adaxlı tapıb. Gəldim kürəkəninizlə tanış olum...

Bizim kürəkən niyə olur?

Axı qancıq həm də sizin toyuqları tülküdən qoruyur...

Günün hansı vədəsi hara baş alıb getdiklərini bəlkə də bilmədən (bəlkə də bilən! ) həmişə öndə gedib dalısınca bir – birinə sanki zəncirlənmiş sürünü dartıb aparan, kənddə hissiyyatlı, dilbilən kimi tanınmış Qardan sanki yuxarıdan onlara maraq və həvəslə tamaşa edən Xalidin sözünü eşitdiyinə görə yuxarı baxçaya sarı dırmaşmağa başlayanda həyacan, qorxu səsləri bir – birinə qarışmış adamlar götürülüb yaxınlıqda olan dul Gülbəstinin bir gözlü darısqal evinə təpilməyə başladılar.

Şalvarının balağı qısa kəsilmiş qarğıdalı gövdəsinə ilişib üzüstə yerə yıxılan kolxoz sədrinin on üç yaşlı tosqun oğlu geri qaldığından, qorxudan səsini içinə çəkərək xısın – xısın ağlayıb özünü bir pillə hündürlükdə olan Gülbəstinin eyvanına yetirəndə, ondan üç-dörd addım aralı, həmişə quyruğunu paçalarının arasına qısaraq sürünün kölgəsincə taytıyan, çox vaxt adamların diqqətini çəkməyən tülküyə bənzər balaca it, qapıdan içəriyə itələşən adamların arxasında, üzü evə tərəf olan ucaboy bir kişiyə sığınmış sədrin tosqun oğlundan iki addım ötüb keçəndən sonra sakitcə qayıdıb onun yançağını dişləmiş, uşağın qışqırığından, adamların hay – küyündən supuxaraq qaçıb öz stixiyası ilə irəliləyən sürünü də ötüb keçmişdi. Rayondan həkim gəlib çıxanacan özlərini günahkar bildiyindən Nurgiz, bir il öncə ulas ağacının koğuşundan kəsib gətirdiyi, indiyəcən dərman üçün çanaxda saxladığı iki kiloyacan meşə balının hamısını (Nurgizin arvadı yara – xoranı, qan çıxan bütün yaraları, gözdəki qızartıları, yüz dərdin dərmanı bildiyi təmiz meşə balıyla müalicə edirdi.) götürüb arvadıyla kolxoz sədrigilə gəlmiş, sədrin, onun arvadının, qohumlarının, sədrə yarınanların gileyi, danlağı, acı sözlərinin heç birinə cavab verməyib susduqlarına görə sədr polis çağırmaq fikrindən daşınmışdı.
Sinfin sonuncu partasında oturmuş, sol qaşında çapıq yeri olan oğlanın – Müəllim, Siz bilərsiz, “pradüsser” sözü nə deməkdi? – sualına Tarixdən başqa hamı güldü. Uşağın nəyə eyham elədiyini müəllim özünü bilməzliyə qoyaraq, ciddi şəkildə sözün mənasına aydınlıq gətirdi, qaşı çapıq oğlan – Aydındı, sağ olun müəllim – deyib oturdu, öz – özüylə danışırmış kimi - belə çıxır ki, o heyvərə iti Tarixin dədəsi gətizdirib... – söylədi, hirsini cilovlaya bilməyən Tarix geri çevrilib ucadan – Düşüy oğlu düşüy, deyəsən sağ qaşının çapığı əysiydi!?.

-Ancaq dədənin yerində olsaydım, teatrı pullu eliyərdim, gələn il oxumağa

gedəssən, sənə kostyumnan, qalustukdan – zaddan alardı...

-Deyəjəm pullu eləsin, bir donnuq da anana alsın...

Sol qaşı çapıq oğlan ayağa qalxdı, - Binamusun biri... Ananın, bajının gözü qabağında qancığınız nə oyun çıxarır, hələ danışmağa dilin də var...Puldan artıq qalsa bajına lifçik alarsız...

Yoldaşları qabağını kəsdiyini görəndə Tarix gözlənilmədən yuxarı qalxıb partaların üstüylə bir göz qırpımında özünü oğlana yetirib sifətinə gücü gəldikcə bir təpik ilişdirdi, əlbəyaxa döyüşdə oğlanın burnundan qan açıldı, gözlərinin altı qaraldı, Tarixinsə yanağında iki qirmızı xətt - cırmaq yeri qaldı, pencəyi, ağ köynəyi qana bulandı.

Tarix iki gün dərsə getmədi, kəndin arasına çıxmadı, üçüncü gün idman müəllimini yeni tikilməkdə olan adam boyu qalxmış divarın üstündə gördü. Ondan "osevyaxın" tüfəngini istədi, müəllimin razılaşmadığını görəndə Tarix ilan dili çıxarıb yalvardı, məktəbə gedə bilmədiyini, kənd arasına çıxammadığını, söz – söhbətin, dedi – qodunun, bitib tükənmədiyini, yeni – yeni lətifələrin uydurulduğunu söylədi. Bir həftə gəlib tezdənnən axşamacan tikinti işində kömək edəcəyini dedi. Sonda müəllim – Balamın canı, Tarix, verərəm, sənə arxayınam, quşu dimdiyindən vurmağını da bilirəm, özüm öyrətməmişəm? Ancaq məndə bircə dənə patrondu...

Tarix, müəlliminin razılığa gəldiyini görüb sevincək - Müəllim, qadan alım, elə mənə bircəsi bəsdi. Bu söz – söhbət o zırpı itlə bağlıdı, onu gəbərdəcəm...

Tarix adamlarla üz – üzə gəlməmək üçün it xılının sorağıyla bağçaları bir- bir gəzmədi, divar dibi, kol - kosluqla əyilə - əyilə gedib kəndin qənşərindəki təpənin başına qalxdı, kəndin evləri, həyət – bacası, toyuqları belə ovuc içindəki kimi aydınca görünürdü. Dəyirmandan iki zəmi yuxarı soğanlıq deyilən yerdə itlərin qayır – qayır qaynaşdığını gördü. Dayanmadan başaşağı götürüldü. Soğanlıq deyilən yer də dul Gülbəstinin bağçası kimi qəlbidəydi. Tarix güllə atarkən it xılının ona hücum edəcəyindən ehtiyyat elədiyinə görə bir yanı "Soğanlığa" bitişik zəminin qırağındakı qocaman gilas ağacına dırmaşıb yerini rahatladı. Qaçaraq gəlib ağaca dırmaşdığındanmı, kənddən aralı yerdə, günün batdığı vədəsində gözlərini qan tutmuş it sürüsünün zəhmindənmi, bircə gülləsinin boşa çıxa biləcəyi qorxusundanmı, Tarixi həyacan bürüdüyündən "nəfəsimi dərim" düşündü. Qardanla eşşək boyda olan boz köpəyin arxaları yenə bir – birinə söykəliydi, Qardanın dal ayaqlarının ikisi də bəzən yerdən azacıq üzülür, bir andan sonra gah sağ, gah da sol ayağını yerə qoyub dincəldiyini görəndə Tarix neçə gün qabaq baxçalarının çəpərindən boylanan kişilərdən hansınınsa "Nurgiz bilsəydi, stoldan, mütəkkədən gətirib qancığının ayağının altına qoyardı" dediyini, dədəsiylə anası gedib kolxoz sədrinin evinə yığışmış adamların danlağı, xüsusilə kənd

hesabdarının “Adam arvad ürək olmaz ! Kişiliyin çatmır onu rədd etməyə! Arvad-uşaq bir yana, kişilər də eşiyə çıxmağa qorxur” dediyi sözlərdən sonra dədəsinin yazıq – yazıq “Kim bacarır öldürsün, etirazım yox. Mənim bir madar oğlum var, qarğışdan qorxuram...” dediklərini xatırladı. Tarixin ürəyinə bıçaq kimi saplanan söz isə qaşı çapıq sinif yoldaşının bütün uşaqların içində “bacına lifçik alarsız” sözlərini xatırlayanda, boz köpəyi vurmaqla kürsəyin bitməyəcəyini dərk etdiyindən bayaqdan nişana aldığı hədəfi, dəyişərək tüfəngin lüləsini azca sola tuşlayaraq tətiyi çəkdi, Qardan acı – acı zingildəyib başını bir neçə dəfə sağa – sola çevirdi, qabaqca əlləri, sonrasa yavaş – yavaş dal ayaqları bükülüb yerə sərələndi. Boz köpək isə qəfildən baş verən hadisəni anlamadığından, gah sağa, gah sola çevrilib hürdü, bədəni aşağı dartıldığından ağrıya dözməyərək zingildəyə - zingildəyə yerə çökdü.
Səhər saat altıda metro işə düşəndə Tarix özünü “Gənclik” metro stansiyasına yetirdi, o vaxtkı “ Bakı Soveti ” adlanan stansiyadan çıxıb Lökbatana gedən avtobusa mindi, səkkizin yarısında evlərinə çatdı, qapıları bağlı idi, səsə çıxan qonşu, anasının Semaşko xəstəxanasında yatdığını, bir həftə qabaq ona yoluxduğunu, bu günlərdə xəstəxanadan çıxacağını söylədi.

Tarix anasının xəstəxanadan çıxmağa hazırlaşdığını biləndə sevindi.- Deyirsən on beş gündə Narıngül bircə yol da yanına gəlməyib?- soruşanda anası- Ağrın alım, mənim yanıma gəlməsi lazım deyil, o uşağın bağrı çatlayacaq. Baxçaya getmişdim. Dedilər bu uşağın yiyəsi yoxdu bəyəm? Günlərlə baxçada qalır. Anası hara gedir onun işinə qarışammaram. Heç olmasa gedəndə uşağı gətirib yanıma qoysun. Mən haçandan düşmən olmuşam? Bircə nəvəmi mənə ehtivar eləmir... Ay bala, Allah səni hardan yetirdi. Evimizə getməyə gözüm yemirdi...

Anasını evlərinə qoyandan sonra oğlunun baxçasına getmək istədi, “ bəlkə ”Narıngül gəlib... gəlibsə yəqin “ dostları ” onun qayıdışını qeyd edirlər. Narıngülün işlədiyi binanın girişindəki gözətçi ilə Tarixin sözü tutmadı. Gözətçinin “kim lazımdı?” sualı Tarixin xoşuna gəlmədi, - Tanışım, qohumum var, görmək istəyirəm – desə də gözünü qəzetdəki krasvord xanələrindən çəkməyən, nəhəng ətli bədəni kreslosuna sanki güclə pərçim olmuş, saçını boksçu sayağı vurdurmuş, üzü tər – təmiz qırxılmış, dezodarant qoxusu uzaqdan adamı vuran, qısa qol, bəmbəyaz köynəkli oğlan- Dedim kimin yanına gedirsən?- söyləyib əlini telofana uzadaraq Tarixə baxdı. – O adam səni gözləyirmi? Görüşmək istədiyini ona xəbər verməliyəm.- dedi. Tarix azca gülümsünərək – Döyüş bölgəsinən gəlmişəm, istiyirəm sürpriz olsun - söylədi. Gözətçi əsəbiliklə telefonun dəstəyini yerinə qoydu, qələmi əlinə alıb xanələrin üstüylə gəzdirə - gəzdirə - Gündə bir kənd, bir rayon verirsiz. Düşmənə qalib gəlsəydiz onda sürpiriz olardı – dedi. Tarix hirsini uddu – Əsgərlikdə olmusan? Xəbərin varmı, tabeliyimdə on iki əsgər var. Onların hər birini sənin kimisinin onuna dəyişmərəm. Səni burda qaraltı üçün qoyublar. Acizləri, fağırları buraxmaya bilərsən. – deyib Tarix yayından çıxmış ox kimi oğlanın yanından ötüb onmu - on beşmi pilləkəni bir göz qırpımında qalxaraq dayandı, gözətci əllərini masaya dirəyib ayağa qalxdı, gülə - gülə - Qoçaq əsgər

olduğuna inandım. Sənədini ver, qanuni olsun. Əsgərlər qanunu sevir axı! Qadan alım, mənim də üzümə söz gəlməsin. Polis çağıraram sənin üçün də yaxşı olmaz – deyib pilləkənlərin ayağına yaxınlaşdı. Tarix pilləkənləri enib sənədini ona sarı uzadanda, gözətci onun biləyindən bərk – bərk yapışıb qapıya sarı dartdı. Tarix yekəpərin həm gücünü hiss etdiyindən, həm də buraya yenə gələcəyini düşünərək ona müqavimət göstərmədi. Gözətci Tarixi itələyib qapıdan çölə saldı - Tülüngünün biri, tülüngü! Bir də səni burda görsəm qolunu qıracam. – Tarix acı – acı gülümsünərək – yekəliyin haramın olsun. Get krasvordunla məşğul ol...

Tarix əzilmiş, təhqir olmuş ovqatla yeriyir, "bu dinc, sakit şəhərdə mənim başım işləmir, bura mənim üçün yad ərazidir, buranın qayda – qanunu bambaşqadır... dağ-dərə, qayalıqlar, qaranlıq gecələr, qalın meşələr, dumanlı, leysanlı havalar mənim doğma yerimdi." Düşüncələr içində addımlayanda birdən üçüncü mərtəbənin balkonuna uzanmış çinar budağını görəndə sağına soluna baxıb " kim kimin işinə qarışır bu şəhərdə..." düşünərək sanki dəfələrlə gördüyü, bildiyi işi təkrar edirmiş kimi pişik cəldliyi ilə bəyaz, şümal gövdəli çinara dırmaşıb balkona uzanmış budağın üstü ilə tırtıltəkin süründü, budaq balkondan çox hündür olduğundan ordan düşməyə gözü yemədi, əsgər qayışını açıb uzatdı, budağın boynuna salaraq qayışın uclarından yapışaraq sallandı, həmişə çətin, dar məqamlarda ağlı yaxşı işlədiyi kimi, indi də anladı ki, qayışın dəmirli ucu başına dəyməsin deyə dəmirsiz ucunu tutan əlini açaraq ayaq pəncələri üstə yay kimi balkona düşdü. Tez kəməri belinə bağlayıb üst-başını səliqəyə saldı. Balkona açılan şüşəli qapı arxasından ona təəccüb, çaşqın və həyəcanla baxanlara gülə-gülə "dostlarım papağımı atdılar, budaqda ilişib qaldı" deyib yola sarı çevrilərək gülə-gülə "gəlirəm" dedi. Tarix otaqdan sakitcə keçib dəhlizə çıxdı, binanın dördüncü mərtəbəsinə qalxdı.

Fasilənin qurtarmasına az qalırdı. O, arvadının işlədiyi qapını açıb başını uzadaraq salam verdi. Otaqda öz qadınından başqa hamı yerindəydi. Qabaqlar Tarix əsgər formasında qapını açıb otağa girəndə hamı onu səs-küylə, gülə-gülə qarşılar, kefini soruşar, cəbhəylə bağlı sorğu-suala tutardılar. Tarixə görə, çavuş rütbəsini qazanandan sonra onu daha mehriban, daha isti qarşılamalıydılar. Ancaq bu dəfə onun salamını təkcə direktor müavini aldı, o da çox soyuq şəkildə. Direktor müavini qarşısındakı kağıza baxa-baxa Narıngülün Dubaya getdiyini bildirəndə - Bilmirsiz nə vaxt gələcək?- Tarixin sualına direktor müavini dodağını büzərək – Allah bilir... Əslində üç gün bundan qabaq işdə olmalıydı.- deyəndə yeməkdən sonra masanın üstünü yığışdıran qadının gülməyi və gülməyini gizlətmək üçün başını yana çevirməyi Tarixin gözündən yayınmadı. Qadının istezalı gülüşünü yaxşı yerə yozmaq niyyəti ilə qırmızısifət, yaşlı kişi – Uzaq səfərdü... Bilet tapmaya bilər. Yüz səbəb ola bilər. İnşallah gəlib çıxar... Gülgəzin dediyi gözlüklü, sarışın oğlan kompüterdə nəsə yazırdı, gözünü monitordan ayırmadan, sanki kompüterlə danışırmış kimi astadan – Neçə gün burdasınız?- soruşdu. Tarix cavab vermədən müdirlərinin adını unutduğundan – Direktor hardadı?- soruşdu. Yaşlı kişi – Sənin qabağınca çıxdı, yerindədi, kabinetində...

Qapını açıb bir addım ataraq dayandığı zaman hər səhər ülgüclə tərsinə qırxdığından şümal üzləri par-par yanan ərgən, ucaboy oğlanlardan qıvrımsaçın tələsik onun yanından keçib çölə çıxması, özünü qız kimi ərköyün, nazlı aparan o yaşlı qadının eyhamlı, sirli gülüşü, onun gülməyini ustalıqla ört-basdır etməyə çalışan gənclik şövqüylə yaşayan yetmiş yaşlı ağsaçlı, qırmızısifət kişinin bicliyi, kompüter arxasında soyuqqanlı əyləşib nəsə yazan çeşməkli oğlanın saymazlığı, salamını alsa da Narıngülün yarıaçıq sinəsində yumru döşlərinə tuşlandığından baxışlarını rezin kimi güclə dartıb ayıran qaraqabaq direktor müavininin yad görkəmi ağır yük kimi Tarixin çiyinlərindən aşağı basırdı. Axı o, qabaqlar bir dəfə fasilə vaxtı əsgər paltarında bu otağa girəndə, Narıngülün həyat yoldaşı kimi, bəlkə daha çox Azərbaycan əsgəri kimi onu urrayla qarşılamışdılar, məclis yenidən qızışmış, əlavə içkilər gətirilmiş, dönə-dönə onun sağlığına badələr qaldırılmışdı. “Bu şəhər mənim yerim deyil. Heç nə başa düşmürəm.

Cəbhə bölgəsindəki hörmətimi, döyüşdə elədiklərimi, Narıngül bunlara danışmayıb... Bəlkə çavuş olduğumu da bilmirlər. Bircə onu bilirlər arvadı... Arvadını-namusunu qoruya bilməyən Vətənini qoruya bilərmi?.. Mən mağmun elə bilmişəm əsgər ailəsinə-qadınına hamı bacı, evlad gözüylə baxır. Yaxşı, bu dəfə avtomatla qayıdaram...”

Gözətçinin (yenicə vurulmuş, yağlanıb par-par yanan saçının, sanki xətkeşlə çəkilərək ayrılmış dümdüz ağaran ivi Tarixi daha çox əsəbiləşdirirdi.) yanına beş-altı addım qalmış “yəqin bu da Narıngülə söz atır, girişir, bəlkə lap...” Tarix ucadan: - Birinci sənnən başlayacam! Postda yatmaq olmaz!- deyib yeyin-yeyin gəlib onun yanından ötdü. Qapıdan çıxhaçıxda çevrilərək şəhadət barmağını öz başına çəkərək – Güzgüyə bax, ivində bir tük əyilib, düzəlt – deyib qapıdan çıxdı. Gözətçi çaşqın halda onun arxasınca baxa-baxa qaldı.

Qızılı çərçivəli tünd qara eynəkli, qara boyalı qalın saçlı, çiyinlərinə qədər sallanmış çoxfiqurlu qızılı sırğalı, ətli biləklərinin birində mis, birindəsə qızıl bilərzik, qara ipək donlu, iri yançaqlarında alt geyiminin qövsvari xətləri aydınca seçilən, dirəyə bənzər yoğun ayaqlarını güclə çəkib “ŞEVROLYE” maşının sükan tərəfdən olan qapısını açmaq istəyən baxça müdiri Tarixin yaxınlaşdığını görəndə dayandı, onun salamını almadan- Sən Namiqin papasısan?- soruşdu, Tarix başını tərpədərək yenə salam verdi, baxça müdiri hökmlü, bir az narazı, incik, bir az da ərkyana ədayla- Belə olmaz axı, oğlunuza niyə sahib durmursuz!? Bura axı birnövbəlidi. Namiqi əsgər uşağı kimi hamı sevir. Tərbiyəçi neçə dəfə gecələr götürüb evinə aparıb. Bir dəfə xəstələndi, uşaq tək qalıb gecə səhərəcən ağlayıb əsməcəli olub. Onun maması kimi soyuq, biganə, əhlikef, nə bilim... qadın görməmişəm...

Namiq balaca əlləriylə özündən də balaca qız uşağının mindiyi yelləncəkdən yapışıb balaca addımlarıyla qaçaraq onu irəli itələdi, yelləncək geri qayıdanda

Namiqin ayaqları bir-birinə dolaşıb yıxıldı. Ağlamaq istəyəndə Tarix özünü yetirib onu qaparaq qucağına aldı, bağrına basaraq o üzündən, bu üzündən öpdü. Namiq dodağı büzülmüş halda bir an donub qaldı, başını atasından aralayıb onu süzdü, birdən iki əlləriylə atasının üzünü tez-tez şapalaqlayaraq ağlamağa başladı, gözlərindən yaş axa-axa- Sən də pissən! Ana da pisdi! Məni apar! Apar! Apar!- deyib birdən atasının boynunu qucaqlayaraq bərk-bərk sıxdı, ağladı,ağladı, içini şəkib hıçqırdı. Tarix oğlunun kürəyini sığallayaraq –Hə, aparıram, ağlama, dəy bura gətirmiyəcəm. Gedək sənə konfet alacam, pirojni alacam, dondurma alacam. Di ağlama, nə istəsən alacam. Sora da nənənin yanına gedəciyiy. O səni çox istiyir...
Briqada komandiri Tarixin siqaret çəkmədiyini bilsə də, ona siqaret uzatdı, alışqanıyla onun siqaretini yandırdı. Tarix bir qüllab vurandan sonra dili açıldı, ancaq bu müddət ərzində ağlından gəlib keçənlərin heç birini komandirə danışmq, başına gələnləri anlatmaq əvəzinə -Cənab kapitan, mənə bircə dənə "limonka..." Yox, avtomat lazımdı... Hamısını dənliyəcəm...

Kapitan Tarixin üzünə baxmadan- Başa düşdüm... Ancaq...- deyib susdu.

-Cənab kapitan, qəti qərara gəlmişəm, birdən məni fikrimdən döndərmək ağlınıza gələr?..

-Tarix, səni bəlkə də mənim qədər heç kim tanımır. Onu da bilirəm, razılaşmasam, qadağan eləsəm də, sənin ağlına gəlibsə, fikrindən dönən deyilsən. Mən sənə limonka, avtomat verməsəm, inanıram, sən bunları gedib gavurlardan da əldə edə bilərsən. Postlardan da keçirib apara bilərsən. Ancaq sonda sən ya tutulacaqsan, ya da öləcəksən... Elə bilmə öz hayımdayam, arxa- köməyimi itirmək istəmədiyimə görə deyirəm. Bəs qoca anan, bəs Namiq...

Tarix oğlunun balaca əlləriylə onu şapalaqlamasını xatırladı, "ana da pisdi, cən də pissən" dedikləri qulağında səsləndi, boynunu bərk-bərk qucaqlayıb Bayıl döngəsinəcən qollarını açmadığını, için-için ağladığını, hıçqırdığını duydu, yuxuya gedəndən sonra boşalmış qollarını yenidən hiss elədi.

Briqada komandiri siqaretini sonuncu dəfə sümürüb kötüyünü masanın üstünə basaraq burmaclayıb keçirdi, yenə də Tarixin üzünə baxmadan - Onu gətirə bilərsənmi bura?- soruşdu, Tarix komandiri təəccüblə süzərək- Necə bəyəm? – dedi.

-Dərənin birində başına bir güllə, vəssalam... Səni görməyə gəlibmiş. Düşmən ğülləsinə tuş gəlib... Bunu üçüncü adam bilməməlidi.- deyib komandir yenidən siqaret yandırdı. – Bizim alnımıza burda(!) ölmək yazılıb. Murdarların içində ölməyini, türmədə çürüməyini istəmirəm. Biz and içmişik axı. Düşmənnən Faiqin, Zaurun, Aydının intiqamını almalıyıq... Bəlkə bütün azərbaycanlılar məni şərəfsiz, qeyrətsiz sayar. Mənə görə torpaq, Vətən namusu, Vətən şərəfi, ailə- qadın

namusundan üstündü...

Çavuşun fikrə getdiyini, dediklərinin ağlına batdığını hiss edən briqada komandiri – Tarix...-deyib bir an susdu, yenə acgözlüklə siqareti içinə çəkib çölə üfürdü, - Bəzən adam özündəki gücü, nəyə qadir olduğunu, öz dəyərini özü də bilmir. Siyasətdə olduğu kimi idmanda, iqtisadiyyatda, incəsənətdə bir adam – bir şəxs gözlənilmədən ağılagəlməz çevriliş edir...

Yox, mən başqa şey demək istiyirəm. Güləşçi, balerina, kəndirbaz, nə bilim, sirk ustası aylarla, illərlə məşq edib öyrəndiyi-mənimsədiyi bir fəndi, tryükü asanlıqla göstərərək adamları heyrətləndirir. Ancaq döyüş-hərb sənəti bambaşqadır. Döyüşçü hər dəfə gözlənilməz, bilinməz yeni ölüm vəziyyəti ilə qarşılaşır. Tarix, səmimi sözümdü, sənin gənc yaşında döyüş bacarığın, yaşlı palkovnik kimi məni heyrətləndirir. Sən əsl igid, əsl qəhrəmansan! Buna görə də mən bir albay, briqada komandiri kimi yox, səni sevən bir ata, bir böyük qardaş kimi, avtomatla şəhərə getməyini heç vaxt istəməzdim...

Komandiriin son sözlərindən sonramı, Narıngülün döyüş bölgəsinə gəlməsi məsələsimi, iki gündən bəri qəlbini deşən, çiyinlərindən ağır yük kimi aşağı basan o murdar əhvalatın ucundan-qırağından komandirə danışıb ürəyini boşaltdığındanmı, yoxsa tut arağının təsirindənmi Tarix nisbətən yüngülləşdi. Ancaq o gün komandirdən ayrılandan sonra gecə yarısınacan Narıngülü cəbhə bölgəsinə gətirmək haqqında düşündü.

O, ikimi, üçmü gündən sonra komandirdən bircə günlüyə icazə alıb (komandirin icazə verəcəyinə inanırdı) yenidən Bakıya qayıdır, bu dəfə arvadının işlədiyi binanın girişində ağır, ətli bədəni ilə kreslosuna pərçim olmuş gözətçiyə Narıngülün yanına getmək istədiyini bildirir, sənədini ona verib sakitcə dördüncü mərtəbəyə qalxırdı. Keçən dəfəki əhvalatı xatırlayır, yekəpərin tərsliyi tutarsa, yenə buraxmaq istəməzsə...

Narıngül haqqında bəzi şeyləri bilərsə, bəlkə onun özüylə də yaxın münasibəti olubsa, buna görə də onu sarsaq, eyhamlı suallarla haldan çıxararsa, lağa qoyarsa... Yaxşısı budur yenə üçüncü mərtəbənin balkonuna uzanmış çinarın budağıyla... Bu dəfə otaqdakılara nə uydurum... O əhvalatdan sonra çinarın budağını kəsiblərsə?.. Tarix onuncu sinfi bitirəndən sonra rəngsazlarla işlədiyi vaxtları xatırladı. Təzə tikililərdə işləyən rəngsazlardan köhnə plasmas boya vedrəsi, işlənmiş-yararsız bir fırça, bir də rəngbərəng ləkəli, çirkli bir köynək alaram... Fəhlələrin, ustaların çoxu əsgər paltarı geyir... Qarşıma çıxan qaldırıcı maşınlardan birini saxlayar, on beş-iyirmi manat verib qapı bağlanıb, ikicə dəyqiyə məni balkona qaldır, çıx get deyərəm... o Narıngül olan otağın qapısını döymədən, saymazyana açır, başını içəriyə uzadaraq bu dəfə kiməsə salam vermədən, kiminsə üzünə baxmadan Narıngülü bayıra çağırır.

Yox, sonra baş verən əhvalatlara görə... mən iş yoldaşlarının yadında hirsli, əsəbi qalmamalıyam. Gülümsünərək hamıyla salamlaşmalı, soyuqqanlı Narıngülü bayıra çağırmalıyam... Binadan çıxarkən gözətçiyə- Sənə demişdim axı ehtiyatlı ol. Sonuncu dəfə xəbərdarlıq edirəm, belə işləsən, burdan qovduracam səni... Bəlkə Narıngüllə evimizdə görüşək?.. Evdə o murdara yaxınlıq eləməsəm, şübhələnə bilər, barəsində nəsə duyduğumdan, nəsə eşitdiyimdən duyuq düşər. Bəlkə aldadıb aparmağım kişilikdən deyil? Axı, o da murdar əməllərini məndən gizli eliyib, məni gizlincə alladıb, xəyanət... Ən yaxşısı, zəngləşib "28 May Metrosu"nda görüşməkdi. "Vaxtım çox azdı, taksiynən gəl, pulunu özüm verəcəm..." Narıngülü inandırmaq üçün cibindəki iri pulların hamısını tək manatlığa çevirmək qərarına gəldi. Başı bağlı iki paçka manatlıq, elə cib xərcliyimi də manatlığa çevirməli. Özü də Tərtər rayon mərkəzinin bankında yox, Bakıdakı bankların birində.

Elə çamadanı da Bakıdan alaram. Görüşəndə tələsdiyimi inandırmaq üçün ondan saatı soruşaram. Vaxtım çox azdı, on beş dəyqədən sonra komendaturada olmalıyam deyib onun yanındaca taksiyə minməliyəm. Diqqətlə qulaq as, bu barədə heç kimə, heç kimə bir söz demirsən. İcazə al, iki günlüyə bu çamadanı götürüb yanıma gəl.

Özüm ora-burasını yerə sürtüb, bozartmışam, diqqət çəkməsin. Manatlıqdan olan iki paçkanı ona uzadanda özümü həyəcanlı göstərib hamısı bunnandı, çamadannan bir olacaq. Tərtərdə hamı bir-birini tanıyır, ona görə ordakı bankda boyütdürməkdən ehtiyat elədim, əsgərin bu boyda pulu hardandı, şübhələnərdilər. Səkkiz min beş yüzdü. Çamadanı götürüb avtobusla gəlib avtobusla da qayıdarsan.

Özü də bu görkəmdə yox. Lap xarici aktrisalara oxşayırsan. Bunu deyəndə gülümsəməliyəm. Dodağın da boyalı olmasn. Köhnə-nimdaş paltar geyinərsən. Di sağ ol, Namiqin üzündən öpərsən... Birdən Gülgəz Narıngülü yandırmaq üçün onlarda gecələdiyimi açıb deyər. Birinci Gülgəzi görməliyəm. Yox, elə indi Tərtərə gedim,

Gülgəzə zəng edim. "Əyər istəyirsən hər gələndə görüşək, onda aramızda olanları, sizdə qaldığımı, görüşdüyümüzü Narıngülə demə..."

Çavuş Tarix səhər tezdən briqada komandirindən icazə alıb telefonla danışmaq üçün Tərtərə yola düşdü.

**MİSMAR**

Ziya oğlunun əlindəki mismarı görəndə elə bil həmin mismarı onun beyninə çaldılar, baxışlarını oğlunun gözlərindən yayındıraraq deşilmiş şar kimi boşalmağa başladı.

“Məndən byük olsa da avam, savadsız bildiyim bacımın sözlərini, mənə son dərəcə sadəlövh görünən məsləhətini tkəbbürlü qarşılayıb qulaqardına vurduğuma görə Allah bir xəbərdarlıq kimi mənə bu cəzanı verdi...”.

Ziya qaranlıqda fızıllığa dağılmış muncuqları bir-bir axtarıb taparaq sapa düzürmüş kimi altı-yeddi saat bundan qabaq başına gələn ürəkbulandırıcı əhvalatı ardıcıllıqla xatırlamağa çalışsa da, köşkə bənzər mağazada işləyən satıcıyla olan dartışmanı, itələşməni dəqiqliyi, aydınlığı ilə heç cürə xatırlaya bilmirdi.

Gecəqondu evlərin birində yaşayan bacısı ilə onları həyətlərində görüşüb qurban payını verdi. Bacı yalvar-yapış eləyib onu beş-on dəqiqəliyə içəri keçib çay içməyə dəvət eləsə də, qardaş həmişəki kimi tələsdiyini bildirdi, bacı “istiyirdim sənə zəng eliyəm Gülaygilə gedək” - dedi.

Gülay onların balaca bacılarıydı, yenicə xəstəxanadan çıxmışdı. Bacısının sözləri Ziyanın ürəyincə olmadığından “Bununla mehribanlıq edəndə üz alır” - qardaş içində hirsləndi, özünü nə qədər təmkinli aparmağa çalışsa da, əsəbiliyi yenə də səsində duyuldu - Sən də məni boş-bekar sayırsan! Niyə oğlunla, qızlarınla, bacılarınla gedib görmürsən?! - dedi. Bacı günahkarcasına ancaq gülə-gülə “Onlar sözümə baxmır...” - söylədi.

Ziya yenə də əsəbi-əsəbi, bir az da təkəbbürlə “Vacib işim var, tələsirəm!” - deyəndə bacı mehriban, bir az da key baxışlarını qardaşından çəkmədən “Ən vacib iş elə gedib Gülayı görməkdi. ” - söylədi. Nəsihət kimi səslənən bu sözlər Ziyanı yenə hirsləndirdi, ancaq bu dəfə mülayim səslə “mən gedib görmüşəm” - dedi.

Bacı incik baxışlarla bir az da qardaşının hirslənəcəyindən ehtiyat edərək yenə də günahkarcasına “Axı, mən görməmişəm. Təzə evlərini tanımıram. Onda bir də de görüm, təzə evləri hardadı?..” Ziya balaca bacısıgilin köçdükləri təzə evlərinin yerini qabaqlar bir neçə dəfə ona başa salmağa çalışmışdı.

Hər dəfə bacısının naqolay sualları, keyliyi, anlamazlığı Ziyanı hövsələdən çıxarmışdı. O, bacısının yenə də gedib tapa bilməyəcəyini bilsə də, əsəbi-əsəbi iki dəfə həmin ünvanı yerli-yataqlı izah elədi.

Bacı sözləri uzada-uzada yastı-yastı “svetafordan o yana dönüm, yoxsa bu yana?” soruşanda qardaş bu dəfə hirsini gizlədə bilmədi, özündən iki yaş böyük - altmış səkkiz yaşlı bacısını uşaq kimi danlayaraq “Yüz dəfə desəm də xeyri yoxdur! Ay zalım balası, sənə neçə yol demişəm o yana, bu yana deməzlər.

Sağla, solla danışarlar. Dediyim küçəylə üzü aşağı düşüb birinci svetafora çatanda sola dönərsən, başa düşdün? Ancaq xeyri yoxdur, tapmayacaqsan. Nə binanın nömrəsini bilirəm, nə də evlərinin. Qarmaqarışıq evlərdi, gedib tapa bilməzsən...”.

Elə bil bacı özündə güc taparaq bu dəfə səs tonuna bir az cəsarət qataraq ərkyanalıqla, bəlkə də onu danladığının əvəzini çıxmaq məqsədiylə məzəmmət tonunda “Bu geyimlə hara gedirsən belə?

Yüz dəfə demişəm əyin-başına fikir ver, sənnən aşağı adamlar, fəhlələr bu dəqiqə ministr kimi geyinir. Bu geyimdə, bu görkəmdə sənin alim olduğun heç kimin ağlına gəlməz. Nə əməlli-başlı yeyirsən, nə geyirsən. Xəbərin varmı, birinci geyimə baxıb adama qiymət verirlər...”.

-Prezidentlə, deputatlarla görüşüm var... - Ziya kinayə ilə bunları dedi, danışa-danışa əlindəki boyası solmuş torbanın içindən çıxartdığı kərkini, dəmir pazları (zubilləri) göstərib “Qəbiristanlığa gedirəm, qapısı qırılıb, çıxarıb qaynaq etdirməliyəm” - deyəndə ayda bir, bəzənsə iki dəfə rayona yolu düşəndə mütləq qəbiristanlığa gedib, ata-anasının, bacı-qardaşının sırayla düzülmüş məzarlarını ziyarət edən (onların hamısına qara mərmərdən möhtəşəm abidə düzəltdirən, sinə daşlarındasa öz ürək sözlərini yazdıran) dostu Rasimin bir həftə qabaq dediyi “Gedək nənənin qəbrini ziyarət edək” sözlərini xatırladı. “Rasim bu sözləri deməsəydi, özümün də əbədi gor yerim olacaq oranın - əyilmiş divardan aralanıb bircə mismarın üstündə yırğalanan qapısını bir Allah bilir haçan düzəltdirəcəydim” düşündü.

Qəbiristanlıq sözünü eşidəndə bacının bir az qabaq üzündə görkəmində olan yazıqlıq yoxa çıxdı, hər şeyi bilən müdrik adamlar kimi inamla, həm də qətiyyətlə “Bu gün qəbirstanlığa getmək olmaz” söyləyəndə Ziya bacısının nəyi nəzərdə tutaraq belə qətiyyətlə hökm verməsinə yenə əsəbiləşdi. “Pay atonnan, ağıllı olub, məsləhət verən ağbirçəyimə bax” fikrindən keçdi. -Yoxsa ölülərin məşvərət günüdü? - söylədi. Ziya bacısının gözündə həyəcan, qorxu hiss elədi. Bu dəfə bacı qısaca olaraq bir az da hökmlə “Getmək olmaz!” deyəndə cin vurdu qardaşının təpəsinə, “bir an da bu kütbeyinin yanında qalsam, həmişəki kimi dalaşmalı olacam”. -Axı, nəyə görə getmək olmaz? - sroruşub əsəbilik içində cavab gözlədi.

Bacı qardaşının gözünə niyaran-niyaran baxdı, qardaşının hövsələdən çıxacağını duyaraq, acı-acı gülümsəyərək “Ölən olar” - dedi. Qardaş əlini yelləyib heç nə

demədən həyət qapısından pələsənk dalana çıxdı, bacısının onun arxasınca gəldiyini hiss etsə də, dayanmadı, yeyin-yeyin uzaqlaşdı, döngəyə çatanda bu dəfə bacısının ucadan yalvarışlı səsini eşitdi. “Qardaş, aman günüdü, bu gün getmək olmaz.

Görürsən, hava da qaralıb” - dedi. Qardaş geri baxmadan əlini yelləyib döngəyə buruldu. Əlinin yelləməsinin mənası “altmış səkkiz yaşı var, hələ də yuxuludu” - fikirləşdi.

Qardaş iki aydan, bəzənsə üç-dörd aydan bir pay-puşla gəlib bacısına baş çəksə də, çox vaxt elə həyətdəcə beş-on dəqiqə danışıb tələsdiyini bildirib çıxıb gedərdi. Bacı yançağını basa-basa küçəyə çıxaraq həmişə qardaşının dalısınca ucadan nəsə deyib onu yenə söhbətə tutmaq istəyirdi. Bacısının küçədə ucadan danışmasından qardaşın xoşu gəlmir, heç vaxt onun sualına cavab vermirdi. “Güvəndiyi mənəm, ucadan danışmaqla alim qardaşının ona baş çəkdiyini qonşularına bildirmək istəyitr. Mən də lovğanın, təkəbbürün yekəsi...”.

Qardaş öz evlərinin yanından aldığı dörd dənə uzun betona vurulası mismarı nisbətən balacası ilə dəyişmək üçün bir neçə təsərrüfat mağazasına dəysə də, istədiyi ölçüdə mismar tapmamışdı. Soraqlaşanda bacısıgilin evlərindən azca aralıda avtobus dayanacağının yaxınlığındakı köşkü nişan verdilər. Gecəqondu evlərin həyətinin girəcəyində olan köşk yoldan iki səki aşağıdaydı.

Ziya aralıdan gələn qadınla həyətin giriş qapısına eyni vaxtda çatdı, qadının üzünə baxmadan (bəlkə də gözəgəlimli olmadığından) “buyurun” deyib onu qabağa buraxdı. Qoşa səkini enməmiş qapısı açıq köşkün eşik tərəfdən bir yanına söykəli yeşikdəki müxtəlif ölçülü beton mismarları Ziyanın gözü aldı, “nəhayət tapdım” - sevindi, sağa-sola boylansa da kimsəni görmədi.

Iki yol “Ay mağaza yiyəsi” deyə səslədi. Ziya cibindən çıxartdığı mismarları qadına göstərib yeşikdəkilərlə dəyişmək istədi. Fikrindən daşınıb mağaza yiyəsini bir də səsləyəndə sağ tərəfdən qırx beş, əlli yaşlarında üzü tüklü, saçı-saqqalı çallaşmış kişi tələsik onlara yaxınlaşdı.

Köşkə çatmağa bir-iki addım qalmış Ziya ovcunda tutduğu mismarları ona göstərib “Qardaş, mümkünsə, bunları o balacalarla dəyişim” deyib cavab gözləmədən əlindəkiləri eyni ölçüdə olan mismarların üstünə atıb yeşiyin başqa gözündə nisbətən balacalardan dördünü götürdü, ovcunu açaraq satıcıya göstərdi. Sağ ol deyib getmək istəyəndə satıcı qaşqabaqlı “Bəs mənim xeyrim?” - dedi. Ziya bir an çaşdı, nə deyəcəyini bilmədi. Qabaqca satıcının zarafat eləməsi ağlına gəldi. Ancaq onun qaşqabaqlı, üzünün soyuqluğu, ciddiliyi başqa şeylər deyirdi. “Xeyir deyiləndə burda mən nə almışam, nə qazanmışam ki?.. Böyük mismar verib

xırdasını götürmüşəm. Demək yaxşı deyil, xırdaçılığa gedəndə sən qazanmısan.

Ona qalanda mənim mismarlarıma daha çox metal sərf olunub...” Satıcı gözlənilmədən əsəbiləşərək:

- Yekə kişidi, verdiyi xeyrə bax! Yaxşı, çıx get!

- Ay qardaş, sən mənnən niyə belə danışırsan? Mən hardan bileydim dörd mismar dəyişməyə görə nəsə umursan? - deyib əlini cibinə saldı. Cibində iki yüz iyirmi min manat pul olduğunu bilirdi. (O vaxt təzə pula keçilməmişdi) Çoxu minnik, on minlik olduğundan onların arasında bir qırağı göyərən bircə əlli minliyi eşələyib göstərməyə çalışsa da, elə bil o əlli minlik qəsdən sürüşüb minliklərin, on minliklərin arasında gizlənib, üzə çıxmaq istəmirdi. Ziya əlindəki bir dəstə qarmaqarışıq pulu satıcıya tərəf uzadaraq “Nə qədər lazımdır götür” - dedi. Satıcı əlinin dalıyla onun qolunu yavaşca, ancaq əsəbiliklə itələyərək “Çıx get burdan, sənnən adama xeyir gəlməz. Sən üç mismar atdın, dördünü götürdün” - dedi. Elə bil Ziyanın başına ağır bir toxmaq ilişdirdilər. Damarlarındakı qan sanki dondu. Əlindəki pulu yenə də satıcıya sarı uzadaraq bir an donuq-donuq ona baxdı.

Haçandan-haçana dili açıldı: “Ayıb deyil, mənə elə söz deyirsən?” söylədi. Satıcı üzünü ondan çevirərək qadının göstərdiyi konfetlərdən selofon torbaya yığmağa başladı. Ziya əlindəki pulu yenə də ona sarı uzadıb “ay qardaş, demirsən, mənim xeyirim, nə qədər istəyirsən götür də” - söyləyəndə satıcı yenə onu itələyərək “Qəmişini çək də məndən, zalım oğlu, niyə məni hövsələdən çıxarırsan?” - dedi, üzünü qadına tutaraq “Ay bacı, Siz görmədiz, onun əlindəki üç mismarı?” Qadını şahid kimi köməyə çağırması Ziyanı qorxutdu. “Yəqin qonşularıdı, onun sözünü təsdiqləyəcək”. Ziya qorxudan qadının üzünə baxmadı. Allah tərəfi qadından səs çıxmadı.

- Ay kişi, bir mismar nə olan şeydi, mən onu oğurlayım?!

Ziya şəhərin mərkəzində beş mənzilli geniş evdə yaşadığını, akademiyada şöbə müdiri vəzifəsində işlədiyini, çoxdan gözlədiyi doktorluq işini müdafiə etmək üçün artıq günün təyin olunduğunu, iki oğlunun namaz qıldığını, oğlanlarının dəvətiylə bir ay bundan qabaq “namaz”ın sözlərini əzbərləməyə başladığını, iki aydan bəri hər gecə yerinə girəndə, avtobusda gedəndə Allaha zikr elədiyini, bu gün - sabah özünü kökləyib namaza başlayacağını, küçənin o tayında onların qonşuluğunda yaşayan bacısına qurban payı verib gəldiyini, sol əlindəki torbada kərki, dəmir pazlardan başqa bir qurban payı olduğunu, (onu da dördüncü mikrorayonda yaşayan qardaşına verməliydi) demək istədi. Ancaq bunları söyləməyi özünə sığışdırmadı.

“Mən Allah adamıyam...” - dedi. Bu ifadənin də satıcıya xoş gəlməyəcəyini ağlına gətirərək dərhal “Sən də, mən də Allah adamıyıq. Bizə yalan danışmaq, özü də bu yaşımızda yaraşmaz. And içən adamlardan xoşum gəlmir. Ancaq nəyə deyirsən and içim, mən ora dörd mismar atdım” - söylədi.

Beynindən keçən bu sözləri isə “Bax, istəyirsən mərc gələk, bu dəqiqə taksi tutum, gedək mismarları aldığım mağazaya, mən aralıda durub danışmayım, sənin özün ondan bir saat qabaq neçə mismar aldığımı soruş” demək istəsə də, dərhal fikrindən döndü. “Şıdırğı alver gedirdi, birdən satıcının yadından çıxmış olaram” düşündü.

Satıcı konfeti selofan torbaya yığıb dikəldi, tərəziyə yaxınlaşanda Ziya yenə əlindəki pulları ona sarı uzadaraq bir sayaq onun qabağını kəsdi, “yaxşı, olan oldu,. keçən keçdi, lənət şeytana, nə qədər lazımdı götür” - deyəndə satıcı əlindəki konfet torbasını uzaqdan tərəzinin gözünə atıb əllərini bir-birinə bərk-bərk vurub - “Səhər-səhər bu mərdimazar hardan azıb gəldi bura, bunun vid-fasonuna bir bax! Ay kişi, sənin kimi tiplərli çox yola salmışam, sən birinci deyilsən” - söyləyib təəccüb və çaşqınlıqla gah sağa, gah sola baxdı, - Sən açıqca desəydin mənə üç-dörd mismar lazımdı, verməzdim bəyəm?! Ancaq adamı key yerinə qoymaq...”.

Bu dəfə Ziya hirsləndi: “Yalançının atasına lənət” demək istədi, ancaq dilinin ucundakı bu sözləri qaytarıb uddu. Satıcının təhər-tövrünü görüb onun ağzından daha nalayiq, biabırçı sözlər eşidəcəyindən ehtiyat elədi. “Ay kişi, istəyirəm sənin ürəyincə olsun, ona görə deyirəm nə qədər lazımdır pulunu çıx, mən də rahat çıxım gedim. Niyə məni bir mismar oğurçusu kimi yola salmaq istəyirsən? Üst-başıma baxıb elə bilirsən dilənçiyəm, yoldan ötənəm? Mən də bir hörmətli yerdə işləyirəm” - dedi, əlini cibinə aparıb vəsiqəsini çıxartmaq fikrindən keçdi. Vəsiqənin evdə qaldığı yadına düşdü. “Evdə arvad-uşağınla” demək istəyəndə bu sözün satıcının heysiyyətinə toxunacağından ehtiyat etdiyindən “Arvad-uşağınla” sözünü “kiminləsə” əvəz edib “dalaşıb gəlmisən, hirsini mənim üstümə tökürsən” - söylədi.

- Ay adam, xatanı çək mənnən - deyib Ziyanın qolundan tutub onu geri çevirdi, yavaşca itələyə-itələyə - Get, get, dayanma burada- dedi. Ziya iki səkini qalxdı, üç addım atıb dayandı. “Məni bir mismar oğurçusu kimi yola saldı” - düşündü. Geri qayıdıb “qəbiristanlığa getdiyini, dəmir çərçivənin hər yanına iki mismar vuracağını satıcıya təzədən danışmaq istədi. O müqəddəs yerə, tək ana məzarına baş çəkməyə gedərkən bir mismar oğurlamaq dünyada heç kimin ağlına gəlməz” - deyib satıcını inandırmaq istədi. Ancaq satıcının əsəblərinin gərildiyini, artıq danışığını belə bacarmadığını duyaraq, həm də belə gərgin məqamda uyuyan anasının adından istifadə etməyi, kiçik hisslərlə yaşayan, dörd mismar dəyişərkən xeyir uman ucuz-düşük bir adamın yanında dilinə gətirməyi özünə sığışdırmadı.

“Belə nanəcib adamın mismarı mənə lazım deyil” düşünüb qətiyyətlə geri qayıtdı, iki pilləkəni enib hələ də əlində saxladığı dörd mismarı əyilərək götürdüyü yerə atıb “lazım deyil, mən öz mismarlarımı götürürəm” söyləyib, iri mismarlardan dördünü götürəndə satıcı onun üstünü kəsdirib yenə də “Sən üçünü atmışdın” - dedi. Ziya “Yalançıya Allah qənim olsun” - deyəndə satıcı bu dəfə onu kabudluqla giriş qapısına sarı itələdi, qoşa səkiyə çatanda Ziya azca dirənib yenə nəsə demək istəyəndə satıcı “Şər-xətanın biri, şər xəta, məni qana çəkmə, əlim-ayağım dəyməmiş rədd ol burdan!” - deyib onu uşaq kimi itələyib küçəyə saldı. Ziyanın bir əlində torba, o bir əlində mismarlar olduğundan, həm də güc göstərərsə, işin pis sonluqla qurtaracağını duyaraq azacıq dirəniş göstərsə də, küçəyə çıxar-çıxmaz “Bircə onu deyirəm yalançıya, şərçiyə Allah qənim olsun” söylədi.

Satıcının rəngi ağarmışdı, nəsə deyə-deyə geriyə qayıtdı. Ziyanın qulaqları uğuldadığından onun dediklərini eşitmədi. “Məni bir mismar oğurçusu kimi şərlədi, həm də uşaq kimi itələyib qovdu” - fikri ağlından keçdi, yenidən geri qayıdıb “Allah göydən baxır, o şahiddir” - demək istədi. Ancaq qapının ağzında əsgər geyimində bir gənc (Ziya onun əsgər olmadığı qənaətinə gəldi) onun qabağını kəsərək sərt şəkildə “əl çək də, yaşlı adamsan, işin-gücün yoxdu?!” - dedi. Ziya satıcının yanına üç-dörd adamın yığışdığını gəncin çiyni üstündən gördü. Kiminsə sorğusuna cavab verən satıcı bəlkə də Ziyanın uzaqlaşdığını güman edərək “it oğlu it, buna deyirlər it dəridən əl çəkdi, dəri itdən əl çəkmədi, kopoyoğlu!..”

Ziya əsgər forması geymiş gəncin çiyni üstündən boylanaraq “ona görə cavab vermirəm ki, söyüşün özünə qayıtsın”. Gənc əl vurmadan onu döşləyə-döşləyə itələyib oradan uzaqlaşdırdı.

Balaca qardaşı evlərində onu gülərüzlə qarşıladı. Ziya torbadan əti çıxarıb qardaşına uzadaraq sakit səslə “Qurban payıdı” - desə də balaca qardaş “Üzün yaman qızarıb, olmaya yenə təzyiqin qalxıb?” - soruşanda Ziya gizlətməyə çalışdığı başına gələn əhvalatı əsəbi-əsəbi, dolaşıq, dal-qabaq cümlələrlə danışdı, əsəbilikdən bəzən adi sözlər yadından çıxdı, kəkələdi. Balaca qardaş məzəmmətlə - “Evini Allah tiksin, gərək qabaqcadan bir məmməd verib sonra mismarı dəyişəydin”. Ziya nə qədər özünü təmizə çıxarıb “axı, mən ondan artıq heç nə almadım, axı, mənim mismarlarım onunkundan iri idi, axı, o mənə şər atıb bir mismar artıq götürdüyümü boynuma qoymaq istəyirdi...” - desə də balaca qardaş hər dəfə onun sözünü kəsir, “Sən gərək qabaqcadan bir məmməd verəydin” deyirdi. Ziyanın qalan hövsələsi də burda tükəndi .“Elə sən də o düşüncədəsən” - söyləyəndə balaca qardaş sakitcə “Ay qardaş, ömrünü bu şəhərdə keçirmisən, satıcıların xasiyyətini bilmirsən, belə haldan, təbdən çıxırsan, sənin bir ay elədiyin müalicə heçə getdi. Təzyiqlə zarafat eləmə, mənim bacanağımı görmüşdün də, otuz beş yaşı vardı, təzyiqi qalxdı: insulit oldu, üç gün yerində huşsuz tərpənməz qaldı,

onnan da getdi...”.

-Mənə yer eləyən odu ki, o məni oğurçu, yalançı yerinə qoymaq istəyirdi... Ziyanın bacısı kimi qardaşı da onun belə küləkli havada tək-tənha qəbiristanlığa getməsini rəva bilmədi. Gah dedi gözlə bir saata uşaq (balaca oğlu) gəlsin, onunla get, gah dedi maşın tutsaydın, (qardaşının ayaqları ağrayırdı) mən də gedərdim...

Ziya əlini yellədərək - Gözlə, qəbiristanlıqda canavarlar parçalayar məni - deyib şəstlə ayağa qalxıb qapıya yaxınlaşdı, balaca qardaş arxasınca nə qədər “dayan, uşaq gəlsin, yaxşı gözlə, mən də geyinim gedək...” desə də, Ziya qapını açıb geriyə baxmadan uzaqlaşdı.

Konus şəkilli böyük təpənin dörd yanı çevrələmə məzarlıq idi. Ziyagilin gor yeri təpənin başındaydı. Hər dəfə məzarlığa gəlib anasının qəbrini ziyarət edəndə baş daşının üstündəki anasının gözəl, doğma şəklini gördüyünə görəydimi, bu ucalıqdan baxanda aşağılarda balaca yastı təpələrin, düzənliklərin, çökəkliklərin, yenicə güzləyib göyərən taxıl zəmilərinin genişliyinə görəydimi, göz işlədikcə uzanan mavi üfüqlərin sonsuzluğuna görəydimi, Ziya yüngülləşərək buradan qayıdırdı. Incəvara divarlara-kubik daşlarına bərkidilmiş balaca dəmir qapını Ziya özüylə gətirdiyi kərki və dəmir pazların köməyilə gözlədiyindən tez, asan çıxartdı.

Havanın küləkli olması da, qapının asanlıqla divardan çıxması da, taksi sürücüsünün onunla mədəni davranması da Ziyanın gicgahındakı damarların sürətlə atmasının, şiddətli ürək döyüntüsünün, başında, bədənindəki qaynarlığın hovunu nisbətən aldı. Oğlu əl telefonu ilə zəng edib marşrut avtobusla gəldiyini bildirəndə Ziyanın ovqatı əməlli-başlı düzəldi. Günün bütün pislikləri, gərginliyi sanki arxada qaldı.

Ziya oğluyla aralıda dayanıb iyirmi-iyirmi iki yaşında olan ucaboy, şivərək gənc qaynaqçının hərəkətini izləyirdilər. Oğlanın yeyin hərəkəti, gördüyü işin səliqəsi, tez-tez verilən suallara əlini işdən saxlayıb gülümsəyərək səmimi və ehtiramla cavab verməsi Ziyanın qəlbində olan ağırlığı bir az da yüngülləşdirdi.

O, mismarla bağlı əhvalatı bütün təfsilatıyla, bütün xırdalıqlarıyla oğluna da danışdı. Oğlu dönə-dönə atasına suallar verəndən sonra “ o cahildi, insan deyil, o sənin qarşında diz çöküb üzr istəməlidi, lap sən üç mismar vermiş olsaydın belə, səninlə bu cür rəftar etməməliydi” - deyəndə ata bunları oğluna söyləməklə düzgün iş tutmadığını anladı, “atamın başına belə əhvalat gəlmiş olsaydı, heç vaxt mənə bildirməzdi” - düşündü.

Oğlan işini qurtarandan sonra qaynaq zamanı yaranmış kələ-kötür yerləri törpü ilə yonub hamarladı, çətin açılıb-örtülən paslanmış petlələri yağladı, bəzi yerlərin

boyağı getdiyi üçün dəmir qapıcığa havayla iki dəfə boya çilədi, bir daha qapının o üz - bu üzünə baxıb ehmalca dəmir dəzgaha söykəyib "Hazırdı, apara bilərsiniz" - gülümsəyərək dedi.

Ziya ona yaxınlaşıb əlini cibinə saldı "nə qədər verəcəyəm?" soruşanda, oğlan boyaçiləyən alətinin müvazinətini düzəldərək gülə-gülə "Heç nə lazım deyil" söyləyib sürətlə emalatxananın o biri başına getdi. Ziya onun ardınca gedə-gedə "bir dəyqə məni eşit" dedi, oğlan ayaq saxladı, Ziyanın əlində tutduğu pula baxdı. "Yox dayı, dünyasında götürmərəm. Belə xırda işlərdən ötrü yanıma tez-tez gəlirlər. Qəbiristanlıqla bağlı işlərin heç birindən pul almıram" - deyib getmək istəyəndə Ziya ərk edirmiş kimi, bir az amiranə tonda "Bir halda mənə dayı deyirsən, onda sözümə qulaq as, hər şey, bütün münasibət insaf üstündə olmalıdır. Yarım saatdı əlləşirsən, elektrodun işlənib, laqonda dediyin alətin çarxı yeyilib, elektrik enerjisi sərf olunub, az-çox boyan istifadə olunub, vaxt sərf eləmisən, bunlar bir yana, bütün işin, səliqən maşallah əladı, ancaq maskasız, gözlüksüz qaynaq eləməyin ürəyimcə olmadı" - deyib on min manatı qəfildən oğlanın pencək cibinə soxdu.

"Günorta bir şey alıb yeyərsən, Allah razı olsüun sənnən" - deyib yaşına yaraşmayan cəldliklə geri çevrilib sürətlə uzaqlaşdı. Mismarla bağlı xoşagəlməz əhvalatı xatırlayaraq "Deyəsən, bir az da o vicdansızın acığına belə əliaçıqlıq elədim" düşündü.

Ziya dəmir qapıcığın ancaq bir çərçivəsini qoşa mismarla divara vura bildi. Çeçələ barmağı daşla kərkinin sapı arasında qaldığından azca sıyrılıb qanadı. Qapının sağ tərəfindəki daş divarın əyilib çərçivədən xeyli aralandığını indi gördü. "Kimsə qapını itələyib açanda çərçivə yenə əyiləcək... Rasim qapını bu vəziyyətdə görsə, üzə vurmasa da, içində bizə güləcək. Iki oğulun hünərinə bax, bir balaca qapının, əyilmiş bir divarın öhdəsindən gələ bilmirlər. Yekə-yekə şeylərdən danışırlar, deyəcək.

Ziya qalan iki mismarı kağıza büküb götürdü. Sürücüyə baxıb şəhadət barmağını ona sarı tutaraq (bu, "xahiş edirəm bircə dəqiqə gözlə" demək idi) anasının qəbrinə yaxınlaşdı. Arxadan sürücünün "Müəllim, tələsməyin" sözlərini eşitdi. "Ayıq adamdı, söhbətimizdən, danışığımızdan ziyalı olduğumuzu duyub" Ziya düşündü.

Baş daşına yerləşdirilmiş farforun üstündəki anasının şəklinin tozunu əliylə alaraq ucadan "Darıxma, tezliklə gəlib divarı düzəltdirəcəyəm" -dedi, sonra "Fatihə" surəsini pıçıltayla söylədi.

Yanında dayanmış oğluna gedək deyəndə, oğlu pıçıltıyla "Ata, axı, mən demişəm "Fatihə" çox güclü, Quranı özündə ehtiva edən surədi, ancaq ölülər üçün

mollaların oxuduğu “Yasin” surəsi də fərz deyil. Onların ölülərə heç bir dəxli yoxdur” - deyib pıçıltıyla ərəbcə hansısa duanı oxumağa başladı. “Nəzakətlə, mərifətlə də olsa hər addımda adama irad tutur. Görmüşdük, ata-ana övladına öyüd-nəsihət verərdi, öyrədərdi, yanlış addımlarını, səhv işlərini deyərdi. Indi tərsinə olub. Bu yaşımda başlayım Quranı öyrənməyə. Əlli cildlik Islam ensiklopediyasını oxuyum. Ömrüm çatmaz...” - düşündü.

Ziyanın oğlanlarının biri Kiyevdə oxuyarkən, digəri isə Almaniyanın Frankfurt şəhərində ezamiyyətdə olarkən bir-birindən xəbərsiz namaz qılmağa başlamışdılar.

Böyük oğlu ədəbiyyat, incəsənət, kino, tarix, siyasətlə maraqlanır, vaxtlı-vaxtında namazını qılır, orucunu tutur, zəkatını versə də, dinlə bağlı söhbətlərə çox fikir vermirdi. Balaca oğlu isə dünyada Quran əxlaqından Quran ədalətindən, həqiqətindən başqa heç nəyi qəbul etmir, sözü-söhbəti ancaq surələr, ayələr, hədislər, təfsirlər idi. Bəzən iki gündən bir, bəzən həftədə bir ata, anasından nəzakətlə, bir az da ehtiyatla namaza işarəylə “Haçan başlayırsınız?” soruşurdu.

Həmişə olduğu kimi, onlardan konkret cavab almayanda təəssüf hissiylə “Bilmirəm nəyə arxayınsınız, savabı hər gün ötürürsünüz - deyirdi. Bəzən Islam qanunlarından saatlarla ehtirasla danışır, yaşlı valideynlərini yorub haldan salırdı. Yatanda, duranda, su içəndə, çörək yeməyə başlayanda, yeyib qurtaranda, yola çıxanda... ediləcək dualardan danışır, ata-anasının ömrü boyu elədikləri bir çox vərdişləri, adət-ənənələri pisləyirdi. Qurandan xəbərsiz olmalarını onlara ehtiyatla irad tuturdu. Bəzən ata-ana onun uzun-uzadı nəsihətlərinə - moizələrinə qulaq asmağa hövsələləri çatmır, “A bala, sənin dünyada ayrı bir marağın, məşğuliyyətin yoxdu?” deyirdilər. Bir dəfə balaca oğlu atasına yenə də “dərs verəndə” atanın səbri tükəndi “Bəsdi də, yekə oğlansan, əlinə bir kitab alıb oxuduğunu görmədim, nə ədəbiyyatdan xəbərin var, nə də bir bəstəkarı, bir rəssamı tanıyırsan. Əlinə bir qəzet alıb oxuduğunu görmədim. Bir az da dünyəvi elmlərlə maraqlan da” - deyəndə oğlu kinayə ilə gülümsünərək “Ata, mən neynim ki, Sizi sovet dövründə ayrı cür tərbiyə ediblər? Kimi deyirsən, məsləhət görürsən oxumağa? Balzakı, Şekspiri? Dostoyevskini? Nəyimə lazımdı onlar. Yoxsa Sokrat, Hegeli?”

- Bunların adlarını hardan bilirsən? - ata təəccüblə soruşdu.

- Ata, mənim üçün yaranmışların yox, yaradanın kitabı maraqlıdı.

-Sözüm yoxdu sənə. Düşəcəksən bir yığıncağa, ziyalıların arasına, ədəbiyyatdan, tarixdən, mədəniyyətdən, siyasətdən danışacaqlar, sənsə ağzına su alıb baxacaqsan. Bəsit adamsan, sənin tayların çox məlumatlıdır. Sənsə Qurandan başqa mövzu bilmirsən... Səviyyən aşağıdı...

- Necə səviyyəsizəm ki, təkcə Azərbaycanın yox, dünyanın ən nüfuzlu şirkətində işləyirəm? Bəsit, səviyyəsiz adam orada işləyə bilər? Mənim yaşıdlarımdan elənçi nüfuzlu şirkətdə işləyən birini göstərə bilərsən?

Ata narazı-narazı əlini yelləyib o biri otağa keçdi. Qohumlar, qonşular, balaca oğlanın tanışlarından bəziləri ona fanatik desələr də, hansısa dini cərəyanın təsirinə düşdüyünü söyləsələr də, atanın qəlbinin dərinliyində yeni fikir, yeni düşüncə yaranmışdı. Oğlunun dediyi "Əgər Allahı qəbul edirsənsə, Onun göndərdiyi Quran kəlamlarını yarımçıq deyil, tam riayət etməlisən" fikrinə bəraət qazandırırdı.
Taksi ilə qəbiristanlıqdan avtobus dayanacağına gələrkən ata və oğul sürücünün davranışından, rəftarından ağıllı söhbətindən razı qaldılar. Avtobusa minəndən sonra uzun yolboyu oğul nə qədər dilə tutub, yalvararaq satıcının yerini öyrənmək istəsə də ata "Onun cavabını özüm verməliyəm, bu işi ancaq özüm həll etməliyəm" - dedi.

-Axı, o sənin tayın deyil. Onda insanlıq adında çox şey çatışmır. Sən narahat olma, mən bilirəm onun öhdəsindən necə gələrəm.

- Bəlkə onun da sənin kimi, səndən də qoçaq oğlu var. Niyə əlavə problem yatarmalıyıq?..

-Ata, sən məndən niyaran olma, bircə onun yerin de. Ən azı o qonşularının yanında diz çöküb səndən üzr istəməlidir. Mən bunu ona məcbur edəcəyəm...

- Yox, məsələ gözlənilməz xoşagəlməz sonluqla qurtarsa necə?.. Özgə vaxt ədalətdən, düzlükdən danışırsan. Sən güclüsən deyə onu basıb döyməlisən? Onda sən də olarsan onun tayı. Polisə verəcəyəm, Nə artıq, nə əskik, qanun daxilində cəzasını almalıdı, bu barədə dəqiq fikirləşmişəm...

- Ay ata, polisləri tanımırsan, haqqını alıb buraxacaqlar.

- Elə əmin də sənin kimi dedi. Dedi bütün mağazalar sahə inspektorlarına hər ay haqq verirlər. Mən o barədə də fikirləşmişəm. Ərizənin bir surətini Daxili Işlər Nazirliyinə, birini Respublika prokurorluğuna, birini Prezident Aparatına, Milli Məclisdə hüquq məsələlərinə baxan komissiya olmalıdı, birini də ora... Onda sahə müvəkkili işi ört-basdır edə bilməz.

Ziya "Maraq üçün soruşaq, neçə mismar aldığım satıcının yadında qalıbmı" deyib oğlunu qonşuluqda olan mağazaya aparanda "Ay ata, neynirsən, bəyəm mən sənə şübhə edirəm?" - dedi. Ancaq mağazaya girəndə Ziyanın ürəyində qorxu yarandı,

"Birdən satıcının yadından çıxmış olar, birdən üç mismar deyər" -düşündü.

Satıcıya sualı necə verəcəyi barədə fikirləşdi. Mağazaya girəndə mismar aldığı oğlana yaxınlaşıb "Bir də salam. Tezdən bura gəlmişdim, sizdən mismar aldım, yadınızda qalmışammı?" soruşanda satıcı "yadımdasınız" deyəndə Ziya həyəcan və nigarançılıqla "Qardaş, yadınızda deyil sizdən neçə mismar aldım?" soruşanda "yaxşı yadımdadı, dörd mismar aldınız, iki petlə" söylədi. Ziya xoşbəxtcəsinə oğluna baxdı, tez də çevrilib satıcıya "Bilirsən niyə soruşuram, birinci Allah səndən rtazı olsun, yaddaşını daha da möhkəmlətsin. Siz dediyiniz yerə getdim, orda balaca mismar olmadı. Sözün qısası, başqa bir tükanda mismarları dəyişəndə satıcı həyasızcasına üzümə durdu ki, sən mənə üç mismar verdin. Sonra sözləşdik, məni təhqir elədi...". Satıcı Ziyanın haqlı olduğuyla razılaşaraq "O qədər nanəcib, xırdacıl adamlar var ki. Lap üç mismar vermiş olsaydınız belə, gərək onun üstünü vurmayaydı. Cılız adamdan nə gözləmək olar?.." deyəndə höcətləşdiyi satıcının ardı-arası kəsilmədən dolu kimi tökülən acı, təhqiramiz sözlərinin içində dediyi "cındır" sözü indi Ziyanın qulaqlarında aydınca səsləndi. "Sübut eliyərəm cındır kimdi" - fikrindən keçdi.

Qapı açılanda Ziyanın arvadının gözləri böyüdü, həyəcan içində "A kişi, yenə alışıb yanırsan, davlenin qalxıb" - deyərək yan otağa gedib təzyiqölçəni gətirdi, Ziya oğluna baxıb gülünsündü, "Təcili yardımdı" - dedi. Qadın ərinin qəbiristanlığa tək gedərək qapını çıxarıb qaynaqçının yanına gətirdiyini biləndə "Yəqin qorxmusan, sənə dedim axı, tək getmə" - söyləyib ərini tələsdirərək onun svitirini, köynəyini soyunmasına kömək elədi.

Ziya təmkinini pozmadan kresloya əyləşdi. Nəsə demək istəyəndə qadını amiranə "bir dəyqə səbr elə" - deyib ərini susdurdu. Bir neçə saniyədən sonra fendiskopu qulağından çıxarıb ərinin qucağına atıb "Bir aylıq müalicən heçə getdi" - deyib hövlnak mətbəxə yollandı. Ziyanın ucadan "neçədi?" sualına "Neçə olacaq, yüz səksən!" Bu kişiyə ağıllı deyənin ağlı yoxdu. Minnət eləyib Peterburqdan bahalı dərman gətirtdik, birini də içmir. Sabahdan inisulit olub yorğan-döşəyə düşəndə deyərəm..." - limon şirəsi hazırlayan qadının həyəcanlı səsi mətbəxi başına götürdü.

Ziya yarım stəkan limon şirəsini ləzzət alırmış kimi qurtum-qurtum, marçıldada-marçıldada içdi. Başına gələn mismar əhvalatını yenə də dağınıq və qarmaqarışıq şəkildə danışdı. Arvadını da, balaca oğlunun da suallarına gah təmkinli, gah səbirsiz, hirslənərək cavab verdi. Axırda arvad yenə ərini danlayaraq, yana-yana "Uxay, yaxşı olub. Yandıracam o paltonu. Ay kişi, o paltonu bomujlar geyir. Haçan bir əməlli-başlı geyinəcəksən? Gəncliyin hələ qabaqdadı? Dublyonkada olsaydın, o yaramaz cürət edib o sözləri sənə deyərdimi? Şikayətə gedir. Yetimin birini polisə verir. Qalan sağlamlığın da yollarda itəcək. Başına gələnlər yenə də xəsisliyin ucbatından olub. Bir məmməd çıxarıb versəydin, belə olmazdı...

Ziya birdən ayağa qalxdı, arvadının üstünə yeriyəndə oğlu onun qabağını kəsdi.

Ziya əlini silkələyə-silkələyə "Ay vicdansız, bilmirsən məsələ nə yerdədi..." dedi, sözünün dalısı gəlmədi, kəkələdi, ağzı köpükləndi, "Mən... mən..." deyə qaldı, deyəcəyi hansısa sözü unutduğundan bir az da əsəbiləşdi. Haçandan haçana dili açıldı "Bir məmməd verib onun haqlı, özümünsə yalançı olduğumu, yalan dediyimi onun böhtanını, şərləməsini təsdiqləməliydim?! Yəni ki, ona üç mismar verdiyimi boynuma almalıydım?! Ay yaramaz, olmaya sən də mənnən şübhələnirsən?!.."
Oğlu atasının qolundan ehtiramla tutub qayğı və ehtiyatla kresloda oturtmağa çalışdı, yumşaq və mehriban səsiylə, "Ana, o adam deyil, şeytanmış, eləsinin dərsiini verməк lazımdı, inşallah verəcəyik də. Bircə atam yerini desəydi...".

Ziyanın kresloda oturub azca özünə gəldiyini görən qadını səsinin ipək yeriylə "Ay kişi, gör kimə baş qoşursan, hər yoldan ötən sənin tayındı bəyəm? Neçə dəfə görmüşəm, ən azı ikisi yadımdadı, ölməli adamları, yaramazları, bir o qədər get-gəldən, əsəbilikdən sonra, yalvardılar, dil tökdülər bağışladın. Günlərlə vaxt itirdin. Bunu da bağışlayacaqsan. Tanıyıram səni. Ondansa yadından çıxart. Buna sərf elədiyin vaxtı oturub sanballı bir elmi məqalə yazsan... Allah sənə istedad verib.

Vaxtını boş şeylərə sərf eləmə...

Birdən-birə Ziyanın da səsi dəyişdi. "Bəlkə də düz deyirsən. Ancaq neçə saatdı Allaha yalvarıram yumşalmayım, soyumayım. Bilirsən niyə bağışlamayacam? Əgər ona qulaqburması verilməsə, indən belə neçə-neçə adamı yenə də acılayıb təhqir edəcək. Bir az gurultulu çıxmasın, mən innən belə onunla qarşılaşacaq tanımadığım adamları təhqirdən, aşağılanmaqdan xilas etmək üçün ona cəza verdirməliyəm" - dedi. Ziya tələm-tələsik yeməyini yeyib ayağa qalxaraq getmək istəyəndə arvadı yenə özünü saxlaya bilməyib "Bu vəziyyətdə eşiyə çıxmaq olmaz, yıxılıb küçədə qalacaqsan" desə də, əri asılqana yaxınlaşıb bir az qabaq soyunduğu gödəkcəsini götürəndə yenə arvadının etiraz dolu səsini eşitdi: "Mən insan deyiləm, bir dəfə də mənim sözümü eşit. Gedirsən, onda heç olmasa paltarını dəyiş, belə getsən səni heç polis idarəsinə buraxmayacaqlar...".

Altının tamamına az qalmış Ziya polis idarəsinin qabağına çatdı, maşından enən ucaboylu yaraşıqlı polis kapitanı "Mersedes"in qapısını pultla bağlayıb açarları əlində oynada-oynada tələsmədən binanın qapısına yaxınlaşanda Ziya ona sarı irəlilədi. "Gərək arvadın sözünü eşitdəydim, paltarımı dəyişəydim. Bəlkə də məni saya salmayacaq. Bu görkəmdə heç içəri də buraxmayacaqlar..."

- Salam, cənab kapitan.

Polis kapitanı salam verib ayaq saxlayanda Ziya onun diqqətlə, sayqıyla qulaq asması üçün tələsmədən harda işlədiyini söyləyərək, "Sözsüz, harda işləməyimin dəxli yoxdu, mən bir insan, bir vətəndaş kimi bunları Sizə deyirəm" -deyib bir an duruxdu. Başına gələn əhvalatın harasından başlamağı bilmədi. Uzun-uzadı danışıb kapitanı yorub bezdirəcəyindən ehtiyat elədi. "Cənab kapitan, gərək ki siz hüquq fakultəsini qurtarmısınız?" - soruşanda kapitan ani tərəddüddən sonra başını tərpətməklə onun söznü təsdiqlədi.

- Bilmək istəyirəm, təhqirə görə adama hansı səviyyədə cəza verilir?

- Baxır təhqirin dozasına, ağırlığına, yüngüllüyünə...

- Deyək ki, atanı söyür, adama cındır deyirlər. Söyülən də cavab qaytarmır?..

-Axı, adamı durduğu yerdə söyüb təhqir etmirlər. Bir səbəb olmasa...

Ziya kapitanın sözünü kəsdi.

- Qardaş, düz danışan adam heç and da içmir. Ancaq bir-birimizi tanımadığımıza görə mən bilmirəm nəyə and içim. Allaha, bizi yaradana and olsun. Əgər bir sözü artırıb-əskildirəmsə... Adamlar həmişə danışanda öz xeyrinə danışır, öz günahlarını, qəbahətini gizlədir, ancaq qarşı tərəfin günahlarını söyləyir, özü də artıra-artıra. Yalan danışanın təkcə öz üstünə yox, evlərinə Bakının kanalizasiyası açılsın...
Kanalizasiya söyüşünü dediyinə peşman oldu "Abırlı, ziyalıdan belə danışığı heç kim gözləməz, məni fırıldaqçı, kələkbaz kimi tanıyacaq..." düşündü, ancaq dayanmadan başına gələnləri evlərində danışdığı kimi baş-ayaq, rabitəsiz, kəkələyə-kəkələyə söylədi. Kapitanı inandırmaq üçün "lazım gəlsə, qonşu dükandan aldığım dörd mismarı satıcı da təsdiqləyə bilər" - dedi, dərhal ağlına gəldi ki, kapitanın "nə olsun, qonşu satıcını dilə tutub, ona nəsə verib razılaşdıra da bilərsən" fikirləşəcəyi ağlına gəldi, ona görə də - Allaha and olsun, qonşu da olsa, onunla salam-əleykümüm yoxdu, - dedi, elə bu axırıncı sözləri söyləməklə yenə səhv buraxdığını güman elədi.

Kapitanı inandıra bilmədiyini güman edərək "Axı, anasının qəbrinin üstünə gedən adam, mən bunu psixoloji baxımdan deyirəm, güman edirəm Siz insan psixologiyasını yaxşı bilməlisiniz" – decək, yenə də özündən şübhələndi, "polş məni yaltaqlanan, yarınan adam bilib məndən zəhləsi gedə bilər" düşünsə də sözünə davam elədi, "bir mismar oğurlamağı özünə rəva bilməz" söylədi, "ancaq nanəcib, xırdaçı, cılız adam hər an dələduzluq edə bilər, yəqin ki, Siz insanın bu xislətinə məndən də yaxşı bələdsiniz..."

Belə deməyimə görə ya məni avam, sadəlövh sayacaq, ya da fırıldaqçının yekəsi - düşündü.

Kapitan mağazanın yerini ünvanını biləndə “Ora bizim ərazimiz deyil, Nərimanov rayonuna baxır” - söylədi.

- Cənab kapitan, xeyli vaxtınızı aldım, bir şey də soruşum, o adamın cəzası nə ola bilər?

- Cərimələyə bilərlər.

- Nə qədər cəriməlsələr, mən onu aparıb uşaq bağçasına, ya da yetimxanaya verəcəyəm...

- Yox, o cərimə dövlətin hesabına keçir...

Ziyanı qapının ağzında arvadıyla oğlu qarşıladı. Arvadı həyəcan və təşviş içində “Boy, bəxtəvər başıma, gedib yenə də hirslənib gəlmisən, paltarını soyun ölçüm” söylədi. Oğlu bəlkə də xoşagəlməz əhvalayı unutdurmaq üçün qəbiristanlıqdan qayıdarkən atasına dediyi “söz vermişəm, çəkilən xərci özüm verəcəm” söhbəti xatırlayıb əlində utduğu əlli minliyi xırdalamasını atasının yadına salanda, atası “o biri evdə stulun başında şalvarımın cibində olmalıdı” dedi, limon şirəsindən bir qurtum da içib əyləşdiyi kreslodan qalxıb divana yayxandı. Arvadı vannada gətirdiyi isti suyu onun yanına qoyub ərinin corablarını çıxara-çıxara “Bu yaşdan sağ-salamat çıxsan, çox yaşayacaqsan” - dedi. Su isti olduğundan Ziya gah ayağının ucunu, gah da dabanını suya batırır, dərhal da geri çəkir, arvadının onun üstündə əsməsindən xoşlanırdı. Ərinin yavaş-yavaş yaxşılaşdığını üz-gözündən duyan qadını “Sənin yerində olsaydım, bilirsən nə eləyərdim, nə şikayət, nə polisə getmək, saatlarla vaxt itirmək, Allah bilir yenə də nə qədər əsəbiləşmək... O mismarlardan əllisini-yüzünü al apar ver o yaramaza. Özün aparma, bir adamla göndər...” - dedi.

Ziya ayaqlarının ikisini də birdən suya soxub bərkdən güldü.

- Vallah, sən ömründə belə ağıllı, həm də gülməli söz deməmişdin. Başdan ayağa yumordu, həm də mədəni söyüşdü. Ancaq orası da var ki, götürməyə bilər, əsəbiləşib bir az da özündən çıxar...

-Onun gözünə görünmək lazım deyil. Başqa adam aparsın. Satıcı əyilib şey götürəndə, başqa səmtə baxanda xəlvətcə bir yerə qoyub çıxsın.
Arvadının təklifi Ziyaya o qədər ləzzət elədi ki, o biri otaqdan gəlməsini gözləməyə səbri çatmayıb oğlunu səslədi. Istiyə dözməyən ayaqlarını sudan çıxarıb

gülə-gülə dabanlarından süzülüb tökülən damcılara tamaşa elədi. Oğlunun azca aralıda dayandığını hiss edərək hələ də vannaya tökülən damcılardan gözünü çəkmədən gülə-gülə şən səslə "Bilirsən anan nə deyir?" söyləyib başını qaldıranda oğlunun bir əlində əlli minlikdən qalan iki onminlik, o biri əlindəsə uzun beton mismarlardan birini gördü. O uzun mismarı elə bil Ziyanın alnına çaldılar, Qabağındakı qaynar suyu təpəsinə tökdülər.

O, dodağındakı gülüşün birdən-birə buza döndüyünü hiss elədi. Buz təbəssümü ilə arvadının dediyi təklifi söyləməyə çalışdı. Danışığı bədəndən kəsilib ayrılmış başın deyinməsinə oxşayırdı. Birdən-birə Ziya donub iki adam olmuşdu. Onun biri, divanda oturub həssas oğlunun hər şeyi anlayacağından ehtiyat etdiyindən vağala çalan gözlərini ondan yayındırıb yuxarı qaldırdığı ayaqlarından vannaya aramla tökülən damcılara baxaraq dodaqlarında buza dönmüş gülüşüylə arvadının dediklərini təkrar edirdi, ikinci Ziya isə, gah satıcı ilə höcətləşir, satıcı onu təhqir edir, itələyə-itələyə qoşa səkini çıxmağa məcbur edir, gah da qəbiristanlıqda küləkli havada tələm-tələsik balaca dəmir qapının çərçivəsinin bir tayına iki mismar vurur, tələsdiyindən kərkinin dəmir sapı ilə kubik daşının arasında qalıb sürtülən çeçelə barmağını yaralayır, sonrasa təzə cücərmiş otların arasından iki mismarı götürüb kağıza büküb cibinə qoyurdu.

Yox, yox dönə-dönə fikirləşsə də, Ziya qoşa mismarı şalvarınınmı, gödəkcəsininmi cibinə, yoxsa kərkiylə, dəmir pazlar olan torbaya qoyduğunu xatırlaya bilmirdi. Birinci Ziyanın qulağına oğlunun səsi gəlir "yüz mismar niyə, lap bir yeşik alaram. Ancaq özüm aparıb vermək şərtiylə..." Ziya ayaqlarını daha vannaya salmadan ayağa qalxdı, jurnal masasının üstündən götürdüyü stəkandakı limon şirəsini araq kimi bir dəfəyə başına çəkdi. Buza dönmüş gülüşünün dodaqlarında ağırlıq etdiyini duysa da, gülümsəməyi davam edirdi. Oğlunun gözlərinə deyil, sanki alnına çalınmış mismara baxaraq əlinin hərəkətiylə oğlundan onu istəyirdi.

Ziya yaş ayaqlarını çəkələyə soxaraq "yaman yorulmüşam" deyib yataq otağına keçdi. Paltarlarını soyunmadan yerinə girib odeyalı başına çəkdi.

Baş ağrısı şiddətlənib nəbzi sürətlə atan Ziya yenə bir olmuşdu. Dəqiqələr, saatlar ötür, o, gecəqondu məhəlləsindəki iki pilləkəni əlli dəfəmi, yüz dəfəmi yenir, qalxır, ayrı-ayrı gözlərə ayrılıb müxtəlif ölçüdə mismarlar tökülmüş yeşiyin üstünə dəfələrlə əyilib qalxır, əlindəki mismarı atır, başqasını götürür, satıcı deyinir, onu borclu çıxarır, itələyə-itələyə eşiyə salır, ancaq Ziya yeşiyə atdığı böyük mismarların sayını görə bilmir, yaxud peşman olub kiçik mismarları yiyəsinə qaytarıb öz böyük mismarlarını götürərkən neçəsini götürdüyünü heç cürə yadına sala bilmir, cəngəllikdə tora düşüb dartınan, dartındıqca daha çox dolaşan, getdikcə gücdən düşən vəhşi heyvan kimi hikkəsindən partlamaq həddinə çatırdı. "Gedim satıcıdan üzr istəyim?.. O söyüşdən, o təhqirlərdən sonra ondan üzrmü istəmək

olar?..”

O, qaranlıq otaqda odeyalın altında gözlərini yumub getdiyi yerləri addımbaaddım, özünün və başqalarının dedikləri sözləri muncuq kimi sapa düzürmüş təkin xatırlamağa çalışırdı. Son vaxtlar, bəlkə də on ildən də çox olardı, kiminləsə sözləşdiyi, kiminsə xətrinə dəydiyi, yaxud özünün kimdənsə incidiyi yadına gəlmir, yatıb duranda bəzən ucadan, bəzənsə ürəyində olsa da Allah sözü dilindən düşmür, hər gecə işığı söndürüb yerinə girəndə, Allahın bir neçə adını, sifətini deyərək Böyük Yaradana müraciətlə Ona sığınmağa icazə verməsini xahiş edir, yalvarır, Onu dərk eləməkdə, daha gözəl, daha aydın duyub hiss eləməkdə ona yardım eləməsini yalvarır, sonra bir neçə arzu-diləyini Ondan xahiş edir, sonda isə zikr edərək otuz üç dəfə Sübhən Allah, otuz üç dəfə Əlhəmdülilləllah, otuz üç dəfə də Allahu Əkbər deyir, sonda kləmeyi-şəhadətini söyləməklə ibadətini bitirirdi. Yorğun olduğu vaxtlar Allahın adıyda bağlı bəzən birinci, bəzənsə ikinci, yaxud üçüncü zikretmədə onu yuxu tuturdu. Bu günkü səfərini dönə-dönə xatırlaya-xatırlaya dəfələrlə bu sualı “Axı, hansı günahıma, hansı səhvimə görə Allah başıma bu oyunu açdı, bu cəzanı verdi?” öz-özündən soruşurdu.

Xoşagəlməz əhvalatdan sonra gecəqondu məhəlləsinin dar dalanında bacısının dediyi “Qardaş, aman günüdü, bu gün getmək olmaz” sözlər onun qulağında bəlkə otuz, bəlkə də qırx dəfə sakit və mülayim səslənmişdi.

Lakin qaranlıq yataq otağında, odeyalın altında, həmin sözlər gözü qapalı Ziyanın qulağından çox, elə bil beynində, ürəyinin başındla qorxuyla, təlaşla, vahiməylə səsləndi. O sözlərdəki dərin sehr, eyham, gizlinləri, xəbərdarlıq sanki ona indi əyan oldu. Qaçqınlıqdan qabaq yerin altın da bilən, üstün də bilən Roza müəllimin onun bacısı haqqında dediyi “Leylanın nəfəsi çox ağırdı” sözləri, doğmaca anasınınsa ölümündən bir neçə gün qabaq “Leylanın kütlüyünə baxma, hərdən o, heç kimin görmədiyini görür...” dedikləri indi onun qulaqlarında, qəlbində, beynində başqa cür səsləndi. Odeyalın altında meyit kimi tərpənməz qalmış Ziya həm öz ürək döyüntüsçünü eşidir, gicgahında şiddətlə vuran nəbzi hiss edir, həm də keçən yüzilin min doqquz yüz qırx üçündə, azğın müharibə cəbhə arxasındakı bütün insanların sifətini yalayıb soldurduğu vaxt yanaqlarından qan daman üçyaşlı gülyanaq Ziya yerdə palazın üstündə bardaş qurub oturaraq altı yaşlı bacısı Leylanın hərəkətlərini ərköyün-ərköyün, acgözlüklə izləyirdi. Arıq, solğun bənizli Leyla özünün bir qırıq pendir payının yarısını, əl boyda lavaş payının yarısına qoyaraq balaca dürmək tutub qardaşına verirdi. Ağızları dada gəlsin deyə yeməyin axırına saxladığı, vaxtı keçib azca dadıxmış yeganə şokolad konfeti yarıya bölüb yarısını alyanaq qardaşına uzadırdı. Alyanaq oğlan öz payını bir dəfəyə ağzına qoyub çeynəyir, ağappaq muncuq dişləri qəhvəyi şokolada bulaşırdı. Alyanaq, girdə ovurdlu qardaşının yeməyindən ləzzət alan altı yaşlı Leyla “muncuq dişlərini yeyim” - deyib öz şokolad payını da ona verdi, öz ağzının suyu axdığına, cəngləri

ağrıdığına görə kağazın üstünə tökülmüş şokolad qırıntılarını dilində yaşladığı şəhadət barmağıyla alıb ağzına qoydu. Altmış altı yaşlı Ziyanın ömründəki yaddaşının başlanğıcı bacısının şokolad qırıntılarını barmağıyla "dənləməsiylə" başlayırdı.

Oxuduğu illər forsundan yerə-göyə sığmayan Ziya hər yay kəndlərinə tətilə gələndə qonaq çağırdığı gün Leyla yeddi qızıyla ev-eşiklərini dibdən-daşdan yığışdırıb həyət bacalarını sahmana salaraq evlərindən baş küçəyəcən uzanan dar yolu süpürərək, dünyanın bütün naz-nemətini masanın üstünə yığaraq, kəndlərində ilk və yeganə UNIVERSITET tələbəsi olan əziz qardaşını həyəcan və səbirsizliklə gözləyərdilər.

Ziya həyətə gircək bacısı Leyla, əri Altay səkkiz arı yeşiyinin arasında yeganə olan boru şəkilli toxunma səbət pətəkdən bal kəsdiklərinin üstünə çıxanda bacısının gülə-gülə "Niyə gəlib çıxmırsan, gözümüzün kökü saraldı axı" - deyəndən sonra yan-yörəsində, əlində tutduğu boşqabdakı yenicə kəsilmiş, günəşin altında bərq vuran üstündə əsəbi-əsəbi arılar qaynaşan qar kimi bəmbəyaz şan bala işarəylə "Sənnən ötrü saxlamışıq e, bu balı. Bilirsən bunnan ötrü nə qədər adam küsüb bizdən" - decək, əri onun sözünü küsərək "Yaxşı, yaxşı, bir qırıq bal yeyəcək, minnət eləmə" söyləyəndən sonra "Ziya, bilirsən o birilərindən bunun fərqi nədir?" deyib cavab gözləmədən sözünə davam elədi:

- Yeşiklərə hazır toxunma mumatert qoyurlar. Ancaq səbətdəki şanı binədən arıların özü toxuyur. Ona görə səbət balı adamın ağzında ərriyib gedir...
Kolxozun soğanlıq zəmiləri, bostan yerləri, şəftəli, alma bağları, arxlar boyunca nizamla sıraya düzülmüş əsgərləri xatırladan qələmələr, tarlaların qırağında ağacları sanki basmartlayıb altına almış azman cəvis ağacları, gövşənin ortasından rayona uzanan asfalt yolu, sağ tərəfdə qoşa çayların qovuşduğu yerdən başlayaraq ucalan nəhəng dağın ətəklərində üzüm bağları, yuxarılara qalxdıqca dağın belinə qurşaq kimi dolaşmış yamyaşıl meşə zolağı, lap yuxarılara qalxdıqca seyrəlib keçəlləşən, ağ çalmalı ixtiyar kişiləri xatırladan bəmbəyaz bulud papaqlı dağ, kəndin amfiteatrını xatırladan yüksəklikdə yerləşən Leylagilin ağ dəmir örtüklü evlərinin ikinci qatının balkonundan, pəncərəsindən ovuc içi kimi görünürdü. Hər yerdə yay meyvələri sovuşduğundan qonşular Leylagilin bağçasında ağacların təpəsində bir budaq dəyib iriləşmiş, allanmış calaq alma, ərik, albuxara, gilənarın Ziya üçün saxlandığını bilirdilər. Göylərə gülümsünən meyvəli budaqlar Leylagilin balkonundan daha aydın, daha gözəl görünürdü. Əziz dayılarına saxladıqları bu meyvələri Leylanın on dörd yaşlı böyük Sevinc qızından ikiyaşlı sonbeşik Qızbəstiyəcək bütün günü sərçədən, qaratoyuqdan, muradquşundan qoruyur, ancaq dəyib yerə düşənləri götürüb yeyirdilər.

Qaçqınlıq dövründə ərini itirmiş Leyla kəndçilərinə qoşularaq, sanki qonşularına

gedirmiştəkin adi xalatdaca əli qolundan uzun Bakıya gəlmiş, neçə illər öncə Sumqayıta gəlib kök salmış dördüncü qızının evində bir müddət qalmış, beş-altı ay ərzində müxtəlif rayonlara səpələnmiş altı qızı da ailəliklə köçərək Sarayda, Hövsanda, Mərdəkanda, Lökbatanda, son iki qızları isə Bakının Yasamal və Sabunçu rayonlarında məskunlaşmışdılar. Kürəkənlərini qaşqabaqlı görəndə, qızlarıyla ərləri nə səbəbdənsə höcətləşəndə, azacıq səs tonlarını qaldırıb uşaqlarını danlayanda Leyla bütün günahları özündə görüb ailələrə narahatçılıq, darısqallıq yaratdığını güman edərək on-on beş gündən artıq bir qızının evindlə qalmamış, rayondakı evini dəyişmək məqsədilə günlərlə, aylarla bəzən qızlarıyla, bəzən elliləriylə səhərdən axşamacan qəsəbələri, Bakının küçələrini dolaşmaqdan bezdiyi günlərin birində ikinci Alatavada dar dalan boyuncxa sıralanaraq divarları, damları bir-birinə söykənmiş, mətbəxi, ikigözlü otaqları iç-içə olub pəncərəsiz vaqonu xatırladan, dalandan dörd pilləkən aşağı olan gecəqondlu evin yiyəsiylə sövdələşərək açarları əlinə alanda sevincinin həddi-hüdudu olmamışdı.

Leyla on-on beş dəqiqəliyə içəri keçib çay içməyi qardaşına təklif edəndə Ziya tələsdiyini demişdi. Əslində, Ziya tələsdiyinə, vaxtın darlığına görə deyil, bacısının rütubət qoxuyan, günün günorta çağı alatoran olan evlərində uzun müddət damcıladığından tavanın bir tərəfi qarın verib şişmiş, bir tərfi qoparaq sallana qalmış faneri görməmək üçün içəri keçməmişdi. Tələsik bacısından ayrılaraq dar dalan boyu yarısı torpaqda, yarısı çöldə olub bəzi yerləri qırıldığından içərisi ilə axan sabunlu-çirkablı suları, ürəkbulandırıcı zir-zibili görünən kanalizasiyanı əvəz edən azbest boru boyunca əsəbi-əsəbi addımladığından bacısının səsinə geri dönərsə, ayağının çirkab sularına düşəcəyindən ehtiyat edərək geriyə çevrilib gülümsəməyini bacısına göstərə bilmədiyini odeyalın altında xatırlayanda, bacısının həyəcan və qorxuyla dediyi “Qardaş, aman günüdü, bu gün getmək olmaz” sözlər qulaqlarında səsləndi. Həmin anlar bacısına üstən aşağı baxdığına, savadsız, avam yerinə qoyduğuna, onun barəsində “ömrün boyu yuxuda olmusan, ömrünü də yuxuda başa vuracaqsan” düşündüyünü, “gör kim kimə ağıl öyrədir” fikirləşdiyini, Şumanın, Hindemitin, Şubertin heç olmasa adlarını eşitsəydin... Üzeyir Hacıbəyovla Səməd Vurğunun otuz yeddinci il qasırğasından, tufanından xilas olmalarının səbəbi bir dəfə də olsun ağlına gəlibmi? Eynşteynin, Dostoyevski barəsində söylədiyi fikiri heç vaxt eşitməyəcəksən...” düşündüklərini indi odeyalın altında acı-acı xatırladı, o anlar bacısının beş addım eni, altı-yeddi addım uzunluğu olan dar həyətlərində divar boyunca düzülmüş diqqət və qayğıdan tər-yaşıl yarpaqları par-par yanan limon və adlarını bilmədiyi dibçək çiçəklərini xatırladı, “gülləri sevib, onlara qayğı göstərmək ona anamdan keçib...” - düşündü.

“Oxuduğum onlarla, yüzlərlə kitab, o kitablardakı tarixi şəxsiyyətlərin, imperatorların, dahilərin, dühaların, sənət korifeylərinin həyatı haqqındakı bilgilər, onların müdrik fikirləri, buraxdıqları səhvlər məni bu günün xatasından, şərindən, qovğasından qurtara bilmədi. Vur-tut səkkizinci sinfi bitirmiş, düz-əməlli yazıb

oxumağı unutmuş, qaçqın, didərgin olandan sonra Bakıda neçə binanın həyət-bacasını, küçələri süpürüb təmizləməklə özünü saxlayan bacımın bu fəhmi, duyumu, bu bilgi, intuisiyası hardandı, axı “bu gün getmək olmaz” sözünü o elə-belə sözgəlişi demədi, böyük təşviş, həyəcan, qorxu, narahatçılıq və yalvarışla söylədi. Qolumdan tutub saxlamaq istəyirdi, dartınıb əlindən çıxdım. Gücü çatsaydı, bəlkə də tutub buraxmayacaqdı. Yox, həmişə hər yerdə savad, informatik bilik hər şeyi həll eləmir... Görəsən tükü-tükdən seçən balaca oğlum mismarlar barəsində bir şey bildimi? Axı, onun gözünün qabağında mismarların ikisini qapının çərçivəsinə çaldım, ikisini kağıza büküb cibimə yox, deyəsən kərki, pazlar olan selofan torbaya saldım. Yaxşı, oğlum bu tək mismarın hardan peyda olduğunu məndən niyə soruşmadı?

Nəyinsə dodaqlarının aşağı, oradan da çənəsinə- boğazına sürüşdüyünü hiss edərək Ziya əlini boğazına aparanda burnundan qan axdığını duycaq, bir əliylə burnunu sıxdı, o biri əliylə odeyalı üstündən hövlnak ayağa qalxaraq özünü hamama saldı, krantı açıb soyuq su ilə üz-gözünü, boyun-boğazını yuyanda gözü güzgüyə sataşdı, köynəyinin yaxası, svitri qana bulaşmışdı.

Xəbər tutan arvadı hamama girəndə “Buuyy, bəxtəvər başıma, a kişi, nə oldu? sualına Ziya “deyəsən yorğan-döşəyi də bulamışam” söylədi.

Arvadının deyinməsi, danlaması əvəzinə “A kişi, sevinmək, qurban kəsmək lazımdı ki, burnunnan qan açılıb, Allah eləməmiş, o qan başına, beyninə sızmayıb” söyləməsinə Ziyanın içindən, qəlbindən sanki işıq keçdi “Bu həftənin içində Leylanın evinin daman yerini, sallanan fanerini də düzəltdirməliyəm. Bunlardan da qabaq günü sabah Leylanı götürüb Gülyazgilə aparpmalı.